İkinci Dönem

VARLIQ

وارلیق

Dil, Edebiyat, Toplum ve Kültür Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies

2023: 32(2)



FUZÛLÎ

وارلیق

VARLIQ

Dil, Edebiyat, Toplum ve Kültür Araştırmaları Dergisi
Dil, Ədəbiyyat, Cəmiyyət və Mədəniyyət Araşdırmaları Dərgisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem, Sayı: 2023: 32(2)

Qurucu / Kurucu
Merhum Prof.Dr. Cavad Heyet

Sahibi ve Baş Editörü / Baş Redaktoru
Dr. M. Rıza Heyet

Yazışma Adresi
Ankara Üniversitesi, Dil ve Tarih-Coğrafya Fakültesi, Sıhhiye, Ankara
E-posta
varliq@varliq.org; varliqdergisi@gmail.com
Web
www.varliq.org
Matbaa
Step Dijital
ISSN
2149-7257

Yayın Qurulu / Redaksiya Heyəti

(Alfabetik)

Dr. İbrahim ARIKAN, Dr. Toğrul ATABAY, Ekber AZAD
Haydar BAYAT, M. Rıza GOÇİ, İsmail HADİ
Dr. M. Rıza HEYET, Hasan Mecidzade SAVALAN
Dr. Pervane MEMMEDLİ, Kerim Meşruteçi SÖNMEZ
Hüseyin Muhammedhani GÜNEYLİ, İbrahim
RAMAZANİ, Hasan RAŞİDİ, Dr. Ata ŞAHİT
Alırıza SARRAFİ

Dil Editörleri / Dil Redaktorları

Azerbaycan Türkçesi-Farsça: Dr. M. Rıza HEYET
İngilizce: Derya ERBİRSİN
Rusça: Prof.Dr. Gülsüm Killi YILMAZ
Türkiye Türkçesi: Merve KARGALI

Tasarım / Dizayn

Abbas ŞADMEND

Qapaq Tasarımı ve Uyqulama

Şeyma BİLGEN

Web ve Teknik İşler

İmad HAZRETİ

Elmi Şura / Bilim Kurulu
(Alfabetik)

Merhum Dr. Arif ACALOĞLU
Yeditepe Ü. Antropoloji Bölümü
İstanbul/Türkiye

Prof.Dr. Yavuz AKPINAR
Ege Ü, Türk Dili ve Edebiyatı Bölümü
İzmir/Türkiye

Prof.Dr. Gülşen Seyhan ALIŞIK
Marmara Ü, Türk Dili ve Edebiyatı Bölümü, İstanbul/Türkiye

Prof.Dr. Nuşabə ARASLI
Azərbaycan Elmlər Akademiyası, Ədəbiyyat İnstitutu, Bakı/Azərbaycan

Doç.Dr. Abdulkadir ATICI
Kırklareli Ü, Çağdaş Türk Lehçeleri ve Edebiyatları Bölümü, Kırklareli/Türkiye

Prof.Dr. F. Sema Barutcu ÖZÖNDER
Ankara Ü, Çağdaş Türk Lehçeleri ve Edebiyatları Bölümü Başkanı, Ankara/Türkiye

Prof.Dr. Səməd BAYRAMZADƏ
Azərbaycan Elmlər Akademiyası, Şərqşünaslıq İnstitutu Güney Azərbaycan Şöbəsi Müdiri, Bakü/Azerbaycan

Dr. Behruz BİGBABAİ
Tabatabai Ü, Türk Dili ve Edebiyatı Bölümü, Tahran/İran

Prof.Dr. Sonel BOSNALI
Namik Kemal Ü, Fransız Dili ve Edebiyatı Bölümü, Tekirdağ/Türkiye

Dr. Muhittin ÇELİK
İnönü Ü, Türk Dili ve Edebiyatı Bölümü,
Malatya/Türkiye

Dr. Şəfəq ƏLİBƏYLİ
Azərbaycan Elmlər Akademiyası, Nizami adına Azərbaycan Ədəbiyyat Muzeyi, Uluslararası İlişkiler Şöbəsi Müdiri

Prof.Dr. Melek ERDEM
Ankara Ü, Çağdaş Türk Lehçeleri ve Edebiyatları Bölümü, Ankara/Türkiye

Prof.Dr. Əfzələddin ƏSGƏROV
Azərbaycan Elmlər Akademiyası, Folklor İnstitutu, Türk Xalqları Folkloru Şöbə Müdiri, Bakı/Azərbaycan

Prof.Dr. Əli ƏSKƏR
Karabük Ü, Uluslararası İlişkiler Bölümü, Karabük/Türkiye

Prof.Dr. Ramiz ƏSKƏR
Bakı Dövlət Universiteti, Türk Xalqları Ədəbiyyatı Kafedra Müdiri, Bakı/Azərbaycan

Dr. Alirıza GOÇİ
Arkeolog, Ankara/Türkiye

Doç.Dr. Saime Selenga GÖKGÖZ
Hacettepe Ü, Atatürk İlkeleri ve İnkılap Tarihi Enstitüsü, Ankara/Türkiye

Akademik Prof.Dr. İsa HƏBİBBƏYLİ
Azərbaycan Elmlər Akademiyası Prezidenti
Bakı/Azərbaycan

Prof.Dr. Rafael HÜSEYNOV
Azərbaycan Elmlər Akademiyası Nizami adına Azərbaycan Ədəbiyyat Muzeyi Direktoru, Bakı/Azərbaycan

Doç.Dr. Atilla JORMA

Uluslararası Vizyon Üniversitesi, Gostivar/Makedonya

Akademik Prof.Dr. Muxtar İMANOV
Azərbaycan Elmlər Akademiyası Folklor İnstitutu Direktoru, Bakı/Azərbaycan

Prof.Dr. Hüseyin KARAMELİKLİ
Karabük Ü, İktisat Bölümü,
Karabük/Türkiye

Akademik Prof.Dr. Teymur KƏRİMLİ
Azərbaycan Elmlər Akademiyası,
Füzuli adına Əlyazmalar İnstitutu
Direktoru, Bakı/Azərbaycan

Doç.Dr. Paşa KƏRİMOV
Azərbaycan Elmlər Akademiyası,
Füzuli adına Əlyazmalar İnstitutu, Elmi
İşlər Üzrə Direktor Müavini,
Bakı/Azərbaycan

Dr. Gülcan KIZILÖZEN
İnönü Ü, Türk Dili ve Edebiyatı
Bölümü, Malatya/Türkiye

Prof.Dr. Gülsüm Killi YILMAZ
Ankara Ü, Çağdaş Türk Lehçeleri ve
Edebiyatları Bölümü, Ankara/Türkiye

Ord.Prof.Dr. Yaqub MAHMUDOV
Azərbaycan Elmlər Akademiyası,
Abbasqulu Ağa Bakıxanov adına Tarix
İnstitutu Direktoru, Bakı/ Azərbaycan

Prof.Dr. İbrahim MARAŞ
Ankara Ü, İlahiyat Fakültesi, Felsefe ve
Din Bilimleri Bölümü, İslam Felsefesi
Anabilim Dali, Türk Düşünce Tarihi
Bilim Dalı, Ankara/Türkiye

Dr. Tohid MELİKZADE
Azad İslam Ü, Urmiye/İran

Prof.Dr. Nadir MƏMMƏDLİ
Azərbaycan Elmlər Akademiyası,
Nəsimi Adına Dilçilik İnstitutu
Direktoru, Bakı/Azərbaycan

Prof.Dr. Vidadi MUSTAFAYEV
Azərbaycan Elmlər Akademiyası,
Şərqşünaslıq İnstitutu, İran Tarixi və
İqtisadiyyatı Şöbəsi Müdiri,
Bakı/Azərbaycan

Prof.Dr. Qəzənfər PAŞAYEV
Azərbaycan Elmlər
Akademiyası, Nizami adına Ədəbiyyat
İnstitutu, Baş Elmi İşçi,
Bakı/ Azərbaycan

Prof.Dr. Muhammed Salih RASEKH

Belx Üniversitesi, Dil ve Edebiyat
Fakültesi, Deri Dili ve Edebiyatı
Bölümü, Belx/Afqanistan

Prof.Dr. Asif RÜSTƏMLİ
Azərbaycan Elmlər Akademiyası,
Ədəbiyyat İnstitutu Publisistika Şöbəsi
Müdiri, Bakı/Azərbaycan

Prof.Dr. Əkrəm RƏHİMLİ
Azərbaycan Elmlər Akademiyası,
Şərqşünaslıq İnstitutu, Güney
Azərbaycan Şöbəsi, Bakı/ Azərbaycan

Doç.Dr. Selcan Sağlık ŞAHİN
Ankara Ü, Çağdaş Türk Lehçeleri ve
Edebiyatları Bölümü, Ankara/Türkiye

Doç.Dr. Mahmut SARIKAYA
Ahi Evran Ü, Türk Dili ve Edebiyatı
Bölümü, Kırşehir/Türkiye

Prof.Dr. Yalçın SARIKAYA
Giresun Ü, İİB Fakültesi, Uluslararası
İlişkiler Bölümü, Giresun/Türkiye

Prof.Dr. Berdi SARIYEV
Ankara Ü, Çağdaş Türk Lehçeleri ve
Edebiyatları Böl., Ankara/Türkiye

Doç.Dr. Səadət ŞIXIYEVA
Azərbaycan Elmlər Akademiyası,
Şərqşünaslıq İnstitutu, Bakı/Azərbaycan

Celil YAKUPZADE
Kamu Yönetimi Uzmanı, Araştırmacı
Kerec/İran

Prof.Dr. Orhan YAZICI
İnönü Ü, Yeniçağ Tarihi ABD Başkanı
Malatya/Türkiye

VARLIQ وارلیق
Dil, Edebiyat, Toplum ve Kültür Araştırmaları Dergisi
Dil, Ədəbiyyat, Cəmiyyət və Mədəniyyət Araşdırmaları Dərgisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem, Sayı: 2023: 32(2)

İÇİNDƏKİLƏR

Latin Hərfli Bölüm

Dr. M. Rıza HEYET
Sunuş 7

Doç. Dr. Pərvanə MƏMMƏDLİ
Güney Azərbaycan'da Füzuli İrsinin Təbliği və Araşdırılması 9

Dr. Həsən SƏFƏRİ
Orta Çağ Ərəb və Fars Qaynaqlarında Azərbaycan Əhalisinin Etnik Mənşəyi 21

Prof. Dr. Esmira FUAD
Əsrimizin Bestelleri "Yurdumun Sirləri" 37

Prof. Dr. Gafar Çakmaklı MEHDİYEV
Erməni Qaynaqlarında Erməni-Türk İlişkiləri Kontekstində Ermənistan Dövlətinin Yaranması 61

Elvan ÜNLÜ
Türkiyə Türkcəsində Anlam Pozulması Üzərinə Bir Araşdırma 77

Ərəb Hərfli Bölüm

Dr. M. Rıza HEYET
Sunuş 95

Müsahibə/Söyləşi
Şuşa'dan Təbriz'ə Zəfər Salamı (Azərbaycan Xalq Qəzetinin M. Rıza Heyət ilə Müsahibəsi) 97

Ruzi Muhammət ÖMƏR
Maxtumqulu Fəraqi Çağında Əfqanıstanlı Siyasi Şəxsiyətlərin Yeri 103

Atabey BARIŞ
Narlar Dənələnirkən (Hekayə) 117

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 7-8
Telif Haqqı©Varlıq Dergisi

Sunuş

Dr. Mehmet Rıza HEYET

Dəyərli araşdırmacılar, sevgili oxucular;

Dərgimizin ikinci dönəminin 32-ci sayısı ilə qarşınızdayıq.

Bu sayımızda altı bilimsəl məqalə, bir müsahibə, bir hekayə və bir şeir yer almaqdadır.

Azərbaycan Milli Elmlər Akademiyası Ədəbiyat Enstitusu'nun elmi işçisi Dr. Pərvanə Məmmədli "Güney Azərbaycan'da Füzuli İrsinin Araşdırılması və Təbliği" başlıqlı məqaləsində ilk divanları Təbriz'də yayınlanan Füzuli haqqında Güney Azərbaycan'da aparılan araşdırmaları incələmişdir.

Dr. Həsən Səfəri, orta çağ qaynaqlarını araşdıraraq Azərbaycan əhalisinin etnik mənşəyi haqqında yazdığı dəyərli məqalədə, bu haqda ortaya atılan yanlış iddiaları bəlgələrlə bilimsəl bir şəkildə çürütmüşdür.

Prof. Dr. Esmira Fuad, "Əsrimizin Bestelleri *Yurdumun Sirləri*" başlıqlı məqaləsində çağımızın görkəmli yazıçısı və ədəbi tənqidçisi Rıza Bərahəni'nin əsərləri, özəlliklə də onun məşhur *Yurdumun Sirləri* adlı romanı haqqında geniş bilgi verməkdədir.

Erməni məsələləri üzrə çox sayıda araşdırmaları olan Prof. Dr. Qafar Çaxmaqlı Mehdiyev, dərgimizə göndədiyi məqaləsində Erməni

qaynaqlarını araşdırararq Türk-Erməni ilişkilərini 20-ci yüz ilin başlarından bu günə qədər ələ almış və analiz etmişdir.

Türkiyə'dən gənç Türkolog Elvan Ünlü, Türkiyə Türkcəsində anlam dəyişikliyi və anlam pozulmasına uğrayaraq mənfi mənalar qazanan 16 kəlmə üzərində apardığı incələmələrin sonuclarını məqaləsində bizimlə paylaşmışdır.

Dərgimizin Ərəb əlifbası ilə yayınlanan bölümündə Azərbaycan Xalq qəzetindən Kəmalə Abdinova'nın Məmməd Rıza Heyət ilə apardığı geniş müsahibə yer almaqdadır. Bu müsahibənin əsas mövzusu Rıza Heyət'in Qarabağ səfəri sırasındakı təəssüratlarından və duyğulardan ibarətdir.

Bu bölümdə yayınlanan bir başqa məqalə Afqanıstan Türkmənlərindən dəyərli araşdırmacı Ruzi Muhammməd Ömər'in tanınmış şair Maxdumqulu Fəraqi'nin dönəmindəi siyasi şəxsiyətlər və onların fəaliyətlərinin Türkmən ədəbiyatındakı yansımaları ilə bağlıdır.

Hekayə bölümündə Azərbaycan ədəbiyatı ilə də yaxından maraqlanan gənc yazıçı Atabey Barış'ın *Narlar Dənələnirkən* adlı hekayəsi Ərəb əlifbası ilə yayınlanmışdır.

Şeir bölümündə isə Bağdad'dan tanınmış şair və yazıçı Mehmet Ömər Qazancı'nın Urmu Gölünün quruması ilə bağlı anlamlı şeiri nəşr olunmuşdur ■

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss.9-20
Telif Haqqı©Varlıq Dergisi

Güney Azərbaycan'da Füzuli İrsinin Təbliği və Tədqiqi

• Dos. Dr. Pərvanə MƏMMƏDLİ[1]

Xülasə: 1979-cu ildən Tehran'da tanınmış ictimai xadim, Türkoloq-alim və cərrah Dr. Cavad Heyət'in nəşr etdiyi «Varlıq» dərgisində klasik irslə bağlı məqalələrin mühüm bir qismi dünyanın müxtəlif arşiv və kitabxanalarında axtarışlar zamanı üzə çıxarılmış yeni ədəbi faktlar və elm aləmində bilinməyən ədəbi şəxsiyyətlərin irsi haqqında dolğun informasiya ilə zəngindir.

Dərgidə klasik ədəbiyyatla bağlı tədqiqatlar, o cümlədən Füzuli irsinin araşdırılması, nəşri və təbliği mühüm yer tutur. Dərgidə eyni zamanda bir çox şairlərin Füzuli'dən təsirlənərək yazdıqları onlarla təxmislər, təzminlər və başqa şeirlər də dərc olunmuşdur. Bu da maraqlıdır ki, 1828-ci ildə Füzuli'nin "Divan"ı ilk dəfə Təbriz'də daşbasma üsulu ilə çap olunmuşdur.

Dərgidə Cavad Heyət, Mir Hidayət Hesari, Rəhim Cavuş Əkbəri, Əsəd Yəqubi, Əziz Möhsüni, Həsən Məcidzadə Savalan, Yaşar Qarayev, Bəkir Nəbiyev və başqalarının Füzuli'yə həsr olunmuş çox sayda məqalələri var.

Füzuli'nin əsərlərini geniş təhlilə cəlb edən Cavad Heyət şairin Türkcə divanını, «Bəngü Badə», «Saqinamə» və ya «Həft cam» və «Leyli və Məcnun» poemalarını, Farsca divanını, Ərəbcə qəsidələrini, «Hədiqətüs - süəda» əsərini, Türkcə - Farsca mənzum lüğətini tədqiqata cəlb edir.

«Varlıq» dərgisində Füzuli irsinin tədqiqi bitkin bir konsepsiya səviyyəsinə qaldırılmışdır.

Açar sözlər: Məhəmməd Füzuli irsi, "Varlıq" dərgisi, klasik ədəbiyyat, Cavad Heyət.

---

[1] Filologiya üzrə elmlər doktoru, dosent, baş elmi işçi. Azərbaycan Millî Elmlər Akademiyası, Ədəbiyyat İnstitutu
E-poçt: mamedli_ph@yahool.com; ORKİD: 0000-0002-0297-7638

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss.9-20
Telif Haqqı©Varlıq Dergisi

Güney Azerbaycan'da Fuzulî Mirasının Araştırılması

• Doç. Dr. Pervane MEMMEDLİ[1]

Özet: 1979 yılından Tahran'da ünlü Türkolog-alim ve cerrah Dr. Cevad Heyet'in yayınladığı *Varlıq* dergisinde klasik edebî mirasla ilgili makalelerin önemli bir kısmı dünyanın çeşitli arşiv ve kütüphanelerinde aramalar zamanı ortaya çıkarılmış yeni edebî belgeler ve bilim dünyasında bilinmeyen edebî şahsiyetlerin mirası hakkında dolgun bilgilerle zengindir.

Dergide klasik edebiyatla ilgili araştırmalar, başta ise Fuzulî mirasının araştırılması, neşri ve yayılması önemli yere sahiptir. Dergide aynı zamanda birçok şairin Fuzulî'den esinlenerek yazdığı onlarca tahmisler, tazminler ve başka şiirler de yayımlanmıştır. İlginç olan şu ki 1828 yılında Fuzulî'nin "Divan"ı da ilk kez Tebriz'de taşbasma üsulu ile yayınlanmıştır.

Dergide Cevad Heyet, Mir Hidayet Hesari, Rahim Cavuş Ekberi, Esed Yakubi, Aziz Muhsini, Hasan Mecidzade Savalan, Yaşar Garayev, Bekir Nebiyev ve başkalarının Fuzulî'yle ilgili çok sayıda makaleleri var.

Fuzulî'nin eserlerini geniş tahlile tâbi tutan Cevad Heyet şairin Türkçə divanını, «Beng ü Bade», «Sakiname» veya «Heft cam» ve «Leyli ve Mecnun» eserlerini, Farsça divanını, Arapça kasidelerini, «Hadikatü's-suada» eserini, Türkçe-Farsça manzum sözlüğünü araştırır, inceler.

Varlıq dergisinde Fuzulî mirasının araştırılmasına geniş yer verilmiştir.

Anahtar sözcükler: Məhəmməd Füzuli irsi, "Varlıq" dərgisi, klasik ədəbiyyat, Cavad Heyət.

[1] Azerbaycan Milli Bilimler Akademisi, Edebiyat Enstitüsü
E-posta: mamedli_ph@yahool.com; ORCİD: 0000-0002-0297-7638

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 9-20
Telif Haqqı©Varlıq Dergisi

Promotion and research of Fuzuli Heritage in South Azerbaijan

Parvana MAMMADLI [1]

Abstract: Since 1979, the magazine "Varliq", published by the famous public figure, Turkologist-scientist and surgeon Dr. Javad Heyat in Tehran, has an important part of the articles related to the classical heritage, presenting new literary facts discovered during searches in various archives and libraries of the world, as well as the heritage of literary figures unknown to the scientific world.

An important place in the magazine is occupied by studies related to classical literature, including the study, publication and propaganda of Fuzuli's heritage. At the same time, dozens of tahmi, tazmin and other poems written by many poets under the influence of Fuzuli were published in the magazine. The journal contains a large number of articles devoted to Fuzuli Javad Hayat, Mir Hidayat Hasari, Rahim Javash Akbari, Asad Yakubi, Aziz Mohseni, Hasan Majidzade Savalan, Yashar Garayev, Bekir Nabiyev and others. Javad Hayet, who included Fuzuli's work in a broad analysis, analyzed the poet's Turkic divan, "Bengu Bade", the poems "Saginama" or "Haft Jam" and "Leyli and Majnun", the Persian divan, Arabic odes, "Hadikatus-Sueda". , the Turkic-Persian language involves studying the vocabulary of poems. A scholar who stands apart from Fuzuli's literary sphere of influence writes: "Not only the Azerbaijani world where Fuzuli grew up, but also Ottoman and Jagatai literature have been under his strong influence for many centuries." In the magazine "Varlyg", the study of Fuzuli's legacy is raised to the level of an exhausted concept.

Key words: Legacy of Muhammad Fuzuli, *Varliq* magazine, Classical literature, Javad Heyat.

[1] Associate Professor. Azerbaijan National Academy of Sciences, Institute of Literature
Email: mamedli_ph@yahool.com; ORCID: 0000-0002-0297-7638

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 9-20
Telif Haqqı©Varlıq Dergisi

تحقیق و تبلیغ میراث ادبی محمد فضولی در آذربایجان جنوبی

● **دکتر پروانه ممدلی**[۱]

خلاصه: در نشریه *وارلیق* که از سال ۱۹۷۹ در تهران از سوی تورکولوژیست و جراح معروف پروفسور دکتر جواد هیئت منتشر می‌شود، مقالات مهمی در زمینه میراث ادبی و ادبیات کلاسیک به چاپ رسیده و اطلاعات پرباری درباره اسناد ادبی تازه‌یافت شده در آرشیو و کتابخانه‌های مختلف و میراث ادبی شخصیت‌های ناشناخته ارائه می‌کند.

تحقیقات مربوط به ادبیات کلاسیک از جمله پژوهش، نشر و تبلیغ میراث ادبی فضولی جایگاه ویژه‌ای در این نشریه دارد. همچنین آثار بسیاری از شعرایی که با الهام از فضولی، ده‌ها تخمیس، تضمین، نظیره و دیگر اشعار سروده‌اند، در مجله به چاپ رسیده است. جالب این که در سال ۱۸۲۸ دیوان فضولی برای اولین بار در تبریز به روش چاپ سنگی منتشر شده است.

در این نشریه مقالات زیادی از طرف جواد هیئت، میر هدایت حصاری رحیم چاووش اکبری، اسد یعقوبی، عزیز محسنی، حسن مجیدزاده ساوالان، یاشار قارایف، بکیر نبی‌یف و سایرین در خصوص محمد فضولی چاپ گردیده است.

جواد هیئت که بررسی وسیعی بر روی آثار فضولی انجام داده، دیوان ترکی فضولی، "بنگ و باده"، ساقی‌نامه" و یا "هفت جام"، "لیلی و مجنون"، دیوان فارسی، قصاید عربی، "حدیقه‌السعدا" و لغتنامه ترکی-فارسی شاعر را مورد پژوهش قرار داده است.

به‌طور کلی میراث ادبی محمد فضولی و تحقیقات در این زمینه جایگاه ویژه‌ای در نشریه *وارلیق* به خود اختصاص داده است.

آچار سؤزلر: میراث محمد فضولی، مجله وارلیق، ادبیات کلاسیک، جواد هیئت.

---

[۱] آکادمی ملی علوم آذربایجان، انستیتوی ادبیات.
ایمیل: mamedli_ph@yahool.com؛ اورسید: 0000-0002-0297-7638

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss.9-20
Telif Haqqı©Varlıq Dergisi

Azərbaycan ədəbiyatını ümumtürk ədəbiyatı kontekstində (bağlamında) öyrənmək baxımından *Varlıq* dərgisində klasik irslə bağlı dərc edilmiş araşdırmalar diqqətə layiqdir.

Uzun müddət Türk xalqlarının tarixi birtərəfli, səthi öyrənilmiş və nəzəri baxımdan məlum qalıblara əsaslanmışdır. *Varlıq*'ın bu istiqamətdəki fəaliyəti Azərbaycan Türkləri üçün öz tarixlərini öyrənməkdə zəngin məlumat, informasiya (bilgi) vermək baxımından qiymətlidir.

1979-cu ildən Tehran'da tanınmış ictimai xadim, Türkoloq-alim və cərrah Doktor Cavad Heyət'in nəşr etdiyi *Varlıq* dərgisində klasik irslə bağlı məqalələrin önəmli bir qismi dünyanın müxtəlif arşiv və kitabxanalarında axtarışlar zamanı üzə çıxarılmış yeni ədəbi faktlar və elm aləminə məlum olmayan ədəbi şəxsiyətlərin irsi haqqında dolğun bilgilərlə zəngindir.

Varlıq dərgisi uzun illərdir klasik irsin bizə məlum olmayan şəxsiyətlərini, faktlarını üzə çıxartmaqla təkcə Güney Azərbaycan üçün yox, Azərbaycan ədəbiyatı üçün eşsiz iş görür. Bu baxımdan C. Heyət, Q. Beqdili, T. Pirhaşimi, T. Kərimi və başqalarının araşdırmaları hər şeydən öncə, fakt yeniliyi, qaynaq təzəliyi mənasında xüsusi maraq kəsb edir.

*Varlıq'*ın klasik ədəbiyatla bağlı araşdırmaları sırasında Füzuli irsinin araşdırılması nəşri və təbliği mühüm yer tutur. Dərgidə çeşidli şairlərin Füzuli'dən təsirlənərək yazdıqları onlarla təxmislər, təzminlər və başqa şeirlər çap olunmuşdur.

Cavad Heyət'in *Varlıq*'ın ikinci sayından başlayaraq silsilə ilə «Azərbaycan Ədəbiyat Tarixinə Bir Baxış» adı altında ardıcıl çap etdirdiyi, altı əsrlik dönəmi əhatə edən məqalələrində Azərbaycan ədəbiyatının ayrı-ayrı mərhələləri və şəxsiyətləri nəzərdən keçirilir.

Azərbaycan folkloru, dili və ədəbiyatı sahəsində ensiklopedik bilik nümayiş etdirən C. Heyət özünü yalnız Füzuli irsinin deyil, eləcə də bütün yaxın Şərq ədəbiyatlarının istedadlı bilicisi kimi göstərmişdir.

Cavad Heyət Azərbaycan-Türk ədəbiyatının görkəmli klasiki Məhəmməd Füzuli yaradıcılığına, sənətinə dönə-dönə müraciət etmiş, şairin yaradıcılığını çeşidli bucaqlardan ışıqlandırmağa çalışmışdır.

Məqalələrindən biri İtalyan şərqşünası (doğubilimci), Füzuli irsinin gözəl bilicisi və təbliğatçısı Alessio Bombaçidən belə bir sitatla başlayır: "Füzuli əgər Türk şairlərinin ən böyüyü olmasa da, ən böyüklərindən biridir" (Füzuli, C1: 36).

Araşdırmacı Füzuli'nin qısa həyat hekayəsi, əsərləri haqqında ümumi məlumat verdikdən sonra onun əsərlərinin təhlili üzərində dayanır, şairin Türkcə divanını, «Bəng ü Badə», «Saqinamə və ya «Həft Cam» və «Leyli və Məcnun» poemalarını, Farsca divanını, Ərəbcə qəsidələrini, «Hədiqətüs-süəda» əsərini, Türkcə, Farsca mənzum lüğətini vs. araşdırmaya cəlb edir.

Füzuli'nin ədəbi təsir dairəsi üzərində ayrıca dayanan alim yazır: «Yalnız Füzuli'nin yetişdiyi Azəri aləmi deyil, Osmanlı və Cağatay ədəbiyatları da uzun əsərlərdən bəri onun güclü nüfuzu altında qalmışdır » (Füzuli, C2: 26).

C. Heyət'in fikrincə üç dildə yazan Füzuli ən gözəl əsərlərini öz ana dilində yazmışdır. Füzuli Azərbaycan bədii dilini ən yüksək zirvəyə qaldırmış və ədəbiyatımızda olduğu kimi ədəbi dilimizin inkişaf (gəlişim) tarixində də yeni bir mərhələ açmış və dönüş nöqtəsini təşkil etmişdir. «Füzuli'nin «Leyli və Məcnun» mənzuməsinə Nizami və Digər Şairlərin Təsiri" adlı *Varlıq*'da nəşr olunmuş elmi məqalə müəllifin Orta əsr Şərq şeirinə, Nizami, Nəvayi, Füzuli kimi klasiklərin yaradıcılığına, əruzun poetikasına, qədim Şərq əfsanələrinə, Şərq şeirinin janrlarına (türlərinə), təsəvvüfə dərindən aşina olduğunu nümayiş etdirmişdir (Məmmədli, 2000: 64).

Hər üç şairin «Leyli və Məcnun»larının müqayisəsi zamanı Cavad Heyət əsərlərin hər birinin neçə beytdən ibarət olması, əruzun hansı bəhrində yazılması, kimlərə ithaf olunması, tiplərin oxşar və fərqli cəhətləri, əsərlərin hər birinin «zaman və məkan damğaları» daşıması, təsəvvüf baxışları vs. məsələlərlə yanaşı dil faktoruna xüsusi diqqət yetirir. Alimin gəldiyi əsas nəticə budur ki, Nizami va Füzuli "Leyli va Məcnunları arasındakı böyük fərq, birincinin "məclis dastanı", ikincisinin isə "irfani dastan" olmasıdır. (Heyət 1, 1988: 43).

Cavad Heyət yazır:

> *"Füzuli'nin ana dilində yazıb yaratdığı əsərləri və yaradıcılıq üslubu ədəbi bir məktəb halına gəlmişdir. Füzuli məktəbi adlanan bu məktəb 450 ildən bəri davam edib yüzlərlə Türk şairinin öyrətmə, zövq və ilham qaynağı olmuşdur. Başda Azərbaycan və Türkiyə şairləri gəlmək üzrə İstanbul'dan Daşkənd'ə, Kazan'dan Krım'a və Dərbənd'dən Təbriz və Kərkük'ə qədər Türkiyə, Iraq, İran, Azərbaycan və Türküstan şairləri onun əsərlərini oxumuş, əzbərləmiş və onlarla nəzirələr yazmışlar. Türk şairləri arasında Füzuli qədər təsir buraxmış şair yoxdur. Onun təsiri Nəsimi və Nəvayi'dən də artıq olmuşdur və bu təsir hələ də davam etməkdədir"* (Heyət 1, 1988: 46).

Araşdırmacı alim nəticədə bu fikrə gəlir ki, Nizami və Füzuli «Leyli və Məcnun»ları hər biri öz növbəsində orijinal və şah əsərlərdir.

"**Füzuli'nin Dili"** adlı məqaləsində C. Heyət məşhur İngilis şərqşünası Gibbin sözlərinə əsaslanaraq Füzuli'ni «Türk ədəbiyatının ən böyük şairi» adlandırır (Heyət, 1987: 27).

Varlıq dərgisinin 1988-ci ildə nəşr olunan 65-ci sayında "Füzuli'nin Ədəbi Şəxsiyəti" adlı məqaləsində isə C. Heyət "Füzuli alim, mütəfəkkir, arif və aşiq bir şairdir» qənaətini inandırıcı elmi təhlillərlə əsaslandırır. Füzuli'nın ədəbi şəxsiyətinin formalaşmasında özünəqədərki Farsdilli və Türkdilli şeirin rolunu yüksək qiymətləndirən alim bu qənaətə gəlir ki, Füzuli hər cür təsirdən yüksəkdə duran mütəfəkkir şairdir. Məqalənin sonunda Füzuli'nin 134 beytlik «Ənisül-qəlb» adlı fəlsəfi qəsidəsi verilmişdir. Füzuli ilə bağlı araşdırmalarında alim həmişə böyük şairin təkcə Azərbaycan ədəbiyatının deyil, ədəbi dilin inkişafındakı xidmətlərindən də geniş bəhs açır.

Cavad Heyət jurnalın 93-cü sayındakı "**Füzuli'nin dili və söz xəzinəsi**" adlı məqaləsində yazır ki, Füzuli dilində qrammatika türkcədir. Dil, istiarə, məcazlarla zəngindir (Heyət, 1994: 53).

Cavad Heyət **"Füzuli'nin Ədəbi Təsiri və Təəssürü"** adlı məqaləsində şairin təsirləndiyi mənbələri, həm də özündən sonrakı ədəbiyata təsiri məsələlərini araşdırma obyektinə çevirir. "Türk ədəbiyatında Füzuli qədər təsir buraxmış şair yoxdur" (Heyət, 1995: 43) qənaətini elmi təhlillərlə əsaslandırmağa çalışır.

Cığatay şairlərində Füzuli'nin təsiri böyük Nəvayi'nin təsiri ilə qoşa gedib, onunla rəqabət etmişdir. Bu təsirin gözəl nümunələri Cığatay ədəbiyatının 19-cu yüzil şairi Əmir Əmirxan'ın şeirlərində də görülməkdədir.

Füzuli'nin Osmanlı şairlərinə daha çox təsiri olmuşdur. Məşhur Türk ədəbiyatbilimcisi Nihad Sami Banarlı «Rəsmli Türk Ədəbiyatı Tarixi» kitabında yazır ki, Baqi, Yəhya, Xəyali kimi çağdaş Osmanlı şairlərindən başlayaraq Nabi, Nədim, Şeyx Qalib kimi əsrlərin yeganələri üzərində Füzuli'nin təsiri olmuş və bu şairlərin hamısı Füzuli'yə nəzirələr yazmış, onu təqdir etməyi və anlamağı böyük zövq bilmişlər. Füzuli'nin şöhrət və təsiri, Türk ədəbiyatında qərbi ədəbiyatın təmsilçilərindən Abdulhaq Hamid, Sərvəti-fünun məktəbi şairləri (Tofiq Fikrət və qələmdaşları) də Füzuli'nin təsiri altında yazıb yaratmışlar.

Cavad Heyət bu barədə yazır: "1925-ci ildə yayılan «Füzuli» adlı tədqiqi əsərində Süleyman Nazif bu barədə belə yazmışdır:

> *"Füzuli təsiri yalnız yüksək ədəbi mühitlərdə və klasik şairlərdə qalmamış, bir tərəfdən təkkə (xanəgah) şairləri və digər təriqətlərə mənsub sufi şairlərə qədər, Bəktaşi, Hürufi, Qızılbaş şairləri və Gövhəri, Aşıq Ömər və Dərdli kimi sənətkar aşıqlar də onun böyük nüfuzu altında qalmışlar"* (Heyət, 1995: 42).

Füzuli ədəbi məktəbinin təsiri Türkiyə'də Tənzimat dönəmi şairləri və ondan sonra da az-çox davam etmişdir. Lakin çağdaş Türk ədəbiyatında Füzuli dilini və yaradıcılığını yaşadan ən çox Azərbaycan şairləri olmuşlar.

Məhəmməd Füzuli'nin "Leyli və Məcnun" əsərinin orijinallılığını nəzərə çatdıran alim Avropa şərqşünasları (doğubilimciler) ilə polemikaya girməkdən çəkinməyib yazır:

"Füzuli'nin şah əsəri sayılan Leyli və Məcnun mənzuməsi Nizami'dən ilham alaraq yazılmış orijinal əsər olub, bəzi Avropa müəlliflərinin fikrinin xilafına, tərcümə və iqtibas deyildir" (Heyət 2, 1995: 17)

Cavad Heyət bu fikri də vurğulayır ki, Füzuli'nin nəzirələri tənzir edilən şeirlərin hamısından üstündür. Füzuli «Leyli və Məcnun məsnəvisinə başlarkən Nizami'nin əsərinə cavab olaraq yazmış, lakin Nizami'dən çox Hatifi'nin Leyli və Məcnun məsnəvisinə yaxınlaşmışdır. O, əsərinin tərtib və yazılmasında yenilik va

dəyişikliklər gətirməklə Türkcə orijinal bir əsər yaratmışdır. Füzuli əsərini Nəvayi'nin və digər Türk şairlərinin Leyli və Məcnun mənzumələrindən xəbəri olmadan yazmışdır!"

Cavad Heyət Quzey Azərbaycan araşdırıcılarının əvvəllər irəli sürdükləri fikri və mülahizələri əsas tutaraq zənginləşdirmişdir. «Nizami Məcnunu şeirləşdirmişsə Füzuli şeiri məcnunlaşdırmışdır!» deyən M. Ə. Rəsulzadə'nin ardınca, C. Heyət də elmi qənaətə gələrək yazır: "Füzuli Nizami'dən fərqli olaraq, Ərəb əfsanəsinə sadiq qalmağı aramamış, tiplərini öz zehnindəki təsəvvürə görə təsvir etmiş və Məcnun'u da öz xəyalındakı kimi təsvir etmişdir. Bunun üçündür ki, Nizami'də bəşəri duyğu, əlaqələrdən tamamilə ayrılmamış görünən Məcnun Füzuli'də bəşərilikdən büsbütün ayrılmış bir şəxsiyət halındadır" (Heyət 2, 1995: 21).

C. Heyət'in məqalələri İstanbul, Ankara, Təbriz, London və Bakı şəhərlərində nəşr olunmuş 10 mötəbər elmi mənbə əsasında yazılmışdır ki, müəllif tədqiqatın sonunda verdiyi biblioqrafiyada həmin mənbələri qeyd etmişdir. Bu isə *Varlıq* dərgisinin sonrakı saylarında verilən məqalələrdə elmi biblioqrafik aparaturanın ənənəsini qoyumuşdur.

Ümumilikdə, Doktor Cavad Heyət'in klasik irsin araşdırmasına həsr olunmuş məqalələri profesionallığı, qaynaqlara dərindən bələdliyi, objektiv yanaşma tərzi ilə seçilir.

Ümumiyətlə, Füzuli yaradıcılığı varlıqçıların daim diqqət mərkəzində olmuş, bu dahi şairin irsinə zaman-zaman müraciət edilmişdir.

Əziz Möhsüni'nin "Molla Məhəmməd Füzuli - Azərbaycan Şairi», Bəhram Əsədi'nin "Şeir Ünsürü Füzuli'nin Şeirində", "Mir Hidayət Hesari'nin "Füzuli'nin Həyat və Yaradıcılığı Barədə İzahlar", Yaşar Qarayev'in «Fələklər Yandı Ahimdən», Vaqif Aslanov'un "Poliqlot Şairimiz Füzuli", Bəkir Nəbiyev'in "Hədiqətül-süəda» - Məqtəl Növünün Klasik Nümunəsidir" adlı məqalələri şairin yaradıcılığının müxtəlif mərhələlərinin yeni aspektdə araşdırılmasına həsr olunmuşdur.

Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Bəkir Nəbiyev'in yazdığı «Hədiqətüs-süəda Məqtəl Növünün Klasik Nümunəsidir" məqaləsi tarixi-nəzəri üslubda yazılmışdır. Məqalədə Füzuli ilə

yanaşı, başqa Türk müəlliflərinin də məqtəl janrında (türündə) şəhidlik mövzusunda yazdıqları əsərlərə toxunulur, Füzuli ənənələri izlənilir. Alim bu nəticəyə gəlir ki: "Füzuli'nin bir sənətkar kimi bu əsərdə ən böyük nailiyəti Kərbala hadisəsini yalnız bir məntəqənin və yalnız Müsəlmanlığın yox, bütün dünyada insanlığın faciəsi kimi yüksək bədii səviyədə mənalandıra və ümumiləşdirəbilməsidir"(Nəbiyev, 1995: 53).

Əsəd Yaqubi'nin «Füzuli'nin Yaradıcılığında İnsan və Tərbiyə Məsələsi» adlı məqaləsi şair haqqında aparılmış maraqlı tədqiqatlarardan biridir.

Varlıq dərgisinin profesyonel biblioqrafı, «Yeni Çıxan Kitablar» bölümünün əsas aparıcılarından Əziz Möhsüni'nin «Molla Məhəmməd Füzuli Dahi Azərbaycan Şairi" məqaləsi də yeni faktlarla zəngindir.

Əziz Möhsuni Füzuli'ni tədqiq edərkən, İngilis şərqşünası Kibb'in yolu ilə gedir. Belə ki, şairin öz əsərlərində, özəlliklə də divanlarının dibaçələrində verilən mötəbər məlumatlara əsaslanır. Elə bu tədqiqat üslubu ilə də Ə. Möhsüni Füzuli eşqinin sırf ilahi məzmun daşıdığını iddia edən bir sıra Türkiyə və İran tədqiqatcılarına etiraz edir və öz fikrini əsaslandırmaq üçün prof. Mir Cəlal'ın müddəalarına müraciət edir.

Prof. Yaşar Qarayev'in "Fələklər Yandı Ahimdən..."məqaləsi, Füzuli yaradıcılığının mahiyətini yığcam bir şəkildə ifadə etdiridir:

> *"Xalqımızın faciəli tarixində və taleyində Füzuli narahat və böhranlı bir dövrün şeirdə rəmzi, siması və əzabkeşi kimi daxil olur və sonralar da tarix boyu ən əzablı çağlarda iztirabın, dərdin Füzuli karvanı millətin harayına həmişə yenidən həmişə vaxtında qayıdır"* (Qarayev, 1995: 43).

Yaşar Qarayev Füzuli'nin irfanı haqqında öz mövqeyini bildirib yazır: "Füzuli elə yer var, Tanrını, elə yer də var gözəlini təsvir edir". Farsca bir qəzəlində əbədiyətin yox... «bir gecənin eşqinin vəsfi» qələmə alınır: "Vəslin mənə novruz gecəsi oldu müyəssər" (Begdili, 1995: 49).

Füzuli sənətinin ənənəvi (gələnəksəl) Şərq poetikasının vasitələri ilə təhlil etməyə olan meyl *Varlıq* dərgisində nəşr olunan məqalələrdə də hiss olunur. Prof. Q. Beqdili'nin "Füzulinin Fars şeirində sənətkarlıq

xüsusiyətləri" məqaləsində Füzulini ənənəvi Şərq poetikasının vasitələri ilə təhlil edir (Heyət 1, 1988: 43).

Q. Beqdili Füzuli'nin Farsca divanında sənətkarlıqla istifadə edilmiş ədəbi vasitələrin izahını və bədii örnəklərini vermişdir.

Varlıq dərgisində Füzuli haqqında cap olunmuş məqalə və araşdırmalar Azərbaycan xalqının bu dahi şairi ilə bağlı kifayət qədər təsəvvür yaradır və Güney Azərbaycan oxucuları və araşdırmacıları üçün dəyərli qaynaqdır.

Məhəmməd Füzuli, o cümlədən klasik ədəbi irsimizin tarixi, dili, sənətkarlıq problemləri ilə bağlı məsələlərin, silsilə araşdırmaların şərhi bir daha göstərir ki, Güney Azərbaycan'da klasik Azərbaycan Türkcəsində yazıb yaratmış sənətkarların yaradıcılığını üzə çıxartmaqda *Varlıq*'ın xidmətləri əvəzedilməzdir. Çünki, bu gün Quzey Azərbaycan'da fəaliyət göstərən araşdırmacıların çoxu Ərəb və Fars dilində yazılmış qaynaqları əldə etməkdə və onları çağdaş əlifbada nəşr etməkdə ciddi çətinliklərlə qarşılaşırlar.

Bütovlükdə götürüldükdə *Varlıq* dərgisində Füzuli irsinin tədqiqi bitkin bir konsepsiya səviyəsinə qaldırmışdır.

Qaynaqlar

BEQDİLİ, Qulamhüseyn (1995). "Füzuli'nin Fars Şeirində Sənətkarlıq Xüsusiyətləri". *Varlıq* dərgisi, S. 96, 1995, Tehran.

FÜZULİ, M. (1958). *Əsərləri.* 5 cild, C. 1, Azərbaycan EA Nəşriyiatı, Bakı.

HEYƏT, Cavad (1987). "Füzuli'nin Dili". *Varlıq* dərgisi, S. 64,1987, Tehran.

HEYƏT, Cavad 1 (1988). "Füzuli'nin Ədəbi Şəxsiyəti". *Varlıq* dərgisi, S. 65,1988, Tehran.

HEYƏT, Cavad 2 (1988). «Füzuli'nin Leyli və Məcnun Mənzuməsinə Nizami və Digər Şairlərin Təsiri". *Varlıq* dərgisi, S. 66,1988, Tehran.

HEYƏT, Cavad (1994). "Füzuli'nin Dili və Söz Xəzinəsi". *Varlıq* dərgisi, S. 93,1994, Tehran.

HEYƏT, Cavad 1 (1995). “Füzuli’nin Ədəbi Təsiri və Təəssürü”. *Varlıq* dərgisi, S. 96,1995, Tehran.

HEYƏT, Cavad 2 (1995). “Leyli və Məcnun”. *Varlıq* dərgisi, S. 96,1995, Tehran.

QARAYEV, Yaşar (1995). «Fələklər Yandı Ahimdən». *Varlıq* dərgisi, S. 96,1995, Tehran.

MƏMMƏDLİ, Pərvanə (2000). “Varlıq Jurnalında Ədəbiyyat Məsələləri”. Elm Nəşriyyatı, Bakı.

NƏBİYEV, Bəkir (1995). “Hədiqətül-süəda, Müqtil Növünün Klassik Nümunəsidir». *Varlıq* dərgisi, S. 95,1995, Tehran.

Pervane MEMMEDLİ https://orcid.org/0000-0002-0297-7638

Doç.Dr.; Azerbaycan Bilimler Akademisi Edebiyat Enstitüsü.

E-Posta: **mamedli_ph@yahool.com**

Yazı Bilgisi:

Alındığı Tarih: 13 Kasım 2024

Yayına Kabul edildiği tarih: 29 Kasım 2024

E-yayın tarihi: 20 Ocak 2025

Çıktı sayfa sayısı: 12

Kaynak sayısı: 11

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 21-36
Telif Haqqı©Varlıq Dergisi

Orta Əsr Ərəb-Fars Qaynaqlarında Azərbaycan Əhalisinin Etnik Mənşəyi

• Dr. Həsən SƏFƏRİ [1]

Xülasə: Orta əsr Ərəb-Fars qaynaqları Türk izini Azərbaycan'dan silmək üçün çox sayda Türk olmayan əhalini Soğdiana və digər ərazilərdən Azərbaycan'a köçürən Sasanilərin təsiri altında qələmə alınsa da, həmin qaynaqlarda Azərbaycan'ın ilkin əhalisi kimi Türklərin adı çəkilir. Hətta bir sıra Ərəb işğalları dövrü mənbələrində "Azərbaycan Türkləri" terminina rast gəlinir. Eyni zamanda Azərbaycan'ı işğal etmiş Sasani imperiyası bir tərəfdən Ağ Hun (Eftalit) Türk imperatorluğu ilə davamlı müharibədə olsa da, Şimali Qafqaz'dan Xəzər Türklərinin qarşısını ala bilmək üçün yerli Türk əhalidən deyil, sırf öz xalqı olan pəhləvilər və onlara tabe olmuş digər Türk olmayan xalqları Soğdiana və digər bölgələrdən Azərbaycan'a, xüsusilə Cənubi Qafqaz'a köçürüb, Dərbənd, Şabran, Soğdabil və s. bölgələrdə şəhərlər salıb, möhkəm istehkamlar yaratmışdı. Sasani şahlarının Azərbaycan'a köçürdüyü etnoslardan Siyasicin, Tabarsaran, Ləkz və s. adları Ərəb-Fars qaynaqlarında öz əksini tapıb.

Bu məqalədə, zikr olunan qaynaqlarda Azərbaycan əhalisinin etnik mənşəyi ilə bağlı bölümlər incələnmişdir.

Açar sözlər: Orta Əsr, Azərbaycan, Ərəb-Fars Qaynaqları, Türk, Etnik Mənşə.

[1] Tarix doktoru. Azərbaycan Millî Elmlər Akademiyası.
ORKİD: 0000-0003-2405-353X

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 21-36
Telif Haqqı©Varlıq Dergisi

Orta Çağ Arap-Fars Kaynaklarında Azerbaycan Ehalisinin Etnik Kökeni

• Dr. Hasan SAFARİ [1]

Özet: Orta çağ Arap-Fars kaynakları Türk izini Azerbaycan'dan silmek için çok sayıda Türk olmayan ehaliyi Soğdiana ve diğer bölgelerden Azerbaycan'a göç ettiren Sasanilerin etkisi altında kaleme alınmış olsa da, bu kaynaklarda Azerbaycan'ın ilk ehalisi olarak Türklerin adı çekilmektedir. Hatta Arap işgalleri dönemine ait bazı kaynaklarda "Azerbaycan Türkleri" terimine de rast gelinir. Aynı zamanda Azerbaycan'ı işgal eden Sasani imperiyası bir taraftan Ak Hun (Eftalit) Türk imparatorluğu ile devamlı savaşlarda olsa da, Kuzey Kafkasya'dan Hazar Türklerinin karşısını alabilmek amacıyla yerel Türk ehaliden değil, sırf kendi halkı olan Pehleviler ve onlara tabi olan diğer Türk olmayan halkları Soğdiana ve diğer bölgelerden Azerbaycan'a, özellikle de Güney Kafkasya'ya göç ettirip, Derbent, Şabran, Soğdabil vs. bölgelerde şehirler kurup, sağlam istihkamlar oluşturmuştu. Sasani şahlarının Azerbaycan'a göç ettirdiği halklardan Siyasicin, Tabarsaran, Lekz vs. adları Arap-Fars kaynaklarında yer almıştır.

Bu makalede söz konusu kaynaklarda Azerbaycan ehalisinin etnik kökeniyle ilgili husular incelenmiştir.

Anahtar sözcükler: Orta Çağ, Azerbaycan, Arap-Fars Kaynakları, Türk, Etnik Köken.

[1] Tarih doktoru. Azerbaycan Milli Bilimler Akademisi.
ORCİD: 0000-0003-2405-353X

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 21-36
Telif Haqqı©Varlıq Dergisi

Ethnic Origin of Azerbaijani People in Medieval Arab-Persian Sources

Dr. Hasan SAFARI [1]

Abstract: Although the medieval Arab-Persian sources were written under the influence of the Sassanids, who migrated a large number of non-Turkish people from Sogdia and other regions to Azerbaijan in order to erase the traces of the Turks from Azerbaijan, the Turks are mentioned in these sources as the first people of Azerbaijan. In fact, the term "Azerbaijan Turks" is also encountered in some sources from the period of Arab invasions. At the same time, the Sassanid Empire, which occupied Azerbaijan, was in constant war with the White Hun (Hephthalite) Turkic Empire, and in order to be able to confront the Khazar Turks from the North Caucasus, it migrated not the local Turkic people but only its own people, the Pahlavis, and other non-Turkish peoples subject to them, from Sogdia and other regions to Azerbaijan, especially to the South Caucasus, and founded cities and built strong fortifications in the regions of Derbent, Shabran, Sogdabil, etc. Among the peoples that the Sassanid Shahs had migrated to Azerbaijan, the names of Siyasicin, Tabarsaran, Lekz, etc. were included in Arab-Persian sources. In this article, the issues related to the ethnic origin of the Azerbaijani people in the mentioned sources were examined.

Key words: Middle Ages, Azerbaijan, Arab-Persian Sources, Turk, Ethnicity.

[1]Historian, Azerbaijan National Academy of Sciences.
ORCID: 0000-0003-2405-353X

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 21-36
Telif Haqqı©Varlıq Dergisi

منشاء اتنیکی مردم آذربایجان
بر اساس منابع عربی-فارسی قرون وسطی

● **دکتر حسن صفری**[۱]

خلاصه: اگرچه اکثر منابع عربی-فارسی قرون وسطی تحت تأثیر ساسانیان که به منظـور از میان بردن آثار و نشانه‌های تورک، تعداد زیادی از اهالی غیر تورک را مجبور به مهاجرت به آذربایجان کرده، نوشته شده است، اما در همین منابع تورک‌هـا بـه عنـوان مردمـان بـومی آذربایجان معرفی گردیده‌اند. حتی در برخی از منابع مربـوط بـه دوران اشـغال آذربایجـان توسط عرب‌ها، اصطلاح «تورک‌های آذربایجان» هم به چشم می‌خورد. همچنین امپراتوری ساسانی که آذربایجان را به اشغال خود درآورده بود، ضمن اینکه از سویی همواره در حـال جنگ با امپراتوری آق‌هون (افتالیت) بود، از سوی دیگر نیز به منظور مقابله با تـورک‌هـای خزر، افراد زیادی را از میان غیر تورک‌ها، از جمله پهلوی‌ها و اهالی منطقه سـغدی مجبـور به مهاجرت به آذربایجان به ویژه قفقـاز جنـوبی کـرده، شـهرک‌هـایی در دربنـد، شـابران، سوغدابیل و غیره تأسیس نموده و استحکامات محکمی ایجاد کرده بود. از میان طوایفی که از سوی شاهان ساسانی به آذربایجان کوچ داده شده بودند، نام سیاسیجین، تابارساران، لکز و غیره در منابع عربی-فارسی ذکر گردیده است.

در این مقاله، منشاء اتنیکی مردم آذربایجان با توجه به اطلاعات ذکر شده در همین منـابع مورد بررسی قرار گرفته است.

کلیدواژه: قرون وسطی، آذربایجان، منابع عربی-فارسی، تورک، منشاء اتنیکی.

---

[۱] دکترای تاریخ، آکادمی ملی علوم آذربایجان.
اورسید: 0000-0003-2405-353X

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 21-36
Telif Haqqı©Varlıq Dergisi

Giriş:

Orta əsr Ərəb-Fars qaynaqlarında qədim və erkən orta əsrlərdən bəri Azərbaycan'ın tarixi və əhalisinin etnik mənşəyi (kökəni) haqqında qiymətli məlumatlar əks etdirilmişdir. Həmin dövr (III əsrdən) isə Azərbaycan'ın əsasən Pəhləvi mənşəli Sasani imperiyası tərəfindən işğal edilməsi ilə eyni dövrə təsadüf edirdi. Türklərlə Sasani şahlarının çox sayda savaşları da əsasən Azərbaycan'da və ətraf ərazilərdə baş verirdi. Türküstan'la yanaşı Azərbaycan da Türklərin işğalçılarla döyüş meydanına çevrilmişdi. Orta əsr Ərəb-Fars qaynaqlarında Azərbaycan'ı işğal edib və Türklərlə müharibə aparan Sasani hakimlərinin, eləcə də Azərbaycan'a hücum edən Ərəblərin müharibələrinin tarixi daha çox Sasani mövqeyindən və birtərəfli yazlsa da, yenə də Azərbaycan əhalisinin etnik mənşəyi baxımından qiymətli məlumatlar hesab edilir.

1. Azərbaycan'da Türklərin Varlığı

Azərbaycan III əsrdən Sasani imperiası tərəfindən işğal edilsə də, hələ ilkin orta əsrlərdə müəyyən sərhədlərə malik bir ölkə kimi orta əsr Ərəb-İslam qaynaqlarında əks olunmuşdur. Azərbaycan'ın sərhədi və əhalisi haqqında orta əsr Ərəb-İslam qaynaqlarında qiymətli məlumatlar mövcuddur. Azərbaycanın sərhədini Məhəmmən bin Məhəmməd Bələmi "Tarixnameyi-Təbəri" əsərində belə təsvir etmişdir:

> "Sərhədin əvvəli Həmədan'dan başlayır, Əbhər və Zəngan'dan keçməklə Xəzərlərin Dərbənd'inə qədər uzanır. Bu arada hər nə qədər şəhər varsa hamısı Azərbaycan adlanır."[1] (Bələmi, 1994: 529).

Göründüyü kimi hələ min il əvvəldən Azərbaycan vahid şəkildə müəyyən sərhədə malik olmuşdur.

[1] اول حد از همدان گیرند تا به ابهر و زنگان بیرون شوند و آخرش به دربند خزران، و بدین میانه اندر هر چه شهرها است همه را آذربایگان خوانند.

Ərəb qaynaqlarında Azərbaycan əhalisinin etnik mənşəyi haqqında da qiymətli məlumatlar mövcuddur. İlk məlumat İslamdan öncə Yəmən padşahlığı Himyərinin (M. Ö. 115 – b.e. 587) dövrünə aiddir. III əsrdə Raiş adlı Yəmən hökmdarının Azərbaycan'a hücumu və Azərbaycan Türkləri ilə döyüşüb onları məğlum etməsi onlarla Ərəb-Fars mənbəindən əks etdirilmişdir. Təbəri Raiş'in hücumu ilə bağlı yazır:

> "Hişam bin əl-Kəlbi Raiş haqqında dedi: "Raiş bin Qeys bin Seyfi bin Səba bin Yəşcəb bin Yərub bin Qəhtan Yərub bin Qəhtan bin Abir bin Şalix və qardaşlarından sonrakı Yəmən hökmdarı olmuşdur. Raiş Mənuçöhr'ün hakimiyyəti dövründə Yəmən hökmdarı olmuşdur və onun adı Haris bin Əbi Səddəd'dir. Bir qövmdən əldə etdiyi qənimətləri Yəmən'ə gətirdiyi üçün ona Raiş ləqəbi verilmişdir. Sonra Raiş Hindistan'a hücum edərək əhalisinin bir hissəsini öldürmüş, qənimət əldə edərək Yəmən'ə qayıtmışdır. Sonra Ənbar və Mosul'a doğru hərəkət edərək buraya öz səhabələrindən Şimr bin əl-Əttaf adlanan şəxsi vali təyin etmiş, daha sonra isə buradan irəliləyərək Azərbaycan'dakı Türklərin üzərinə hücum etmiş və Türklərin döyüşçülərini öldürərək uşaqlarını əsir götürmüşdür. Raiş bu hücumlarını yolda iki daş üzərinə yazdırmışdır. Bu iki daş Azərbaycan ölkəsində yerləşir və yerləri məlumdur."[2] (Təbəri, C. 1: 383).

Azərbaycan əhalisinin Türk olması aydınlaşdıran bu hadisə çoxsaylı digər Ərəb-Fars qaynaqlarında da əks etdirilib. İbn əl-Əsir "Əlkamil fit-tarix" (1, s. 168), Həmzə İsfahani "Tarix-i sünni müluk əl-Ərz vəl-Ənbiya Əleyhim əs-Səlat vəs-Səlam" (18, s. 99), Bələmi "Tarixname-yi Təbəri" (13, s. 262), naməlum müəllif "Mücməl ət-Tarix vəl-Qisəs" (28, s. 120), İnb Meskeviyyə "Təcarüb əl-Üməm (10, s. 627), İbn Qütəybə "Əl-Məarif" (8, s. 627), Vəhəb bin Münəbbəh "Ət-Tican fi Müluki Himyər" (30, s. 416) və s. Ərəb tarixçiləri Raiş'in Azərbaycan

[2] وقد زعم هشام بن الكلبى، فما حدثت عنه، أن الرائش بن قيس بن صيفى بن سبأ بن يشجب بن يعرب بن قحطان كان من ملوک اليمن بعد يعرب بن قحطان بن عابر بن شالخ وإخوته، وأن الرائش كان ملكه باليمن أيام ملک منوشهر، وأنه إنما سمى الرائش، واسمه الحارث بن أبى سدد، لغنيمة غنمها من قوم غزاهم فأدخلها اليمن، فسمى لذلک الرائش ، وأنه غزا الهند فقتل بها و سبى و غنم الأموال، و رجع إلى اليمن ثم سار منها، فخرج على جبل طىء ثم على الأنبار، ثم على الموصل، وأنه وجه منها خيله وعليها رجل من أصحابه، يقال له: شمر بن العطاف، فدخل على الترک أرض أذربيجان وهى فى أيديهم يومئذ، فقتل المقاتلة وسبي الذرية ، وزبر ما كان من مسيره فى حجرين، فهما معروفان ببلاد أذربيجان.

Türkləri ilə döyüşü və onlara qalib gəlməsini bir-birindən cüzi fərqlə əks etdiriblər.

Raiş'in Azərbaycana hücumu və Azərbaycan Türkləri ilə döyüşü, eləcə də bu hücumun səbəbləri barədə daha geniş məlumat isə Nəşvan bin Səid Himyərinin "Müluki Himyər və Əqyal əl-Yəmən..." əsərində öz əksini tapmışdır. Həmin əsərdə Raiş'in Hindistan səfərindən qayıdandan sonra hakimlərin ona tabe olub vergi ödəməsi, onun isə uzun müddət Yəməndə qalıb yürüşə çıxmaması qeyd edilməklə, həmin Yəmən hakimini Azərbaycan'a hücuma şirnikdirmək məqsədilə Babil padişahı elçilərini Mənuçöhr padişahın (Sasani hökmdarı-H.S.) məktubu, eləcə də çoxu Türk ölkəsindən (Azərbaycan nəzərdə tutulur –H.S.) olan cəvahir, qırmızı rəngdə qiymətli əşyalar, Tibet müşkü, ipək, rəngli ipək parça, bəzək əşyaları və qablarla birlikdə Raiş'ə göndərməsi əks etdirilib. Azərbaycan'dan söhbət edərkən həmin Türk yurduna Raiş'i hücuma həvəsləndirmək məqsədilə göndərilən hədiyyələrin əksərinin silah olduğu qeyd edilir (Himyəri, 1978: 65). Göründüyü kimi, islamdan bir neçə yüz il öncə baş verən hadisədən bəhs edilərkən Azərbaycan Türk ölkəsi və Türk yurdu kimi təqdim edilir. Nəşvan Raiş'in öz sərkərdəsini Azərbaycan Türkləri ilə döyüşə göndərməsini belə qeyd edir:

> "Şümür Zülcənah əl-Əkbər bin Əttaf bin Məntab bin Əmr bin Zeyd bin Əlaq bin Ömər bin Zi Əbyəni göndərdi ki, Azərbaycan Türkləri ilə qarşılaşsın. Onların arasında müharibə baş verdi. Şümür onların (Azərbaycan Türklərinin – H.S.) döyüşçülərini öldürüb, qadın və uşaqları əsir aldı…"[3] (Himyəri, 1978: 65).

Raiş'in öz sərkərdəsi vasitəsilə Azərbaycan Türkləri üzərində həmin qələbəsi və geri qayıdandan bir müddət sonra Azərbaycan Türklərinin xərac verməkdən imtina edib, hətta onların nümayəndələrini öldürdükləri də ərəb mənbələrində əks etdirilib. Vəhəb bin Münəbbəh "Ət-Tican fi-Müluki Himyər" əsərində Əməvi xəlifəsi Müaviyənin tarixi bilgilərə malik olan Übeyd bin Şəriyə ilə qeyd etdiyimiz mövzu haqqında danışığını belə təqdim edib:

---

[3] و بعث شمر ذا الجناح الأكبر بن عطاف بن المنتاب بن عمرو بن زيد بن علاق بن عمر بن ذى أبين، حتى دخل على الترک أذربيجان، فأوقع فيهم وقعة أثرت فيهم، فقتل المقاتلة، وسبى الذرية، و تبع قلهم، حتى أوغل فى بلد الترک...

> "Böyük Tübbə adlandırılan Tübbə əl-Raid bin Tübbə əl-Əqrən bin Şümür Yərəşin hakimiyyətinin iyirminci ilində Türklər və Xəzərlər xərac verməkdən imtina edib, Yəmən padişahının elçisini öldürdülər. Bu hadisədən qəzəblənən Rəişi sərkərdəsinin getdiyi yolla hərəkət edərək onların üzərinə hücuma keçib, Tey dağından Ənbara getdi. Onlarla Azərbaycan və Mosul sərhəddində qarşılaşdı. Onlara qalib gələrək, döyüşçülərini öldürüb, qadın və uşaqları əsir aldı, ölkələrini xarabalığa çevirdi. Onları əzəndən sonra Yəmənə döndü"[4] (Vəhəb: 449).

Təbəri isə Tübbə əl-Raiş'in özünün Azərbaycan'a ikinci yürüşü haqqında yazıb:

> "Tübbə'dən sonra Bəştasb və Ərdəşir Bəhmən bin İsfəndiyar bin Bəştasb dövründə adı Əbu Kerb olan Tübban Əsəd Yəmən'dən Raiş'in sərkərdəsinin getdiyi yolla hərəkət edib Tey dağına getdi, oradan isə Ənbar'a hərəkət etdi. Heyrət adlanan yerə çatdıqda gecə idi, heyrətə gəldi və bura Heyrət adlandı. Ondan sonra gedib və Əzd, Ləxm, Cəzam, Amilə və Qəzaə əhlindən bir qrupunu bina tikmək üçün orada buraxdı. Daha sonra Teyy, Kəlb, Sükun, Belharis bin Kəəb və Əyad'dan bir qrup ona birləşdi. Əbu Kerb Ənbar'a gedərək, oradan da Mosul'a və Azərbaycan'a gedib və Türklərlə qarşılaşaraq, onları məğlub etdi. Çoxlu kişiləri öldürüb, qadın və uşaqları əsir alaraq Yəmən'ə döndü"[5] (Təbəri, C.1 : 566-567).

[4] فمكث تبع الرائد بن تبع الأقرن بن شمر يرعش وهو تبع الأكبر - غزوه - وكان يقال له الرائد ثم أقام عشرين سنة لا يغزو فانقضت عليه الترک والخزر. فلما بلغه ذلک أرسل إليهم فامتنعوا منه وحبسوا الهدايا وقتلوا الرسل. فسار إليهم فی الوجه الذی کان الرائش يسلک إليهم فيه علی جبل طئ حتی خرج علی الأنبار، ثم مضی إليهم قدماً فلقيهم علی الحد من أذربيجان والموصل وقد اجتمعوا ونظروا إلی رايته. فاصطفوا للقتال، فاقتتلوا أياماً، ثم إنه هزم الترک فقتل المقاتلة وسبي الذرية، وأقام يخرب بلادهم، ثم رجع إلي بلاده بعد أن وطئهم وأذلهم.

[5] ثم ملک من بعده تبع، و هو تبان اسعد، و هو ابو کرب بن ملکی کرب تبع زيد بن عمرو بن تبع، و هو ذوالاذعار بن ابرهۀ تبع ذی المنار ابن الرائش بن قيس بن صيفی بن سبا قال: و کان اقال له رائد. قال: فکتن تبع هذا فی ايام بشتاسب و اردشير بهمن بن بشتاسب، و انه شخص متوجها من اليمن فی طريق الذی سلکه الرائش، حتی خرج علی جبلی طيئ، صم سار يريد الانبار، فلما انتهی الی الحيرۀ – و ذلک ليلا- تحير، فاقام مکانه و سمی ذلک الموضع الحيرۀ، ثم سار و خلف به قوما من الأزد و لخم و جذام و عامله و قضائه، فبنوا و أقامو به، ثم انتقل اليهم بعد ذلک ناس من طيّئ و کلب و السکون و بلحارث بن

Həmin hadisə həmçinin İbn Cüzi'nin "Əlmüntəzəm fi tarix əl-Üməm vəl-Müluk" (5, s. 415), Utbi Səharinin "Əl-Ənsab" (24, s. 216), İbn Meskeviyyənin "Təcarüb əl-Üməm" (10, s. 59), İbn Qütəybənin "Əl-Məarif" (8, s. 630) və s. Ərəb tarixçilərinin əsərlərində əks olunub.

Əməvi xəlifəsi Müaviyə tarixə maraq göstərdiyi üçün həmin dövrdə tarix bilicisi olan Übeyd İbn Şəriyyə əl-Corhumidən Azərbaycan və əhalisi haqqında məlumat almışdır.

> "Müaviyə Übeyddən soruşdu ki, sən Allah Azərbaycan nə deməkdir. O cavab verir: Ora Türk yurdudur və onlar orada toplanmışlar"[6] (Vəhəb: 416).

"Ət-Tican fi Müluki Himyər" əsərində Tübbə'nin Azərbaycan'a hücumundan sonra yenə bir az fərqli formada yenə Azərbaycan və onun əhalisinin etnik mənşəyi barədə Əməvi xəlifəsi Müaviyə'nin Übeyd İbn Şəriyyə əl-Corhumi'dən məlumat alması əks olunub.

> "Müaviyə soruşur: Azərbaycan və Türk nə deməkdir? Übeyd deyir: Ora (Azərbaycan-H.S.) onların (Türklərin-H.S.) ölkəsidir ey Əmirəlmöminin"[7] (Vəhəb: 449).

Göründüyü kimi, Əməvi xəlifəsi Müaviyə ilə Übeyd İbn Şəriyyə əl-Corhumi arasında baş verən bu dialoqdan açıq şəkildə Azərbaycan'ın Türklərin ölkəsi olduğu qeyd edilib.

Azərbaycan'ın qədim şəhərlərindən olan və Azərbaycan'ın Cənub-şərq (güney doğu) hissəsini təşkil edən Qəzvin, Qum və Savə şəhərlərinin adının da sırf Türklərlə bağlı olduğu tarixi qaynaqlarda öz əksini tapıb.

Güney Azərbaycan'ın cənub-şərq hissəsində qədim Azərbaycan-Türk şəhəri Savə'nin adı Sasani şahları ilə müharibə aparan Ağ Hun şahı Savə şahın (Bələmi, C.2: 1011) adı ilə bağlıdır.

Mahmud Kaşğarlı "Divani Lüğati Türk" əsərində Qəzvin şəhəri ilə bağlı yazır ki;

كعب و اياد ثم توجه الى الأنبار ثم الى الموصل، ثم الى اذربيجان، فلقى الترک بهزمهم، فقتل المقاتله، و سبى الذريۀ، ثم انكفأ راجعا الى اليمن.

[6] قال معاويۀ: و ما بال آذربيجان لله أنت؟. قال: له انها كانت من أرض الترک و اجتمعوا له.

[7] قال معاويۀ: وما الترک و آذربيجان؟ قال عبيد: هما بلادهم يا أميرالمؤمنين.

> "Qaz Alp Ərtunqa'nın (Əfrasiyab) qızının adıdır. O Qəzvin şəhərinin əsasını qoymuşdur. Bu ad (Qəzvin- H.S.) əslində Qazoyunu, yəni Qaz'ın oyun yeridir. Çünki, o burada yaşayır və oynayırdı. Bununla əlaqədar olaraq Qəzvin'i Türk yurdları sərhədindən hesab edirlər. Həmçinin Qum şəhəri Türkcədir qum-çınqıl mənasındadır. Əfrasiyab'ın qızı oraya ova gedərdi və ora ova getməyə alışmışdı" (Kaşğarlı, 1996: 737).

İbn Hövqəl "Surət əl-Ərz" əsərində Azərbaycan'ın cənub (güney) və cənub-şərq (güney doğu) bölgəsinin sərhədində yerləşən İsfahan'dan söhbət açarkən yazır:

> "İsfahan məntəqələri qədim zamanlardan Türk və Deyləm'lə sərhəd idi. Bu ərazini əhatə edən kəndlər ibarətdir: Ləncan, Mehrin, Cənbə, Kərac, Kədər, Kəkavusan, Bərxuar və Bəraan" (İbn Hövqəl, 1938: 363).

Ümumiyyətlə Azərbaycan'ın şərqində yerləşən Deyləm'in əksər Ərəb mənbələrində adı Türk (Türklərin bölgəsi –H.S.) ilə yanaşı şəklində çəkilir. Buradan da aydın olur ki, Deyləm'in qoşuluğunda yerləşən Azərbaycan Türk yurdu kimi tanınırdı.

Ərəblərin Sasanilərə hücumunda Sasani işğalında olan Azərbaycan Türkləri də müharibədə iştirak edirdilər. Xüsusilə Sasanilərin Mehranilər (İbn Əsəm, 1411: 133) adlandırdığı Azərbaycan'ın yerli hakimləri həmin müharibələrdə Sasani imperiyası tərəfdən döyüşürdülər. Təbəri Həbib bin Səhba'nın dilindən yazır:

> "Mədain'ə daxil olduq, güllə səbətləri ilə dolu günbəz şəklində Türk evlərini (Türk çadırlarını) dağıtdıq. Yeməkdən başqa hər şeyə oxşayırdılar. Qəflətən gördük ki, qablar qızıl və gümüşlə doludur" (Təbəri, C.4: 17).

Azərbaycan Türkləri termininin Ərəblərin Azərbaycan'ı işğal etdiyi illərdə də işləndiyi orta əsr Ərəb qaynaqlarında öz əksini tapıb. İbn əl-Əsir hicri 78-ci (697-ci il) "Əlkamil fit-Tarix" əsərində yazır:

> "Həmin ildə Məsləmə bin Əbdülməlik Azərbaycan məntəqəsindən olan Türklərlə müharibə etdi, müharibə nəticəsində orada qalaları və şəhərləri fəth etdi"[8] (İbn əsir, 1385, C.1: 540).

[8] فی هذه السنه غزا مسلمهٔ بن عبد الملک الترک من ناحیهٔ آذربیجان ففتح حصونا و مداین هنالک.

Həmin əsərin digər hissələrində də Məsləmə bin Əbdülməlik Azərbaycan məntəqəsindən olan Türklərlə döyüşməsi, onlardan çoxlu əsir alması qeyd edilib.

Təbəri isə h. 89-cu il (707-ci vi), eləcə də h. 91-ci (713-cü il) illərin hadisələrindən bəhs edərkən Məsləmə bin Əbdülməlik'in Azərbaycan'dan olan Türklərlə döyüşməsindən bəhs edir (Təbəri, C.6: 44 və 454).

"Tarix-i Xəlifə bin Xəyyat" əsərində isə bu barədə bir az daha ətraflı məlumat verilmişdir:

> "Həmin ildə (h. 97) Vəlid bin Əbdülməlik Məhəmməd bin Mərvanı Cəzirə, Ərməniyə və Azərbaycan valiliyindən kənarlaşdırıb, Məsləmə bin Əbdülməlik'i həmin məntəqələrə hakim təyin etdi. Beləliklə Məsləmə bin Əbdülməlik doxsan yeddinci (719-cu il) ildə Türklərə hücum etdi. Azərbaycan istiqamətindən Dərbənd'ə çatdı. Bir sıra şəhərlər və qalaları fəth edib, ona Dərbənd'dən o tərəfin vəziyyəti barədə məlumat Verdi" (Fuaz, 1415: 193).

Bələmi "Tarixname-yi Təbəri"də (Bələmi, C.4: 828), İbn Kəsir "Əl-Bədayə vəl-Nəhayə" (İbn Kəsir, 1398: 77), Əbu Moxremə Abdulla Təyyib bin Abdulla "Qəladət əl-Nəhr fi Vəfiyyat Əyan əl-Dəhr" (Əbu Moxremə, C.1: 521) və s. bir çox Ərəb tarixçiləri də Məsləmə bin Əbdülməlik'in Azərbaycan'dan olan Türklərlə döyüşməsini qeyd etmişlər.

Xürrəmi hərəkatı dövründə də Babək'in Tarxan adlı böyük sərkərdəsi və onun Marağa bölgəsindəki kəndindən söhbət açılır:

> "Həmin ildə Babək'in ən böyük komandanlarından olan Tarxan öldürüldü… O Babək'dən icazə istədi ki, qışı Marağa bölgəsində olan öz kəndində keçirsin. Halbuki, Afşin onu izləyirdi və Tarxan'ın öz kəndinə getdiyindən xəbər tutduqdan sonra o həmin bölgədə olan Türk Mövla İshaq bin İbrahim'ə məktub göndərərək, göstəriş verdi ki, gecə ilə onu (Tarxan'ı – H.S.) öldürsün və ya əsir tutsun. Türk də həmin işi görüb və gecə vaxtı onu öldürüb, başını Afşin'ə göndərdi" (İbn Əsir, C.6: 459).

Həmin hadisə Təbəri'nin "Tarix əl-Üməm vəl-Müluk" (Təbəri, C.9: 28), İbn Xaldun'un "Tarixi ibn Xaldun" (İbn Xaldun, 1408: 324) və s.

mənbələrdə də öz əksini tapmışdır. Göründüyü kimi Xürrəmilər dövründə Babək'in Türk olan sərkərdəsi, onun Marağa'da kəndi, ekəcə də Marağa'da yaşayan Türk olan şəxsdən söhbət gedir.

2. Azərbaycan'a Köçürülən Türk Olmayan Əhali

Azərbaycan III əsrdə əsasən indiki Fars bölgəsindən olan Pəhləvi mənşəli Sasani ipmeriyası tərəfindən işğal edildikdən sonra, bura ciddi şəkildə Sasani şahlarının fəaliyyət məkanına çevrildi. Sasani şahları Azərbaycan'ı işğalda saxlayabilmək üçün Azərbaycan'da istehkamlar yaradıb və çox sayda özlərinə yaxın bildikləri xalqları Azərbaycan'a köçürmüşdülər. Bu da Azərbaycan'da demoqrafik dəyişikliyə və Azərbaycan'ın xüsusilə Qafqaz bölgəsində çoxetnoslu ölkəyə çevrilməsinə yol açdı.

Xəzər Türklərini özlərinə rəqib hesab edən Sasani imperiyası Azərbaycan'ın şimal bölgəsində Dərbənd qalasını tikdilər. "Sasani şahları Dərbənd sərhədinə xüsusi önəm verirdilər. Çünki, bu hissədən ciddi təhlükə hiss edirdilər. Buraya inandıqları bir qrup mühacirləri köçürdülər. Onlara buranı abadlaşdırıb, məskunlaşmaqda xüsusi muxtariyyət verdilər ki, onlar bu ərazini Türklər (Xəzər Türkləri- H.S.) və kafir düşmənlərdən mühafizə etsinlər" (Həməvi, 1380: 387).

Sasani şahları müdafiə məqsədilə Dərbənd'lə yanaşı Dərbənd'dən cənubda Şabran və Məsqət şəhərlərini də tikdilər. Onlar mənbələrə siyasicin kimi daxil olan xalqları həmin dağlıq bölgələrə gətirib məskunlaşdırdılar (Bəlazuri, 1988: 194). Siyasicinlərin Tatlar olduğu ehtimal edilir. Lakin həmin dövrün mənbələrində Tat və Talış adı çəkilmir.

Qaynaqlarda Sasani şahları tərəfindən Azərbaycan'a mühafizə məqsədilə köçürülən xalqlardan Tabarsaran (Tabasaran-H.S.), onlarla qonşuluqda Pilan və Ləkz (Ləzgi-H.S.) adı çəkilir. Ləkzlərin daha çox olduğu, Liran və Şirvan'da bu köçürülən xalqların çoxlu piyada və süvaridən ibarət kələntərlik və qarnizonlarının olduğu qeyd edilir (Həməvi, 1380: 387).

Həmçinin Sasani şahları müdafiə məqsədilə Azərbaycan'ın Qafqaz'da olan hissəsində Soğdbil şəhərini tikib, oraya Soğdiana'dan silahlı olan əhalini köçürmüşlər (Katib, 1981: 323).

Qeyd etdiyimiz kimi, xilafət dövrü Ərəb-Fars qaynqlarında Azərbaycan'da yaşayan Tat və Talış adı çəkilmir. İslamdan sonra Ərəb işğalları dövründə Gilan, Deyləm və az hallarda isə Muğan ətrafında Təyləsan (Bəlazuri, 1988: 314) adı bir sıra tarixçilərin və coğrafiyaçıların, o cümlədən Bəlazuri'nin əsərində çəkilir. Onların Talışan yəni Talışlar olduğu güman edilir. Lakin "Talış" şəklində bu söz Ərəb-Fars qaynaqlarında əsasən XIII ərsdən sonra çəkilir. Teymuri dövrü tarixçisi Tətəvi Əhməd bin Nəsrullah Faruqi "Əlfi" əsərində Xeyrülbəşərin (Həzrət Məhəmməd-H.S.) vəfatının 664-cü ilinin hadisələri başlığında yazılıb:

> "Həmin ilin əvvəlində Abaqa xan Arran'da qışlaq edib, bir gün ova çıxdı. Şahrud'dan 5 fərsəng (Ölçü vahidi- hər fərsəng 6.24 km-dir) keçdikdən sonra meşəyə çatdı və ovla məşğul oldu. Talış əhalisindən olan bir qrup, yırtıcı kimi qılınc və nizə ilə Abaqa'nın adamlarına hücum etdi. Monqol süvarilər də onlara hücum etdi və döyüş baş verdi. Sonda Talışlar tab gətirməyib, qaçdılar. Abaqa xan göstəriş verdi ki, döyüşçülər onları tutub gətirsinlər. Döyüşçülər meşəni mühasirəyə aldılar. Həmin qrupun başçısı qılıncı və kəfənini boynundan asıb təslim oldu. O cəhangir padişah da onları əfv etdi" (Tətəvi, 1382: 670).

Talışlar Şimali Azərbaycan'la yanaşı Cənubi Azərbaycan'da da Astara'dan cənubda Gilan vilayətinin bir hissəsində yaşayırlar. Cənubi Azərbaycan'da Seyid Əhməd Kəsrəvi Qaradağ və Mərənd bölgəsinin Hərzənd (Daş Hərzənd və Çay Hərzənd), Gəlinqaya və ətraf ərazilərində bir neçə kəndin Talış bölgəsindən son yüzilliklərdə bu bölgəyə köçmüş əhalisinin dilini qədim Azərbaycanlıların dili kimi qələmə verərək, "Azəri Dili" nəzəriyyəsini uydurmuşdur. Lakin S.Ə.Kəsrəvi'nin həmin bir neçə kəndin Türkcədən başqa bir dildə danışması əsasında uydurduğu "Azəri Dili" nəzəriyyəsini isə elə həmin kəndlərin əhalisinin öz soy-kökünə dair dedikləri rədd edilir. S.Ə.Kəsrəvi iddia edirdi ki, həmin bölgədə minlərlə Türk kəndinin içərisində beş-altı kəndin əhalisi Türk deyilsə deməli Azərbaycan'ın qədim və əsil əhalisi onlar olub və Türklər son yüz illiklərdə Azərbaycan'a köçüblər. Lakin indi də gedib Kəsrəvi'nin istinad edib uydurma "Azəri Dili" nəzəriyyəsini formalaşdırdığı həmin kəndlərin əhalisindən soy-kökləri barədə soruşanda deyirlər ki, biz nə Azəriyik, nə də Tat. Biz Talışıq və əcdadımız təxminən 200-300 il öncə Talış

bölgəsindən buraya köçüblər. "Hərzənd əhalisi ata-babalarının dedikləri əsasında bildirirlər ki, təxminən 200-300 il öncə Talış bölgəsindən bu bölgəyə köçüb və Köhnə Hərzənd (Daş Hərzənd-H.S.) kəndində məskunlaşıblar. Sonra isə Gəlinqaya və Baberəyə dağılışıblar" (Asəfi, 1398: 21).

Sözsüz ki, Azərbaycan'a müxtəlif dövrlərdə köçlər və köçürmələr olub. Sasanilərin öz köçləri və köçürmələrindən sonra Ərəb işğalları və ondan sora Ərəb köçləri də olub. Lakin bunların çoxu yerli əhaliyə nisbətən az olduğu üçün əriyib gedib.

Nəticə:

Orta əsr Ərəb-Fars qaynaqları Türk izini Azərbaycan'dan silmək üçün çox sayda Türk olmayan əhalini Soğdiana və digər ərazilərdən Azərbaycan'a köçürən Sasanilərin təsiri altında qələmə alınsa da, həmin qaynaqlarda Azərbaycan'ın ilkin əhalisi kimi Türklərin adı çəkilir. Hətta bir sıra Ərəb işğalları dövrü mənbələrində "Azərbaycan Türkləri" terminə rast gəlinir. Eyni zamanda Azərbaycan'ı işğal etmiş Sasani imperiyası bir tərəfdən Ağ Hun (Eftalit) Türk imperatorluğu ilə davamlı müharibədə olsa da, Şimali Qafqaz'dan Xəzər Türklərinin qarşısını ala bilmək üçün yerli Türk əhalidən deyil, sırf öz xalqı olan pəhləvilər və onlara tabe olmuş digər Türk olmayan xalqları Soğdiana və digər bölgələrdən Azərbaycan'a, xüsusilə Cənubi Qafqaz'a köçürüb, Dərbənd, Şabran, Soğdabil və s. bölgələrdə şəhərlər salıb, möhkəm istehkamlar yaratmışdı. Sasani şahlarının Azərbaycan'a köçürdüyü etnoslardan Siyasicin, Tabarsaran, Ləkz və s. adları Ərəb-Fars qaynaqlarında öz əksini tapıb.

Qaynaqlar

ASƏFİ, Nima (1398). "Xastgah-e Zəbani-ye Mohaceran-e Hərzən", *Pəjuheşha-ye İranşenasi*, İl: 9, Sayı: 2, Tehran.

BƏLAZURI, Əhməd bin Yahya (1988). *Futuhul-Buldan*, Dar və Məktəbətəl-Hilal Yay., Beyrut.

BƏLƏMİ, Məhəmməd bin Məhəmməd (1378). *Tarixnameyi-Təbəri*, C. 1, Suruş Yay., Tehran.

BƏLƏMİ, Məhəmməd bin Məhəmməd (1378). *Tarixnameyi-Təbəri*, C. 2, Suruş Yay., Tehran.

BƏLƏMİ, Məhəmməd bin Məhəmməd (1378). *Tarixnameyi-Təbəri*, C. 3, Əlbürz Yay., Tehran.

BƏLƏMİ, Məhəmməd bin Məhəmməd (1378). *Tarixnameyi-Təbəri*, C. 4, Əlbürz Yay., Tehran.

ƏBU MOXREMƏ, Abdullah Təyyib bin Abdullah. *Qəlladətəl-Nəhr fi Vəfiyyati- Əyanəd-Dəhr*, C. 1, Darul-Minhac Yay. Beyrut.

FUAZ HEKMƏT (1415). *Tarixi- Xəlifə bin Xəyyat*, Darul-Küütüb Elmiyyə Yay., Beyrut.

HƏMYERİ, Nişvan bin Səid (1978). *Muluki- Həmyer və Əqyal-ul-Yəmən və Şərhuha əl-Müsəmma Xülasət-ül-Sirə əl-Camiə li-Əcaibi-Əxbarəl-Mulukit-Təbabiə*, Darul-əvdət, Beyrut.

HƏMZƏ İSFAHANİ, Həmzə bin Həsən. *Tarixi- Sünni Mulukil-Ərz vəl-Ənbiya*, Həyat Yay., Beyrut.

İBN CUZİ, Abdurrəhman bin Əli. *Əl-Müntəzəm fi Tarix-əl Üməm vəl-Muluk*, C. 1, Darül-Kütüb Əl-Elmiyyə, Beyrut.

İBN ƏSƏM KUFİ, MƏhəmməd bin Əli (1411). *Əl-Futuh*, C. 1, Darul-Əzva Yay., Beyrut.

İBN Əsir, Əli bin Məhəmməd (1385). *Əl-Kamil fit-Tarix*, C. 1, Darı-Sadir Yay., Beyrut.

İBN Əsir, Əli bin Məhəmməd (1385). *Əl-Kamil fit-Tarix*, C. 4, Darı-Sadir Yay., Beyrut.

İBN Əsir, Əli bin Məhəmməd (1385). *Əl-Kamil fit-Tarix*, C. 6, Darı-Sadir Yay., Beyrut.

İBN HÖVQƏL, Məhəmməd bin Hövqəl (1938), *Surətül-Ərz*, C. 2, Darı-Sadir Yay., Beyrut.

İBN XALDUN, Abdurrəhman bin Məhəmməd (1408), *Tarixi- İbn Xaldun*, C. 3, Darı- Sadir Yay., Beyrut.

İBN KƏSİR, İsmail bin Ömər (1398). *Əl-Bədayət vən-Nəhayət*, C. 9, Darul-Fikr Yay., Beyrut.

İBN QUTEYBƏ, Abdullah bin Müslim (1992), *Əlmaarif* (İbn Quteybə), əl-Haətəl-Misriyyə əl-Ammətəl-Kitab Yay., Qahirə.

İBN MƏSKUYƏ, Əhməd bin Məhəmməd. *Təcaribül-Üməm*, C. 1.

KAŞĞARLI, Mahmud bin Hüseyn bin Məhəmməd (1375). *Divani- Lüğat-it Türk: Namha, Zəmirha və Sefətha*, Tehran.

KATİB BAĞDADİ, Qidamə bin Cəfər (1981). *Əl-Xərac və Sənaət-əl-Kitabət*, Dar-ur-Rəşid Yay., Bağdad.

TƏBƏRİ, Məhəmməd bin Cərir. *Tarix-əl-Təbəri-Tarix-əl-Üməm vəl-Muluk*, C. 1, Beyrut.

TƏBƏRİ, Məhəmməd bin Cərir. *Tarix-əl-Təbəri-Tarix-əl-Üməm vəl-Muluk*, C. 4, Beyrut.

TƏBƏRİ, Məhəmməd bin Cərir. *Tarix-əl-Təbəri-Tarix-əl-Üməm vəl-Muluk*, C. 6, Beyrut.

TƏBƏRİ, Məhəmməd bin Cərir. *Tarix-əl-Təbəri-Tarix-əl-Üməm vəl-Muluk*, C. 9, Beyrut.

TƏTƏVİ, Əhməd bin Nəsrullah (1382). *Tarixi-Əlfi*, Tehran.

UTƏBİ SƏHARİ, Səlmə bin Müslim (1427). *Əl-Ənsab*, C. 1, Səltənət Umman, Məsqət.

VƏHƏB BIN MÜNƏBBEH, *Əl-Tican fi Muluki-Həmyer*, Mərkəz-it-Dərasat vəl-Əbhas əl-Yəməniyyə, Səna.

YAQUT HƏMƏVİ (1380). Möcəmül-Buldan, C. 1, Sazman-e Miras-e Ferhengi Keşvər Yay., Tehran.

---- (1378). *Mücməl-üt-Təvarix vəl-Qisəs*, Almanya.

Həsən SƏFƏRİ https://orcid.org/0000-0003-2405-353X

Dr.; Azerbaycan Bilimler Akademisi.

Yazı Bilgisi:

Alındığı Tarih: 25 Aralık 2024

Yayına Kabul edildiği tarih: 10 Ocak 2025

E-yayın tarihi: 20 Ocak 2025

Çıktı sayfa sayısı: 16

Kaynak sayısı: 31

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 37-60
Telif Haqqı©Varlıq Dergisi

Əsrimizin Bestelleri[1]
"Yurdumun Sirləri"

• Prof. Dr. Esmira FUAD [2]

Xülasə: Rıza Bərahəni dünyaca tanınmış dev yazardır. Lakin doğma Azərbaycan'ında, özəlliklə də böyük Vətənin quzeyində yetərincə tanınmayıb... Əsərlərinin əksəriyəti İngilis, Fransız, Alman, Rus, İspan, İsveç və Türk dillərinə çevrilib. Hətta adı Nobel mükafatına təqdim olunan yazarlar sırasında olub. Ədəbî nəzəriyə və tənqid, poeziya və belletristikaya aid əllidən çox kitabın müəllifi olan ədib Tehran, Texas, İndiana, Merilend, York, Yuta üniversitələrində fəaliyət göstərib, Toronto Üniversitəsi'nin profesoru olub. Müqayisəli Ədəbiyatşünaslıq Mərkəzində mühazirələrlə çıxışlar edib. Nobeli ala bilməsə də, Kanada Milli Etnik Mətbuatı və Media Şurası'nın İnsan Haqları Mükafatı, Kanada Ədəbiyatında Ömürlük Nailliyət Mükafatı, İran Tənqidçiləri və Jurnalistləri Mükafatı, Toronto Üniversitəsi Massey Kolleci'nin Risk Proqramında Alimlər Mükafatı, Amerika Yazıçılar Birliyi'nin Ümumdünya Azadlıq Mükafatı, Amerika'nın Xarici Mətbuat Klubu Mükafatı və s. kimi çoxlu sayda mötəbər mükafatlara layiq görülüb. Əsərlərini modern və postmodern üslubda, Fars və İngilis dillərində qələmə alan Rıza Bərahəni 12 roman yazaraq dünya romançılığına öz möhürünü vurub. İran'da cərəyan edən bir çox tarixi olayların şahidi olan, milli kimliyini əsla unutmayan yazar Azərbaycan, Tehran, Amerika, Nyu-York'dan və əsərlərinin qəhrəmanlarını da genəlliklə Azərbaycan şəhərlərindən və Tehran'dan seçib. Romanları, şeir və ədəbi tənqid xarakterli yazıları İran'da xüsusi bir ədəbî hərəkatın özülünü yaradıb. 18 il Tehran Üniversitəsi'ndə ədəbiyat, İngilis ədəbiyatı, ədəbî tənqiddən dərs deyib və İran ədəbî tənqidinin əsasını qoyub…

Açar sözlər: Rıza Bərahəni, Azərbaycan, "Yurdumun Sirləri", Roman, Şeir, Ədəbiyat.

---

[1] Besteller: Ən çox satılan.

[2] Filologiya üzrə elmlər doktoru, Prof., baş elmi işçi. Azərbaycan Millî Elmlər Akademiyası, Ədəbiyyat İnstitutu
E-poçt: esmirafuad@gmail.ru; ORKİD: 0000-0002-8794-608X

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 37-60
Telif Haqqı©Varlıq Dergisi

Asrımızın Bestelleri[1] "Yurdumun Sırları"

• Prof. Dr. Esmira FUAD [2]

Özet: Rıza Beraheni dünyaca ünlü dev yazardır. Fakat vatanı Azerbaycan'da, özellikle de büyük vatanın kuzeyinde yeterince tanınmamıştır... Eserlerinin çoğu İngilizce, Fransızca, Almanca, Rusça, İspanyolca, İsveççe ve Türkçeye çevrilmiştir. Hatta adı Nobel Ödülüne sunulan yazarlar sırasında vardı. Edebî kuram ve eleştiri, şiir ve kurguya ait elliden çok kitabın müellifi olan ədip Tahran, Teksas, İndiana, Merilend, York, Yuta üniversitelerinde faaliyet gösterip, Toronto Üniversitəsi'nin profesörü olmuştur. Karşılaştırmalı Edebiyat Bilimi Merkezi'nde konferanslar vermiştir. Nobel Ödülünü alamasa da, Kanada Milli Etnik Basını ve Medya Konseyi'nin İnsan Hakları Ödülü, Kanada Edebiyatında Ömürlük Başarı Ödülü, İran Eleştirmenleri ve Gazetecileri Ödülü, Toronto Üniversitəsi Massey Kolleji'nin Risk Programı'nda Alimler Ödülü, Amerika Yazıçılar Birliyi'nin Ümumdünya Özgürlük Ödülü, Amerika'nın Yabancı Basın Klübü Ödülü vs. kimi çok sayıda presjijli ödüllere layık görülmüştür. Eserlerini modern ve postmodern üslupta, Fars ve İngiliz dillerinde kaleme alan Rıza Beraheni 12 roman yazarak dünya romancılığına kendi mührünü basmıştır. İran'da cereyan eden birçok tarihî olayların şahidi olan, millî kimliğini asla unutmayan yazar Azerbaycan, Tahran, Amerika, NewYork'tan ve eserlerinin kahramanlarını da genellikle Azerbaycan şehirlerinden ve Tahran'dan seçmiştir. Romanları, şiir ve edebî eleştiri karakterli yazıları İran'da özel bir ədəbî hareketin özünü oluşturmuştur. 18 yıl Tahran Üniversitesi'nde edebiyat, İngilis edebiyatı, edebî eleştiri konularında ders vermiş ve İran edebî eleştirisinin temelini atmıştır.

Anahtar sözcükler: Rıza Beraheni, Azerbaycan, "Yurdumun Sırları", Roman, Şiir, Edebiyat.

---

[1] Besteller: Ən çok satan.

[2] Azerbaycan Milli Bilimler Akademisi, Edebiyat Enstitüsü
E-posta: esmirafuad@gmail.ru; ORCİD: 0000-0002-8794-608X

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 37-60
Telif Haqqı©Varlıq Dergisi

Bestseller of Our Century "Secrets of My Country"

Prof. Dr. Esmira FUAD[1]

Abstract: Riza Barahani is a world-famous giant writer. But he is not well known in his homeland Azerbaijan, especially in the north of the great homeland... Most of his works have been translated into English, French, German, Russian, Spanish, Swedish and Turkish. His name was even on the list of writers submitted for the Nobel Prize. The author of more than fifty books on literary theory and criticism, poetry and fiction, he worked at the universities of Tehran, Texas, Indiana, Merilend, York and Yuta, and was a professor at the University of Toronto. He gave lectures at the Center for Comparative Literature. Although he did not receive the Nobel Prize, he received the Human Rights Award of the National Ethnic Press and Media Council of Canada, the Lifetime Achievement Award in Canadian Literature, the Iranian Critics and Journalists Award, the Scholars Award at the Risk Program of the University of Toronto Massey College, the World Freedom Award of the American Writers Guild, the Foreign Press Club of America Award, etc. some have been awarded with many prestigious awards. Riza Barahani, who wrote his works in modern and postmodern styles in Persian and English, has left his mark on world novel writing by writing 12 novels. The writer, who witnessed many historical events that took place in Iran and never forgot his national identity, generally chose the heroes of his works about Azerbaijan, Tehran, America, New York and martyrs from Azerbaijani cities and Tehran. His novels, poetry and literary criticism formed the core of a special literary movement in Iran. He taught literature, English literature and literary criticism at Tehran University for 18 years and laid the foundations of Iranian literary criticism.

Key words: Riza Barahani, Azerbaijan, "Secrets of My Country", Novel, Poetry, Literature.

---

[1]Azerbaijan National Academy of Sciences, Institute of Literature
Email: esmirafuad@gmail.ru; ORCID: 0000-0002-8794-608X

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 37-60
Telif Haqqı©Varlıq Dergisi

«رازهای سرزمین من»
پرفروش‌ترین عصر ما

● **دکتر اسمیرا فواد**[1]

خلاصه: رضا براهنی یکی از نویسندگان مشهور جهان است. اما در زادگاهش آذربایجان، به ویژه در شمال میهن بزرگ، چندان شناخته شده نیست.. بیشتر آثار او به زبان‌های انگلیسی، فرانسوی، آلمانی، روسی، اسپانیایی، سوئدی و ترکی ترجمه شده است. نام او حتی در فهرست نویسندگانی بود که برای جایزه نوبل ارسال شده بودند. او نویسنده بیش از پنجاه عنوان کتاب در زمینه نظریه و نقد ادبی، شعر و داستان بود. در دانشگاه‌های تهران، تگزاس، ایندیانا، مریلند، یورک و یوتا فعالیت نمود و استاد دانشگاه تورنتو بود. او بارها در مرکز ادبیاتشناسی تطبیقی سخنرانی کرد. اگرچه او برنده جایزه نوبل نشد، اما جایزه حقوق بشر را از شورای ملی مطبوعات و رسانه‌های اتنیکی کانادا، جایزه یک عمر دستاورد در ادبیات کانادا، جایزه منتقدان و روزنامه‌نگاران ایرانی، جایزه دانشمندان را از برنامه ریسک کالج مسی دانشگاه تورنتو، جایزه جهانی آزادی را از طرف انجمن نویسندگان آمریکا، جایزه باشگاه مطبوعات خارجی آمریکا و جوایز بسیار معتبر دیگری دریافت نمود. رضا براهنی که آثار خود را به سبک‌های مدرن و پست مدرن به زبان‌های فارسی و انگلیسی نوشته، با نوشتن ۱۲ رمان، نام خود را در میان رمان‌نویسان جهان قرار داد. این نویسنده که شاهد بسیاری از رویدادهای تاریخی ایران بوده و هویت ملی خود را فراموش نکرده است، عموماً قهرمانان آثار خود را از آذربایجان، تهران، آمریکا، نیویورک انتخاب کرده است. رمان، شعر و نقد ادبی او هسته اصلی یک جنبش ادبی خاص در ایران را تشکیل می‌داد. او ۱۸ سال در دانشگاه تهران به تدریس ادبیات، ادبیات انگلیسی و نقد ادبی پرداخت و پایه‌های نقد ادبی ایران را پی‌ریزی کرد.

کلیدواژه: رضا براهنی، آذربایجان، «رازهای سرزمین من»، رمان، شعر، ادبیات.

---

[1] آکادمی ملی علوم آذربایجان، انستیتوی ادبیات.
ایمیل: esmirafuad@gmail.ru، اورسید: 0000-0002-8794-608X

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 37-60
Telif Haqqı©Varlıq Dergisi

Fransa ədəbiyyatının "Qadın Ceyms Coysu" adı ilə tanınan ünlü nümayəndəsi, Fransanın böyük feminist yazıçısı Helen Cixos Rza Bərahəni'nin "Ayazın cəhənnəm günləri" romanını oxuduqdan sonra, roman haqqında öz fikir və düşüncələrini bu cümlələrlə ifadə edir:

> *"Oxu həyatında yeni bir əsəri bulmaq çox çətin və nadir bir hadisədir, bir sevgili ölünün qəbirdən baş qaldırıb dirilməsi kimi bir şeydir. O gün insan ədəbiyyatın həqiqi gücünə inanır. Məncə, hər 10, ya 5 ildən bir belə hadisəyə tanıq ola bilərik. Mənim üçün qiyamət günü idi. "Ayazın cəhənnəm günləri" romanını oxuduğum zaman elə bir günü yaşadım. Cəhənnəmin özünü təcrübə etdim. Əsl Cəhənnəm idi. Belə əsərləri oxumaq mənim üçün dözülməzdir. Yazarın iç dünyasından qaynayıb axan əsəri oxumaq mənə işgəncə verirdi. Bax, Rza Bərahəni'nin bu əsəri mənə Cəhənnəmin nə olduğunu yaşatdı. Rzanın Cəhənnəmi gözəl və baxımlı bir saraydır, İran, Türk və Batı arxivləri ilə doludur. Ensiklopedik bilgilər və xatirələr yığınıdır, başlanğıcı moderndir. Əslində Cəhənnəm deməli idim, gözəl cəhənnəmlər... Çünki Rza dünyasının hər tərəfindən Cəhənnəm alovlanır. Dustaqların şeirini və ailədə baş verən cinayətləri yazır. Rza çox böyük şair və xəyalpərvər bir müəllim olmaqla yanaşı, ədəbiyyat adamıdır. O, dünya söz sənəti sehrbazları və yeni azadlıq yaradıcıları cərgəsinə daxildir..."*

Roman ünlü bolqar filosof-psixoloqu, feminist yazarı Yuliya Stoyanova Kristevaya da eyni cəhənnəm şokunu yaşadır.

Oxucularını romanlarında təsvir etdiyi qandonduran gerçəklərlə Cəhənnəm odunun içərisinə atan və əsl cəhənnəm yaşadan dev yazarın gerçəkçi bir "söz sənəti sehrbazı" olmasının, xalqının birikmiş dərdlərinin özgə dillərdə tərcümanına çevrilməsinin nədənləri özünün ağrılı xatirələrində açıqlanır:

> *"Məktəbdə ("Pərvəriş"-E.F.) oxuduğum ilk illərdə dava-dalaşdakı danışıqların hamısı Türk dilində olurdu. Dərsdə hamı Türkcə danışırdı. O zaman mən məktəbin divar qəzetini Türk*

dilində çıxarırdım. Ancaq Milli Hökumət süquta uğrayandan sonra (1946), Türk dili yasaq olundu. Əmr etdilər ki, qəzet fars dilində çıxmalıdır. Əlbəttə, bunu bizə Türk dilində söylədilər. Həmin dövrdə mən fars dilində yaza bilmirdim. Bu səbəbdən də qəzetin çıxarılmasını başqa bir şagirdə tapşırdılar. Cümə günü mən evdə narahat oturmuşdum. Anam soruşdu: "Niyə tutqunsan?" Mən hadisəni ona danışdım. Anamın o an mənə dediyi: "Oğul, Türkcə yaz!"- sözlərini heç vaxt unuda bilmərəm. Mən yenə köhnə kağızları bir-birinə yapışdırdım, mövzu tapıb yazdım. Səhəri gün onu fars dilində çıxan qəzetin yanından yapışdırdım. Sonra sinfə getdim. Məktəbin müdir müavini gəlib onu qopardı. Sonra zəngi çaldı. Hamını – şagird və müəllimləri məktəbin həyətinə çağırıb sıraya düzdü. O, bizdən Türk dilində soruşdu: "Türk dilində olan bu qəzeti kim yazıb yapışdırıb?" 11-12 yaşım var idi. Mən qabağa çıxdım. Müavin mənə Türkcə dedi: "Məgər deməmişdim ki, Türkcə yazmayın?" Dedim: "Bəli, deyibsiz..." Yenə Türkcə soruşdu: "Bəs niyə yazıbsan?" Cavab verdim: "Mən farsca bilmirəm". O, qəzeti yerə atdı. Sonra boynumun kökündən tutub başımı aşağı əydi. Öz Türkcəmizdə mənə dedi: "Yala buraxdığın bu qəzeti..." Mən o qəzetin bütün boyalarını sonadək yaladım… (Səlim Babullaoğlu. "Yazmaq ləzzəti digər ləzzətlərin əvəzedicisidi" 525-ci qəzet.2011.9 aprel.s.26-27)

Bu azmış kimi, 1945-ci ilin 12 dekabrında S. C. Pişəvərinin və silahdaşlarının qurduğu Milli Hökumət dövründə bircə il Türkcə təhsil alan kiçik Rza'nın 1946-cı ilin sonunda Türkcə dərslikləri də əlindən alınaraq gözlərinin önündəcə yandırılır və həyatının ikinci travmasını da yaşayır:

"...Onlar bizi Türk dilində yazılmış dərslikləri Şəhrdari (Bələdiyyə) meydanına toplayıb yandırmağa məcbur etdilər. Kitabların alovları bizim başımızın üstündə dar ağaclarından asılmış kişilərin ayaqlarına qədər qalxırdı. Gündüzləri Təbriz'i qoruyub gecələri isə küçələrinə asfalt çəkən fədailər demokrat firqəsi devrildikdən sonra evlərindən çıxarılır, onlardan arxalarına baxmadan yerimələrini tələb edir, sonra biz uşaqların gözləri önündəcə arxadan atəş açıb cəsədlərini küçədəki nova atırdılar..." (amerikaninsesi.org/a/kitab-iran/1813673.html)

Dahi yazarın ömür səhifələrindən bu ikicə yarpaq bəlirləyir ki, həyatı çox ağır şərtlər altında keçib, hakim millətin, məzlum millətə verdiyi sitəmləri görə-görə böyüyüb, bu şərtlər altında oxuyub, orta və ali təhsilini yad dildə-farsca tamamlamalı olub. Əslində divar qəzetinə Türkcə yazdıqları onun "söz dünyasının sehrbazı" olacağının ilk işartıları idi... Lakin doğma dilində danışmaq, yazmaq da elə o dönəmdə - 1946-cı ilin sonunda yasaqlanıb... Amma anasının həzin-həzin qulaqlarına oxuduğu layla dilini heç vaxt unutmayıb və bu dillə iliklərinədək yeridilən Türklük ruhuna ömrü boyu sadiq qalıb və Türk ruhu, təfəkkürü ilə, ancaq farsca yazdığı "Yurdumun sirləri", "Ayazın cəhənnəm günləri" romanları böyük əks-səda doğuraraq ədəbi aləmdə şimşək tək çaxıb. Həm "**Öldürülənlərin avazı**", "Azadə xanım və yazarı", "Təbrizlilər", "Taclı hanniballar-adamyeyənlər", "İlyas bəy Nyu-Yorkda" və s. romanları, həm "Zillullah. (Zindan şeirləri)" "Allahın kölgəsi", "Pəncərənin yanına gəl", "Kəpənəklərə xitabən" şeir topluları, həm də İranın siyasi, ictimai və sosial-tarixi strukturu üzərinə yazdığı "Şəhrizad və onun yazarı", "Kişilik tarixi", "Lilit", "**Maskulin tarix**", "Misir səfəri" və bütövlükdə lirik hiss və duyğularının, ədəbi-tənqidi fikirlərinin yer aldığı 50-yə yaxın kitabında İrandakı hakim rejimin cinayətlərini, çirkin əməllərini ifşa edib, rejim tərəfindən haqq və hüquqları əlindən alınan, ana dili yasaqlanan, milli hissləri aşağılanan xalqının gerçək durumunu, tarixini qələmə alıb. İrihəcmli "Misdə qızıl" kitabındakı eleştiriləri ilə İranda Avropa tipli ədəbi tənqidin əsasını qoyub və İran ədəbi tənqidinin atası statusunu qazanıb. İran tarixi ilə bağlı içindən gələnləri qələmə aldığı "Dismemberment-Tikə-tikə etmək" əsərində isə tarixdə bir-birlərinə bənzəyən müxtəlif adamları bir xarakterin timsalında canlandırıb. Demokratiya, insan hüquqları, ifadə azadlığı, Türk dil haqları və qadın-kişi bərabərliyi uğrunda, habelə istibdad və senzuraya qarşı mübarizə apardığına görə həm Şah, həm də İslam inqilabından sonrakı dönəmdə həbs olunub, burada olmazın işgəncələrə məruz qalıb... Zindan əzabını, işgəncələri şəxsən yaşadığına görə, onun xatirələrin dili ilə yazdığı şeir, poema və romanlar bu dərəcədə inandırıcı alınıb. Fars, ingilis, yaxud fransız dilində qələmə aldığı bu əsərlərdə mənfi, ya müsbət, fərq eləməz, daha çox öz xalqının bütün zümrələrdən olan nümayəndələrinin parlaq, capcanlı obrazlarını yaradaraq Azərbaycan milli varlığını ədəbi müstəviyə gətirib…

Rza Bərahəni romanlarında Tənbəki üsyanı (9 mart 1891-ci il), Məşrutə (1906-1911) və Xiyabani hərəkatları (1920), Seyid Cəfər Pişəvərinin qurduğu Demokratik Hökumət (1945-1946) və İran İslam İnqilabı (1978-1979) zamanı baş verən tarixi hadisələrin ən yüksək poetik dillə son dərəcə maraqlı təhkiyəsini yaradıb...

Tanınmış Türkoloq və yazar Toğrul Atabay'ın çoxyönlü şəxsiyyət və tənqidi ağlın ən itisözlü təmsilçilərindən biri saydığı Rza Bərahəni müstəmləkəçiliyə qarşı çıxıb, yurdunun gizlədilən, ört-basdır edilən sirlərini açıqlığa qovuşdurub. Ancaq bu romanları ana dilində deyil, Farsca yazmaq zorunda qalmasını qəbullana bilməyib. Ömrünün ixtiyar çağında illər boyu içində daşıdığı acını etiraf etməyi və bu yolun yolçusu olan soydaşlarını ayıltmağı gərəkli sayıb:

> *"Biz fars dilinə xidmət etmək məcburiyyətində qalmışıq. Əslində bizi elə duruma salıblar ki, biz öz dilimizə xəyanət etmişik. Nəyə görə mən, bir Azərbaycan aydını 70 yaşımda belə bir hiss keçirməliyəm?! Bizim dilimizi əlimizdən alıblar. İstəmərəm ki, məndən alınan haqq başqalarından da alınsın. Biz qoymamalıyıq ki, bizdən sonra gələnləri dildən məhrum etsinlər..."*

Bu gerçəyin bədii ifadəsi ana dilinə həsr elədiyi bu şeirində damarlarda axan qanı dondurur:

Qavalçalan oxuyar dağ ətəyində,
Bağın dibində sənin əksini tapanda,
Bu əksi basanda bağrına gizlin,
Dilim! Dilim! - deyən
Heyf olmuşum, yazığım, gözəl dilim,
Necə bağrımda yandı, lap külə döndü.

Dilini kəsib yasaqlasalar da, "*bağrında yandırıb lap külə döndərsələr də*" ana dilində təhsil almaq, roman, şeir oxumaq imkanı olmasa da, zehni açıq, işlək qalır Rza Bərahəni'nin... Və öz dilini savunur... Zehnini yasaq saxlamağa haqqının olmadığını dərk edir və qadağan olunmuşa - ana dilinə bir vasitəçi tapır. Beləliklə də hakimin öz dilində ona qarşı üsyan edir. Dilinin kəsilməsini və çoxuşaqlı, yoxsul bir ailədə doğulmasını üsyanının əsası sayır və... üsyana gerçəkləri yazmaqla başlayır... İngilis dilini yeniyetməlik çağlarında ikən öyrənir və bu dildə xeyli kitab oxuyur. Təbriz Universitetini ingilis dili və ədəbiyyatı ixtisası üzrə bitirir. Təhsilini Türkiyə'nin İstanbul Universitetində davam etdirir, elmi işini ana dilində yazır və

doktorluq dərəcəsi alır. İngilis dili ilə yanaşı, fransızcanı da mükəmməl bilməsi, dünya ədəbiyyatına və çağdaş elmi-nəzəri fikrə dərindən bələd olması o zamankı İran ədəbi mühitində ona böyük üstünlük qazandırır. Gənclik illərindən dünya ədəbiyyatı ilə ciddi şəkildə tanış olması, ingilis dili araçılığı ilə də dünyanı öyrənməyə və tanımağa başlayır. Dostoyevski, Tolstoy, Folkner və b. əsərlərini də çox erkən yaşlarında ingiliscə oxuyur. “Bədbəxt adamlar” romanını oxuyanda ona elə gəlir ki, Dostoyevski Təbriz’də olub və Güney Azərbaycan Türklərindən, Təbrizlilərdən yazıb. “Bəyaz gecələr” romanı isə yazmaqdan əsla vaz keçə bilməyəcəyini anladır Rza Bərahəni’yə... Sonra ədibin



“Cinayət və cəza” romanını oxuyur və içində olduğu hərəkatla F.Dostoyevskinin bir bağlılığı olduğunu hiss edir. Lakin yazıçının “Gizlinlərdən qeydlər” romanını mütaliə edərkən daha çox təəccüblənir və əsərin sanki öz qələmindən çıxdığını sanır... Ona görə də roman yaradıcılığında özünü Fyodor Dostoyevskinin şagirdi sayır.

Lakin Rza Bərahəni söyləşilərində modernist düşüncəyə daha yaxın olduğunu vurğulayır. Prust, Coys, Folkner, Virciniya Vulf, Nabokov, Borxes yaradıcılığından bəhrələnərək İranda modernist və postmodernist nəsrin ən mükəmməl örnəklərini qələmə alır. Dünyada maraqla qarşılanan romanlarını yaza-yaza belə bir sonuca varır ki, Azərbaycanın yəhudilərin "Tövrat"ı kimi bir kitabı yoxdur. Müqəddəs kitab olsa da, "Tövrat"da bir etnosun həyatının başdan sonadək yazılması diqqətini çəkir. Bu baxışı ilə bağlı bəzi düşüncə adamlarının fikirlərini örnək alır. Folknerin hər il "Əhdi-Ətiq"i - "Tövrat"ı və Migel de Servantesin dünyanın ilk modern romanı sayılan "Don Kixot" romanını, özünün isə bunlardan başqa daha iki əsəri - "Min bir gecə" və Mövləvinin "Məsnəvi"sini oxuduğunu etiraf edir. Ancaq daha çox "Məsnəvi"ni oxuduğunu söyləyir. Bunun səbəbi kimi isə "Məsnəvi"də bir hekayə bitməmiş sonrakı hekayənin başlamasını göstərir.

> *"R.Bərahəni də eynilə "Məsnəvi" də olduğu kimi, hadisəni parçalayır, hissələrə bölmə ifadəsini həm konsepsiya, həm də metod mənasında işlədir..."* və deyir: *"Mənim zehnim bu cürdür. Mənim Azərbaycanımı heç kəs yazmayıb. Hətta mərhum dostum Qulamhüseyn Səidinin Azərbaycanda baş vermiş bir-iki hadisəyə, məsələn, Məşrutə hərəkatına dair pyesləri və s. də bunu tam əhatə etmir. Mənim işim bir qədər fərqlidir. "Ayaz" romanımda hadisələrə Ayazın gözü ilə baxır-dım və bu Ayazın 2500 yaşı var..."*

Və o, Bakıda çap edilib yayılmasını çox arzuladığı, tabuları sındırdığı və məhz özünün yaşadıqlarını və müşahidə etdiklərini yazdığı "Yurdumun sirləri", başdan sonadək Ayazın-Azərbaycan xalqının 2500 illik tarixini ən yüksək bədii dillə, dərin məntiq və fəlsəfə ilə canlandırdığı "Ayazın cəhənnəm günləri" romanlarında uzaq və yaxın keçmişə ekskurs edir. Oxucu bu romanlarda silsilə tarixi fakt və olayları öyrənir, müstəmləkə boyunduruğunda çabalayan Güney Azərbaycan xalqına uzun illər boyu yaşadılan müsibətlərin şahidi olur.

Rza Bərahəni 21 Azər inqilabının, 18 avqust olaylarının –1953-54-cü illər İrtica dövründə xalqın tərəfdarı olan Məhəmməd Müsəddiq Baş nazir olarkən ABŞ-ın yardımı ilə baş verən çevriliş hadisəsinin - Müsəddiq hərəkatının, 1978-79-cu illər İslam inqilabının başvermə səbəblərini və gedişatını bir tarixçi alim səriştəsi ilə izləyir,

ancaq yazıçı təxəyyülünün fəlsəfəsi ilə qələmə alır, oxucunu gerçəkliklərlə üz-üzə, baş-başa qoyur və baş verənlərə onu inandırmağı bacarır...

> *"İrandakı İslam inqilabının baş verməsində daxili səbəblərlə yanaşı, xarici səbəblər də mövcud idi. İran həmin dövrdə ABŞ-ın regionda ən yaxın və strateji müttəfiqi idi və bununla yanaşı, Amerika Birləşmiş Ştatları bu ölkəyə çoxlu miqdarda silah satmışdı. Əsas məqsəd isə Sovet İttifaqından gələn təhlükənin qarşısını almaq və Fars körfəzində İranın dominant rolunu təmin etmək idi. İranda işləyən və yaşayan xarici ölkə, xüsusilə ABŞ vətəndaşlarının yüksək səviyyədə yaşaması, təbii ki, yerli əhali tərəfindən sakit qarşılana bilməzdi. Buna görə də, islam inqilabçılarının əsas mübarizə istiqaməti ABŞ-a qarşı çevrilmişdi. 1979-cu ilin əvvəlində inqilabın təsiri altında şah Məhəmməd Pəhləvi İranı tərk etmək məcburiyyətində qaldı. Fevralın 1-də Ayətulla Xomeyni Tehrana qayıtdı. İslam inqilabından sonra da ABŞ-a qarşı mübarizə davam edirdi. 4 noyabr 1979-cu ildə özlərini "İmam xəttinin ardıcılları" adlandıran tələbələr Tehranda Amerika səfirliyinin binasını tutdular və 52 nəfəri girov götürdülər…"*

Göründüyü kimi, o, İranda mövcud *"müstəmləkənin öz dili ilə ona qarşı çıxır, bundan bir qamçı kimi istifadə edir, şüurlu bir post-kolonial duruş sərgiləyir..."*

Amerikanın Uzaq Şərq və Şərq siyasətini, amerikalıların özlərini başqa millət və xalqlardan üstün sayaraq onlara yuxarıdan aşağı baxmasını-özündən razılıq kibrini, eyni zamanda mənfur siyasəti ilə dünyanı "xəstəxanalıq" etməsini də ifşa edən Rza Bərahəni'nin aydın ziyalı baxışını və vətəndaş mövqeyini romandan sətirlər bəlirləyir:

> *"Bir amerikalı ayağını hara bassa, ora Amerikadır..."* Yaxud: *"Bizim iki başımız var. Biri pambıqdır, biri də qılınc. Hansı ki, bizə itaət edir, ona pambıq oluruq, itaət etməyənlərəsə qılınc..." "Hər yer Amerikanın xəstəxanasıdır, vacib deyil Saygonda olsun. Dünya Amerikanın xəstəxanasıdır..." "Allah! Vyetnamda, bir Amerikalı özünü nə qədər tənha görür! Bəlkə torpaq bizdən intiqamını alır. Bəlkə 20 il öncə Amerikalı bir zabiti İranın şimalında öldürən qurd indi Vyetnama gəlib?"*

Romanlarında, ədəbi-tənqidi yazılarında yazarın Türk mifologiyasının bilicisi olduğu da aydınlaşır... "Yurdumun sirləri"ndə əcnəbi öldürən Savalan qurdunun obrazında bozqurdun əski Türklərin qurtuluş rəmzi-totemi olduğunu çatdırır. Eyni zamanda xalqının yadellilərlə, işğalçılarla heç vaxt barışıb bir araya gələ bilməyəcəyini, qoynunda onlara yer verməyəcəyini həmin qurdun Savalan dağının ətəklərində dişləri ilə Amerika zabitinin şah damarını qırıb öldürməsi, inqilabçı Təhminəni isə oğlu Nasirlə birlikdə qurdun öz kahasında gizlədib qoruması epizodları ilə ötürür dünya oxucusuna... (*"Təhminə bir damla suya döndü, buxar olub göyə çəkildi, ya da yerin dibinə batdı... Generalın jandarma-mühafizə xidmətlərinin, polisin, SAVAK-ın, ordunun gizli təşkilatının bütün səyləri hədər oldu. Heç kəs onun izini tapa bilmədi, elə bil ki, ayrı bir dünyadan adamlar gələrək Təhminə ilə oğlunu oğurlayıb öz kürələrinə aparmışdılar..."*) Göstərir ki, Azərbaycanın mədəniyyət, elm və ürfan mərkəzi sayılan Ərdəbil dünya qurdlarının da mərkəzidir. Bu qoruyucu qurdlar "*bəzən yolun üstünə gəlib sədd çəkərlər, qoymazlar ki, o biri heyvan və maşınlar, yaxud adamlar ordan keçsinlər..."*

Maraqlıdır ki, Rza Bərahəni "Yurdumun sirləri"ndə əcnəbi öldürən qurdun amerikalı zabit Devisə, ingilis hərbçisinə-bütünlükdə amerikalılara və digər yadellilərə qənim kəsilməsini Güney Türklərinin qeyrət məsələsi kimi də mənalandırır: *"Elə ki, biz çarəsiz qalırıq, heç birimizin də əlindən bir iş gəlmir, o zaman əcnəbi öldürənin qeyrət damarı tərpənir. Ona əcnəbi öldürən deyirlər. Savalan qurdu əcnəbini öldürəndir. Bir dəfə bir rus kazakını öldürdü. Neçə illər bundan öncə bir ingilis generalını öldürdü. Yerli insanlarla işi yoxdur..."*

Eyni münasibətin təzahürü yazarın: *"Asiyada hər kəsin əlinə bir tüfəng versən, birinci amerikalını aradan götürər..."* – fikrində də özünü göstərir... Romanın sonunda yazar qurd totteminə təkrar qayıtmaqla Azərbaycan Türklərinin mübarizəsinin bitmədiyini, hələ də davam etdiyini vurğulayır...

Rza Bərahəni Farsların yaxın və uzaq keçmişinin, ənənələrinin içəriyini səltənətlə dini inancın təşkil etdiyini cəsarətlə söyləyir, inkişafdan geri qalan İranın Rusiya, ABŞ, İngiltərə və Almaniyaya qarşı yürütdüyü dövlət siyasətinin - xarici siyasətin yararsızlığını tarixi faktlarla açıqladığı kimi, şovinist daxili siyasətini də kəskin şəkildə tənqid etməkdən çəkinmir:

"Demokratiya Qərbin, liberalist bir inqilabın tapıntısıdır. Şəhərdə yaşayan ziyalı, orta savadlı təbəqə İranın hər yerində yaranmayana qədər İran millətinin demokratiyadan istifadə etmək imkanı ola bilməz və hətta kommunistlərlə mübarizədə belə, ondan istifadə etmək olmaz. Generalın (Şadanın-E.F.) fikrincə, tarixdən öncə yaşayanların demokratiya ilə özəl bir məntiqi bağlılığı var, onsuz problemləri həll etmək olmaz. Buna görə də İranda seçkilər demokratik ola bilməz. Məhkəmənin mənası ola bilməz, fərdi haqları və azadlığı tələb etmək mənasızdır. Qanun qarşısında bərabərlik boş sözdür..."

"Rza şah bizi Hitlerlə müttəfiq elədi. Biz də fikirləşirdik ki, gərək şimal qonşumuzun (SSRİ, Sovet Azərbaycanı-E.F.) qabağında səngər quraq. Savaşda halva paylamazlar ki... ...Yadımdadır, 1941-ci ilin senyabrında biz hamımız hər şeyi qoyub neçə qaçdıq. Böyüklər hamıdan öncə qaçdılar. Biz kiçiklər bir az gec hərəkətə gəldik, amma hamımız qaçdıq. Rza şah hamımızdan uzağa getdi, Tehrandan Cənubi Afrikaya. Qızıl ordu da İrana girdi. Bizə demişdilər ki, gərək İranın bir qarış torpağı da düşmənin əlinə keçməsin. Bir qərar və mədarla Rza şah qaçdı. 24 saatın içində İranın dostu oldu düşmən, düşməni də dost..."

Beləcə, dahi yazar general Şadanın dili ilə bir az da dərinə gedir, həm ABŞ-ın, həm də SSRİ-nin, əslində isə Rusiyanın İrana-Güney Azərbaycana qarşı yürütdüyü *"dostu düşmən, düşməni də dost edən"* çoxüzlü siyasətinüi iç üzünü açır, tarixi gerçəkliyi ortaya qoyur:

"Ruslar istəyirlər ki, iki Azərbaycan bir olsun və sovetin torpağına birləşdirilsin. Amerikanın dünyabaxışı və əlahəzrətin İran daxilində rəhbərliyi nəticəsində bu uğursuz planın icrasına maneçilik törədildi. İranın başından böyük bir təhlükə keçdi. Əgər Azərbaycan muxtariyyət qazansaydı, mütləq İrandan ayrılacaqdı. Fikirləşin, İranla sovetin sərhədi Culfa yox, bəlkə Qəzvin olacaqdı... Azərbaycan İranın başıdır, baş gedəndə bədən də gedər..."

Öz xalqına aşağı nəzərlərlə baxan, saysız canlar alan, Amerikalıları isə baş tacı edən cəllad general Şadanın mürəkkəb və ziddiyyətli xarakterinin özəlliklərini açmağa Təbriz'dəki 21 Azər mərasimi zamanı atının onu qaldırıb yerə çırpdıqdan sonra, şikəst qalmasından

və aldığı zədə sonucunda övlad sahibi ola bilməməsindən, hətta gələcək uşağının belə, ali irq saydığı amerikalı zabit Racer Biltimordan olmasını istəməsindən başlayır. Eyni açıqlamada atın bir Türkün həyatındakı önəmini, rəmzi mənada dosta dost, düşmənə düşmən olduğunu da vurğulayır:

> *"At iki ayağı üstündə şahə qalxmışdı, qabaq ayaqlarını elə yüksəkdə saxlamışdı ki, sanki uçmağa hazırlaşırdı. Tezliklə qabaq ayaqları iki qanad kimi açılacaq, sanki at və atlı göyə uçacaqdılar. Sonra birdən camaatın çığırtısı bütöv bir "Vay!" səsi şəklində yüksəldi. At da bu səsi eşitmişdi. Şahə qalxdığı ayaqlarının üstündə sürətlə fırlandı, generalı da başının üstündə fırlatdı. Sonra boynunun və başının arxasından bir şey sürətlə yerə atıldı. Yenidən at dörd ayağı üstündə dayandı. Ancaq generalın başının üstündə... Bir qatilin öldürdüyü şəxsin başının üstündə dayandığı kimi... Dedilər ki, at Təbriz xalqının intiqamını generaldan aldı. Niyə? Məgər general Təbriz xalqına nəsə eləmişdi ki, Marağada tərbiyə olunan at 21 Azər günü gəlib generaldan Təbriz xalqının intiqamın alsın?! ...At hardan bilirdi ki, generalın Təbriz xalqına qarşı törədilən cinayətlərdə əli var... O, hardan bilirdi ki, 21 Azər mərasimi ordunun Təbrizə girişinin bir ilini yola saldı?"*

Sitatdan general Şadanın Təbriz əhalisini əzməkdə və Demokrat Firqəsini məhv etməkdə, Azərbaycanın İrana qaytarılmasında və Təbriz'də sakitliyin, nizam-intizamın bərpa edilməsində böyük rol oynaması obrazlı şəkildə açılır... Ümumiyyətlə, xalq təfəkküründün dərinliyinə və ana dilinin alt qatlarına məharətlə enə bilən yazar roman boyu bu xəzinədən yararlanır, rəmzi, yaxud gerçək mənada atın, qurdun, torpağın, xalqın onlara xor baxanlardan, haqqını tapdalayanlardan gec-tez qisas alacağına da işarə vuraraq, məsələni ədəbi müstəviyə gətirir... "Yurdumun sirləri"ndə qisasçılıq daha geniş, qapsamlıdı... Cinayətkar general Şadandan, İranın neft satışından gələn gəlirlərdən varlanıb böyük sərvət qazanan Fərzamdan, Eli-Südabədən, Mahi-Mahnuşədən, Huşəng Marağayidən alınan tükürpədici qisas oxucunun ürəyini üşüdür:

> *"Soyuqbulaq! Soyuqbulaq (Şadanın Huşəngə Təbriz yaxınlığında təcavüz etdiyi yerin adıdır-E.F.)! Yadındadır, hə? Köpək oğlu, yadındadır? Satırı qaldırıb düz döşünün ortasına vurdum. Bütün vücudu titrəməyə başladı, ayaqları yuxarı*

atdandı, qanı ağzından çölə fışqırdı. Sonra isə peşəkar bir qəssab kimi, bədənini şaqqa-şaqqa edib başını kəsdim. Əllərini çəkib ayaqlarının arasına qoydum. Kəsilmiş başını da əllərinin içinə qoydum və başsız bədənini böyük masanın üstünə uzatdım...."

"Yurdumun sirləri"ndə Rza Bərahəni'nin yaratdığı obrazlar qalereyasında həm mərd, həm namərd, həm əxlaqlı, ismətli, həm də əxlaqsız kişi və qadın ədəbi qəhrəmanlar yer alır. Əynindəki yaşıl rəngli yataq paltarının altından bədəninin hər yeri görünən, saçlarını döşlərinin üstünə və çiyinlərinə atan gözəl bir qadının işvə-naz ilə Raceri yatağına çəkməsi öncə Amerikalı zabiti şaşırdır, o an içində: *"Bu adamın heç qüruru yoxdur. Hansı bir qürurlu kişi öz qadınını başqa bir kişi ilə otaqda tək qoyub çıxıb işə gedə bilər?"* - təəccübü doğur. Ancaq Eli-Südabənin: *"Ərim istəməsə, mən belə bir işi görə bilmərəm... ...O, (General Şadan-E.F.) həmişə ən yaxşı seçimləri özü edir. Sən aylar öncə, İrana gəldiyin zaman seçildin. General da bu dəfə istisna olaraq, istədi ki, o qəribə adamı mən görüm. Gördüm, bəyəndim və indi buradasan. İndi isə gəlməyə məcbursan. Əgər gəlməsən, abrını alaram. Çığıraram, cangüdənləri çağıraram, qonşular gələr və fikirləşər ki, bir amerikalı generalın arvadına təcavüz etmək istəyirdi. Gəl, gəəəl!.."* – etirafı ərinin, Şah ordusunun generalının nə qədər əxlaqsız kişi-homoseksualist olduğunu nişan verir. Gəncəcik Huşəng Marağayini, ən yaraşıqlı cangüdənlərini seçib divarlarını çılpaq şəkillərlə bəzətdirdiyi güzgülü-içəri girən kimi əxlaqsız bir qocanın yaşadığı anlaşılan yataq otağında təcavüzə məruz qoyduğunu çox etkiləyici epizodlarla təsvir edir. Eyni zamanda modernist yazıçı hələ keçən əsrin 50-60-cı illərində İranda yüksək təbəqədən olan qadınların ən mürəkkəb estetik əməliyyatlarla gözəlləşərək yaşını gizlətmək istəyini, əri olmasına baxmayaraq başqa kişilərin yatağına düşənləri, eyni cinsdən olanların seksual ilişkilərə dayalı gizlinlərini və bu kimi iyrəncliklərin baş verdiyi cəmiyyəti tənqid və ifşa edir. Belə ki, onun fahişəlikdə boğulmaq, əxlaqsızlıq yuvaları yaratmaq, Şah sarayı və amerikalılarla əlaqədə olmaq, İrandan qaçmağa təşəbbüs göstərmək kimi cinayətlərlə suçlandırılıb edam olunan qadın qəhrəmanı, rəfiqəsi Mahiyə: *"Sən şanslı qadınsan. Cangüdənlər mənim şirəmi çəkiblər. Səninkilərin hamısı isə zabit və şahın köməkçiləri olub..."* deyə küsənən qadın qəhrəmanı Eli *"altmış yaşlı qadın olmasına baxmayaraq, hələ də gözəl idi, bəlkə də yaşı ondan da çox idi... Ancaq hər yerini əməliyyat etdirmişdi. Gözlərinin və dodaqlarının ətrafını, buxağını, döşlərini, qarnını, yanlarını, bədəninin hər*

yerini açıb silikon doldurub tikmişdilər. Hər yeri otuz il cavanlaşmışdı. Döşünün hər birinə əlli min tümən xərc çəkmişdi..."

Şadanın generalı olduğu Şah ordusunun da içərisində mavilik-homoseksualizm, pozğunluq geniş yayılmışdı... Romandan sitat:

> *"Bəzən iki mavi zabit qərara gəlirdi ki, səfərə çıxsınlar, özləri ilə də tərcüməçi aparırdılar. Gündüz orduda, gecələri də bir-birinin qucağında yatırdılar. Tərcüməçi eşitmişdi ki, Amerika ordusunda mavilik (homoseksualizm) qadağandır. Amma elə bil qürbətdə o şeylər aradan götürülürdü. Bəzən də zabitlər şəhərlərin birində gördüyü qadınların ünvanını dostlarına verir, şəhərdə olan zaman xadimə, ya aşbazı komandanlıqdan o qadınların dalınca göndərirdilər..."*

Qurani-Kərimə, Xacə Hafizin "Divan"ına, Şeyx Səfinin məqbərəsinə və fəlsəfəsinə, tiryəkə, sevgi quşuna və pişiyə sevgisini keçmiş qadınınım - gözəlliyi ilə baxanın ağlını başından alan Mahnuşə Rahili-Mahinin dilindən verdiyi polkovnik Həbibullah Cəzayerinin bir Azərbaycan Türkü, eyni zamanda Şah ordusunun polkovniki kimi obrazını da yaradır, xarakterinin mənfi və müsbət yönlərini açır. O, Amerika zabitlərinin və hərbçi soydaşlarının gözləri qarşısında qürurunun sındırılmasına dözmür və zabit Krazlının qətlini şərəf məsələsi sayaraq tabeliyində olan 12 nəfər zabitlə həyata keçirir. Çünki bu amerikalı bəzən *"onun üzündə, vücudunda alçalmış bir tayfanın varlığını görürdü. O balaca gözlərdə, iri qara xallı üzdə bəzən kanadalı eskimos, bəzən də Amerikanın qərbindəki qızıldərili zühur edirdi. Bu geri qalmış çirkin öz bədəviliyi ilə Qərbi Amerikanın əzəmətli ağ dərililərini ləkələyirdi. Nəyə gərək ayrı millətlər, ayrı təbəqələr olsun. Polkovnikin qaraşınlığı meksikalıları onun yadına salırdı. Qırışmış, sarı üzü onu yarı qaradərili, yarı meksikalı kişilərə bənzədirdi. Və ya qızıldərili, yarı ispaniyalı ki, Manhetten adasından gəlib Nyu-Yorka səpilmiş ac dilənçilər idilər..."* - düşüncəsi ilə yanaşmasını bütünlükdə öz xalqına aid edir və fikrinə belə haqq qazandırır: *"Zabit Krazlı əcnəbi qurdun başını bədənindən ayırdığı o amerikalı zabitdən qat-qat pisdir. Yəqin ki, amerikalıların da içində yaxşıları var, amma biz gördüklərimizin çoxu Krazlı kimidir. Zabit Krazlı isə onların hamısından betərdir."*

İslam fəlsəfəsini, irfan elmini, "Qurani-Kərimi" bir düşünür-filosof mövqeyindən öyrənib içəriyini dərindən dərk edən Rza Bərahəni qələmi ilə ölkəsində dinçi fanatiklərin rəvac verdiyi dini savadsızlığın aradan qaldırılması üçün də savaşır, savadsızlığı cəhalətin kökü

sayır, xalqın bu zəifliyinə yenilməsini, düşmənlərinsə bundan istifadə edərək Vətənində meydan suladığından ürək ağrısı duyur:

> *"İnqilabdan əvvəl insanlar dini savadsızlığın nəticəsində cəhalətə gedirdilər. Güclü dövlətlər həmişə müsəlmanın bu zəif tərəflərindən istifadə edirlər. Qadınların hüquqsuzluğu, uşaqların, anaların haqlarının pozulması... Azərbaycanın indiki vəziyyətinin İranın şah zamanındakı vəziyyətinə bənzərliyi var..."*

Erməni qızının davranışları, erməni aşpazın:*"Dayımoğlu mexanikdir. Yazmışdı ki, gəl. Mən də getmək istəyirəm. İranda qalıb nə edəcəm? Ermənilər dərbədar olmuş bir millətdirlər. Bir hissəsi Beyruta gedir, bir hissəsi sovetlər ölkəsinə, bir hissəsi də Amerikaya. İranda qalıb nə edim?"* - sözlərinə əsasən, ermənilərin bir toplum kimi əsl simasını, xislətini açır, fırsatçı olduqlarını, yalnız öz xeyirlərini düşündüklərini göstərir....

Rza Bərahəni romanda Təbriz və Ərdəbili dünyanın ən gözəl şəhərləri, insanlarını yadellilərə boyun əyməyən, mərd, qeyrətli, öz yurdunu canı qədər sevən xalqın yetirmələri kimi tanıdır. Hətta Quzey Azərbaycanın da yerləşdiyi Qafqazı belə yaratdığı amerikalı zabit obrazının dili ilə öz baxış bucağından sərgiləyir: *"Mən Qafqazlıyam. Bilirsən, bu sözün mənası nədir? Başdan-başa ağappaq ipək kimi..."* Eyni zamanda Mahnuşə-Mahi Rahilinin 1929-cu ildə çəkilmiş şəklinin arxasında yazılan: *"Mahi bir yaşında. 1929-cı il. Bakı şəhəri..."* sözləri ilə Qafqazı, Güney Azərbaycan və Quzey Azərbaycanı birləşdirir...

Təbriz'in qız və qadınlarının isə dünyanın ən gözəl, ən üstün qadını olduqlarını, hətta fahişəsinin belə, digər toplumların fahişələrindən daha ismətli, Amerikalı zabitlərin yatağına düşməyi özünə sığışdırmayan bir təəssübkeş olduqlarını anladır oxucusuna:

> "*Təbriz'də hər hansı bir gözəl qadına gürcü qadını deyirlər. Amma mən deyirəm ki, Təbriz qadını gürcü qadınlarndan da üstündür. Dünyanın ən gözəl qadınıdır. Ağ dərili, bal rənginə bənzər gözü, nisbətən uca boylu, bir qədər dolu, çevik, gülərüz, şirindil... Nə Tehranın bəzi qadınları kimi büzüşmüş, nə də Şirazın qadınları kimi qaraşın idilər..."*

Ümumən onun qadına, gender məsələsinə baxışı fərqlidi, düşüncələri özünəxasdı, qadına feodal münasibətin, barbarca yanaşmanın əleyhinədir və əsərlərində bu yöndə savaşdığı o qədər qabarıq duyulur ki... Ədib hətta kişilərin bu yöndə maariflənməsinin gərəkdiyini belə etiraf edir:

> *"Qadınların mənim şəxsi həyatımda xüsusi təsiri var. Düşünürəm ki, hər adamın nüvəsində bir qadın var. Dünyaya gəlmək, nəfəs almaq, dil açdığımız ilk kəlmələr, bütün bunlar anamızdan gəlir. Biz dünyaya gəldikdə qadın qoxusunu alırıq. "Lilit"ə gəlincə, o, Adəmə tabe olmayan və öz hüquqlarını bilən qadın olub və hüquqlarının tapdanmasına etiraz edib. Mən bu qadını təqdir edirəm. Ümumiyyətlə, qadına hər zaman zülm edilib. Gərəkdir ki, bu zülm aradan qalxsın. 55 ildir ki, feminizm barədə oxuyuram. İndi amerikalı feministlərlə dostluq edirəm. Bəzən feminizmi səhv başa düşürlər. Feministlər kişilərin zülmünə, qadınların "başına vurmalarına" qarşı çıxırlar... Təəssüf ki, biz heç vaxt qadının hüquqlarını tanımırıq. Amma bu belə olmamalıdır. Bunun da yeganə yolu kişiləri maarifləndirməkdir..."*

"Yurdumun sirləri"ndən yazarın əsl Türk kimliyi, ana dilinin-doğma Türkcənin, Təbriz'in təəssübünü çəkən yurddaş olduğu da aydın görünür:

> *"İngilis dilini xarici dil hesab edirdilər. Türk dili isə dil sayılmırdı. Bu biganə şəhərdə bəzən iki biganə bir-birinin tanışı çıxırdı. Və həyat öz çətinliyini və əziyyətini əldən verirdi..."* yaxud: *"Bir Təbriz Türkü başqa bir Təbriz Türkünü dünyanın o başında da olsa, tanıyar..."* və yaxud: *"Anası filan... Əgər sən sovet tərəfdarı deyilsənsə, niyə Türk təsniflərini öyrənmisən? Zabit (Cəlili-E.F.) dedi: Təsnif Türkcədir, yəni mənimdir, burda yaşayan adamlarındır. Əgər Türkcə təsnif casusluq, günahdırsa, 5-ci və 6-cı kolonun dəlilidirsə, onda Azərbaycan xalqının hamısını tutub öldürün, çünki Türkcə oxuyurlar..."*

Rza Bərahəni şəhidlik qonusunda son dərəcə həssas idi. Vətən, amal uğruna canından keçənləri insanlığın naxışı sayır, onları ən etkiləyici romantik dillə öyürdü. O, Şah ordusunun Ərdəbildəki diviziyasının əməllərində düzgün və sadiq, düşüncələri aydın 14 zabitinin

güllələnməsini də terror hadisəsi sayır, nakam hərbçiləri isə şəhid kimi əzizləyir:

> *"Onların şəhidlikləri ən mükəmməl, dünyanın ən yüksək şəhadətlərindən idi. Onlar kişi, qadın cinsinə bölünməyən mələklər idilər. Böyük quşlar kimi gözəl qanadlarını açıb günün qürub etdiyi qəmli vaxtında, səmanın intəhasız dərinliklərinə uçurdular. İranlı və amerikalı müstəntiqlər bu xəyali gözəl uçuşun qarşısında nə qədər alçaq və zəlil görsənirdilər. Edam zamanı yağış yağırdı və bu, sanki lənət yağışı (bəlkə də doğanın nakam canlara tökdüyü göz yaşları-E.F.) idi..."*

Bu ani, şıdırğı yağan yağış cəllad general Şadanı da təəccübləndirir: *"Bu nə yağışdır? Heç vaxt görməmişdim ki, Təbriz'də bu fəsildə belə bir yağış yağsın..."*

Əksər əsərlərində xalq yaradıcılığından motivlər, elementlər, təlmihlər, ana dilindən söz və ifadələr olduğu kimi, "Yurdumun sirləri" romanında da Rza Bərahəni "Rüstəm və Söhrab" dastanı, Həzrət Əlinin Hüseyn Mirzənin qarşısında zühuru və əmisinin evində şaqqalara ayrılaraq öllməsi, Qara Seyidin öngörmələri, Yusif peyğəmbər, Fironla Musanın nağılı, bir sıra xalq və aşıq mahnıları və s. kimi... folklordan, xalq təfəkküründən süzülüb dövrümüzədək gəlib çatmış folklor örnəklərindən, dini əfsanə və rəvayətlərdən, aşıq havalarından, xalq mahnılarından bədii amalına uyğun gəldiyi məqamlarda böyük ustalıqla istifadə edir və fikrini oxucuya daha tutarlı çatdırır. Təbriz şivəsinə məxsus danışıq dilindən olduğu kimi romanlarına gətidiryi söz və cümlələr, mahnı mətnləri isə Rza Bərahəni təhkiyəsinə ayrıca bir özəllik verir. Şah dövründə qələmə aldığı "Hakim və məhkum kültür" adlı məqaləsində yazdığı kimi:

> *"Bir sıra sözlər var ki, xalq özü yaradır. Məsələn, Təbriz'də minibusa – "qapdıqaçdı" deyirlər. Hələ də bu sözün qarşılığı nə Farsca, nə də Türkcə var. Bu, xalqın dilidir. Biz ondan yararlanırıq, ziyalılar, elm adamları bu kimi sözləri cilalayaraq ona elmi mahiyyət verirlər. Ziyalıların yaratdığı sözlər də xalq arasında yayılır. Ancaq xalqın yaratdığı daha tez qəbul edilir və yayılır..."*

Xalqın yaratdıqlarına, özünə və dilinə vurğun olan yazar "Yar bizə qonaq gələcək" şərqisini də romanda *"həsrətli, dərin xatirə ilə dolu bir*

Türk mahnısı" kimi qeyd edir və çayxanada gecələyən sürücülərin ana dilində zümzüməsindən bir bəndi örnək gətirir:

Piyalələr irəfdədədir,
Hər biri bir tərəfdədir,
Görməmişəm bir həftədir...
Yar bizə qonaq gələcək,
Bilmirəm haçan gələcək,
Söz verib sabah gələcək...

Öz məzhəb və ideologiyasını yaradan, dünyanın böyük peyğəmbərlərindən biri sayılan, *"illərlə qurdlarla birgə yaşayıb, onların dilini bilən, qurdların qoruduğu Zərdüşt"*, Şeyx Səfi kimi tarixi şəxsiyyətlərin, Həzrəti Əlinin, insanlığın yaranma fəlsəfəsini, Türk kimliyini İranda ona hakim olan, hüquqlarını əlindən alan digər xalqın öz dilində tanıtmaq missiyasını da çiyinlərinə götürdüyü aydın görünür.

"Bütün bəlalar cəhalətdən gələr", "Adam qonağa ihanət etməz", "Qurd qarın sultanıdı", "Eşqə gözlə məğlub olarsan. İnsanın gözü eşqin çeşməsidi", "İnqilabi ruh əbədi deyil, həmişə də o yuxarılarda qalmaz..." "Ruh öləndə, millət tikə-tikə olur, bir-biri ilə düşmən olur", "Böyük ölümlərin hamısı siyasi məqsədli olur" kimi fikirlərindən də Rza Bərahəni'nin bir filosof müdrikliyi ilə düşündüyü yansıyır...

Əsrin bəlası olan narkotik maddələrdən istifadənin gəncləri məhv etdiyini, ordunun içində belə yayılaraq zabitlərini də ağ ölümlə nəfəs-nəfəsə qoyduğunu yazan ədib zabit Biltimorun düşdüyü durumu təsvir etməklə, oxucuya narkotik bəlasından-ağ ölümdən uzaq ol, mesajını ötürür: *"Lənətlənmiş bu narkotik, bu amerikalı uşağın Vyetnamda atasını yandırıb. Bax, o gözəllikdə gənc nə hala düşüb?!"*

Rza Bərahəni "Yurdumun sirləri" romanının qəhrəmanı Hüseyn Tənzifinin anasının dili ilə xalqına, gənc soydaşlarına səslənir,



keçənlərdən dərs almağa, yol verilən yanlışlardan ibrət götürməyə və öz nəslinin yanlışlarını təkrar etməməyin yolunu göstərir:

> *"İbrət alın, siz Allah, bir yerdə, birlikdə qalın, bir-birinizə güzəşt edin, bir-birinizə əl qaldırmayın, əgər bir-birinizə əl qaldırsanız, düşməniniz yerlərində qalıb, dostlarınız düşmənlərinizə çevriləcək..."*

> *"İran ədəbi mühiti və siyasi-ictimai mühitinin əsiri, məhbusu olaraq qalmır. Ədəbiyyatda post-modernizm və dekonstruksionizm ilə zirvəni fəth edir. Zamanla ona, hətta farsca belə, dar və yetərsiz gəlir. Şeir haqqında zəbaniyyət və ya dilsəllik nəzəriyyəsində ona toxunur. Eyni şəkildə o toplumdakı o qavramlar, o tabular da ona çox dar gəlir. Ona görə, bir çox şeydə birinciliyin təməlini atır..."*

Güney xalqına uzun illər boyu yaşadılan müsibətlərin güzgüsüdü "Yurdumun sirləri", hakim kəsimlə məzlum kəsim arasındakı fərqin, yoxsulluqla zənginliyin yaratdığı paradoksallığın, məktəblərdə kasıb balalarının başına açılan dərdlərin, aclıq və çarəsizlikdən övladını satan ata-anaların, ağrılarla dolu həyat yaşamaqdan bütün varlığı hıçqıran insanların, siyası məhbuslara verilən sınırsız işgəncələrdən onların düşdüyü mənzərənin sözlə rəsmini çəkir Rza Bərahəni... İnanmayanlar bu sitatları bir daha oxusunlar:

> *"Şagirdlərin birindən ayaqyolunun yerini soruşanda bu həyəti göstərmişdi. Axtardım, nəhayət, tapdım. Təzəcə oturmuşdum ki, birdən üzümə möhkəm bir təpik dəydi. Elə ki, 2 metr o yana tullandım, ağzım cırıldı, dişlərimin ikisi sındı. Ağzımı açıb çığırmaq istəyəndə dişlərimin ikisi də qarnıma getdi. Başımı qaldırdım, 3 gün öncə otaqda gördüyüm yaraşıqlı kişini qarşımda gördüm. O, ucu şiş ayaqqabılarının ucu ilə böyrəklərimi, belimi təpikləyirdi..."*

> *"Leytenant Cəzayerinin dırnağını çəkmişdilər. Sonra Tehran SAVAK-ının iki məmurunun köməyi ilə bəzən türkcə nəğmə oxuyan zabitə çox ağır işğəncə vermişdilər. Qaynar su ilə arxasından imalə eləmişdilər. Hər yeri qanqrena olmuşdu..."*

> *"Təbriz'in soyuğunda geyinməyə heç vaxt paltom olmazdı. Məktəbdə də yoxsullara palto verməzdilər, həmişə burnumun suyu tökülər, ya da burnumun ucunda donub qalardı. Anam*

qayıdanda evdən apardığı yekə qazanı dolu gətirirdi. Dilənçilərə məxsus olan bu növ yemək müxtəlif məcunlarla dolu olurdu. Düyü, kabab, səbzi qovurma, düyü qızartması, qıyma, tər halva və ümumilikdə bu evlərin təndirində yapılan qar kimi ağ lavaş çörəkləri qarmaqarışıq halda qazana tökülürdü. Bu yeməklərin hər bir tikəsini anam süfrənin müxtəlif guşələrindən yığırdı. Fərqli qoxuları başımı gicəlləndirən, sərsəm edən bu yeməklər məni dəli edirdi. Aclıq çəkən bir qurdun iştahası. Anam özü yeməyini orada yeyirdi. Nənəmlə mən yeməyə hücum çəkirdik, tələsik, ata-anaları ləzzətli ovu qabağına atan pələng balaları kimi yeyirdik bunları... Süfrədən kənara çəkiləndə fil kimi kefli olurduq. O, başımı aldadan şəhvətli qoxularla dolu bu qarma-qarışıq yeməklər mənimlə Rasta küçəsinin tacir və əşraflarının həyatı arasında açılan balaca bir qapı idi. Fikirləşirdim ki, gör bunların hamısı hər gecə bu qədər yeyirlər. Ancaq onların da gözlərində aclıq var, nə qədər yeyirlərsə doymurlar...

Güney Azərbaycanın gənc şairi Elşən Böyükvənd romanları ilə dünya tənqidçi və yazarlarını heyrətləndirən Rza Bərahəni'nin təkcə doğulub böyüdüyü Təbriz'in və İranın deyil, çağdaş dünya ədəbiyyatının dev yazarı olduğunu, əsərlərində məhz Türk kimliyinin boy verdiyini, Güney türklərinin, xalqının tarixini, yaşadığı ağrı-acıları yazdığını dərk etməyən, onu bu yöndən anlamayanlara səslənir. Təbriz ləhcəsində yazılan və türkcə nəsrin bütün özəlliklərini daşıyan, ikinci Pəhləvi dövründə Əmirkəbir yayın evində basıldıqdan sonra bütünlüklə məhv edilən, yalnız bircə nüsxəsi yazıçının özündə qalan "Ayazın cəhənnəm günləri"ndə Səməd Behrənginin öldürülməsi mövzusunu da gündəmə gətirir:

"İntiqamüvi o quldurlardan alacam, intiqamüvi... Mahmudun dırnaxlarınnan eşiyə çəkəcam! Aş qulaxlarüvi, eşit Səməd! Mahmudun ürəyinin başında bir yer var ki, mənim qəməmin ucu üçün yaranıb. Mən bu qəməni birəlli vırmıyacam, ürəyinin başınnan iki əllə elə möhkəm nallıyacam ki, sinəsində ürəyi qırx yerə bölünsün, Səməd! Otuz ildi bu qəməni itildirəm. Dədəmin, dədəmin dədəsinin, dədələrimin, qərdəşlərimin intiqamını Mahmutdan alacam. Min ildi, Səməd! İki min ildi, hətta üş min ildi bu götverənlər, bu ana-bacıların s...dıxlarım, bizim boynumuza minib deyillə: "Hin eşşəyim bu yana, Hin eşşəyim o yana..." Ağızlar bağlıdi, zindanlar doludi. Hər ağzın bacasının qabağında da bir quldur, qurumsax, qəzzax durub

keşik çəkir. Kaş ölməyəydün Səməd, göreydün ki, mən bu qəməni nə üçün itiltmişəm. Baxdıxcan bu qəmiyə, özüm də qorxuram, Səməd!"

Əslində bu səslənişi Elşənin özümüzə, Türk kimliyimizə, Türk ruhuna sahib olan, ancaq zor gücü ilə yad dillərdə yazan insanlarımıza-yazarlarımıza yad baxışımıza qarşı etirazı da saymaq olar: "Helen Cixos Rza Bərahəni'nin əsərlərindəki Türklük içəriyini sezirsə, nədən bizim bir sıra yazarlarımız bunu sezmir, yaxud sezmək istəmirlər?.."

Bəlkə bu içəriyi sezməyə elə "*dönəmin aydınlarının yoluxmuş olduğu bir çox xəstəlik və zehniyyətdən uzaq, eyləmdə və söyləmdə bir dünya yurtdaşı olan, tabuların bir çoxunu sındıran və dünya çapında bir aydına çevrildiyi üçün hakim və status-kvoçu zehniyyət tərəfindən hər zaman kənarlaşdırılan"* Rza Bərahəni'nin dünyaca tanınan romanlarını oxumaqla başlayaq?!

Bəlkə elə Toğrul Atabayın da:*"Bərahəni'nin dəyəri bilinmədi təəssüf ki... O coğrafiyanın ədəbiyyatında və düşüncə dünyasında haqqı olan yerini ala bilmədi. O coğrafiyaya baxışı, siyasi tarixə baxışı və ya, "Maskunin Tarix" kimi əsərlərində olduğu kimi, sosial kültür üzrə gətirdiyi tənqidlərlə o dönəmin ötəsində və üstündə bir şəxsiyyət olduğu üçün yetərincə anlaşılmadı. Anlaşılmaq da istənilmədi bir çox yerdə. Bizim ictimaiyyət də, təəssüf ki, Bərahəni'ni mənimsəməyə və yiyələnməyə hazır deyildi..."* dəyərləndirməsindən ibrət götürüb bu böyük şair, yazıçı, publisist və ədəbi tənqidçini anlamağa, türk təfəkkürünə söykəli yaradıcılığını yayınlamağa, öyrənib yiyələnməyə start verək?!

Qaynaqlar

amerikaninsesi.org/a/kitab-iran/1813673.html

Aybəniz bəhmən qızı həsənova rza bərahəni yaradıcılığında onomastik vahidlər. Filologiya məsələləri, № 2, 2022.

ethnoglobus.azhttps://ethnoglobus.az › 139... "Azərbaycan İranın başıdır, baş gedəndə bədən də gedər...

https://azerbaijanpost.org/Images/gazeteler/pdf_haber_90f25e4c-05e8-474d-9fcf-3b600923d2bc.pdf;

https://ethnoglobus.az/1392-azrbaycan-rann-badr-ba-gednd-bdn-d-gedr-general-adan.html

https://literature.az/?page=339&newsId=119273&lang=aze

https://medeniyyet.az/page/news/319/Yaxin-ve-uzaq-adam.html?lang=az

https://www.facebook.com/esmira.fuad.9/?locale=da_DK

Səlim Babullaoğlu. "Yazmaq ləzzəti digər ləzzətlərin əvəzedicisidi" 525-ci qəzet.2011.9 aprel.s.26-

Esmira FUAD https://orcid.org/0000-0002-8794-608X

Prof. Dr.; Azerbaycan Bilimler Akademisi, Nizami Gencevi Edebiyat Enstitüsü

E-Posta: esmirafuad@mail.ru

Yazı Bilgisi:

Alındığı Tarih: 5 Kasım 2024

Yayına Kabul edildiği tarih: 25 Kasım 2024

E-yayın tarihi: 20 Ocak 2025

Çıktı sayfa sayısı: 24

Kaynak sayısı: 9

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 61-75
Telif Haqqı©Varlıq Dergisi

Erməni Qaynaqlarında Erməni-Türk Münasibətləri Kontekstində Ermənistan Dövlətinin Yaranması

• Prof. Dr. Qaffar Çakmaklı MEHDİYEV [1]

Xülasə: 2018-ci il mayın 28-də keçmiş Rəvan xanlığının Qacar-Çar müharibəsi (1747-1828) nəticəsində işğal olunmuş torpaqlarında Ermənistan Respublikası elan edilib. Osmanlı İmperiyası Ermənistanı tanıyan ilk dövlətlərdən biri olub. Osmanlı İmperiyası ilə Ermənistan arasında Sülh və Dostluq Müqaviləsi 1918-ci il iyunun 4-də Batumidə imzalanıb. Osmanlı İmperiyası Birinci Dünya Müharibəsində uduzaraq hərbi hissələrini Şərqi Anadolu'dan çıxarmaq məcburiyyətində qaldıqda Ermənistan'ın 9 min kvadrat kilometr ərazisi Sovet İttifaqı dövründə 29,7 min kvadrat kilometrə qədər genişləndirildi.

Türkiyə Cümhuriyyəti'nin qurulması ilə Türkiyə-Ermənistan münasibətləri fərqli bir ölçü aldı. Cümhuriyyət "öz ölkəsi və milləti ilə bölünməz bir bütöv" kimi "vahid" dövlət anlayışı qurmuş, müxtəlif inzibati bölgələr əvəzinə hər bir Türk vətəndaşının bərabərlik prinsipini hakim olmağa çalışmışdır.

Sovet İttifaqının dağılması ilə Ermənistan 1991-ci ildə müstəqilliyini elan etdi və Türkiyə Ermənistan'ı tanıyan ilk dövlətlər sırasında oldu. 1993-cü ilin yazında Ermənistan hərbi birləşmələri Azərbaycan'ın Kəlbəcər rayonunu işğal edəndə Türkiyə Ermənistan'ın taxıl daşıdığı hər iki sərhəd qapısını bağladı və Qarabağ münaqişəsi zonasında status-kvo dəyişmədikcə sərhədlərin açılmayacağı siyasətini nümayiş etdirdi.

Türkiyə və Ermənistan Azərbaycanın 2020-ci ildə 44 günlük Qarabağ Müharibəsində qazandığı qələbədən sonra münasibətlərini normallaşdırmaq və sərhədlərini açmaqla öz tarixlərində yeni bir yol keçmək mərhələsindədir.

Açar sözlər: Erməni Qaynaqları, Türkiyə-Ermənistan Münasibətləri, Azərbaycan, Türkiyə, Qarabağ.

---

[1] Erciyes Universiteti, Ədəbiyyat Fakültesi Erməni Dili və Ədəbiyyatı Öyrətim Üyəsi. E-poçt: qafar56@gmail.com; ORKİD: 0000-0001-7487-506X

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 61-75
Telif Haqqı©Varlıq Dergisi

Ermenice Kaynaklarda Ermeni-Türk İlişkileri Bağlamında Ermeni Devletinin Oluşumu

• Prof. Dr. Gaffar Çakmaklı MEHDİYEV[1]

Özet: 28 Mayıs 2018 tarihinde eski Revan hanlığının (1747-1828) Kacar-Çar Savaşı neticesinde işgal edilen arazilerinde Ermenistan Cumhuriyeti ilan edildi. Osmanlı İmparatorluğu Ermenistan'ı tanıyan ilk devletlerden biri oldu. Osmanlı İmparatorluğu ile Ermenistan arasındaki Barış ve Dostluk Antlaşması 4 Haziran 1918 günü Batum'da imzalandı. Osmanlı Devleti, Birinci Dünya Savaşı'nda kaybedip Doğu Anadolu'daki askerî birliklerini geri çekmek durumunda kalınca 9 bin kilometre kare olan Ermenistan`ın arazisi Sovyetler Birliği döneminde genişletirilerek 29,7 bin kilometre kareye çıkarıldı.

Türkiye Cumhuriyeti'nin kuruluşuyla birlikte Türk-Ermeni ilişkileri, farklı bir boyut kazandı. Cumhuriyet, "ülkesi ve milletiyle bölünmez bir bütün" olarak "üniter" bir devlet anlayışı kurmuş ve farklı yönetim bölgelerinin yerine her Türk vatandaşının eşitliği prensibini hâkim kılmaya çalıştı.

Sovyetler Birliği'nin dağılması ile Ermenistan 1991'de bağımsızlığını ilan ederken yine Türkiye, Ermenistan'ı tanıyan ilk devletler arasındaydı. 1993'ün baharında Ermeni askerî güçleri Azerbaycan'ın Kelbecer bölgesini işgal ettiğinde Türkiye, Ermenistan'ın tahıl nakliyatını yaptığı iki sınır kapısını da kapayarak, Karabağ'daki çatışma alanında statüko değişmediği müddetçe sınırlar açılmayacak siyaseti sergilendi.

Türkiye ve Ermenistan, 2020`de 44 gün süren Karabağ Savaşı'nın, Azerbaycanın zaferinin ardından ilişkilerini normalleştirme ve sınırlarını açma sürecine girerek tarihinde yeni bir yol izleme aşamasındalar.

Anahtar sözcükler: Ermenice Kaynaklar, Türk-Ermeni İlişkileri, Azerbaycan Cumhuriyeti, Türkiye Cumhuriyeti, Karabağ.

[1] Erciyes Üniversitesi, Edebiyat Fakültesi Ermeni Dili ve Edebiyatı Öğretim Üyesi.
E-posta: qafar56@gmail.com; ORCİD: 0000-0001-7487-506X

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 61-75
Telif Haqqı©Varlıq Dergisi

The Formation of the Armenian State in the Context of Armenian-Turkish Relations in Armenian Sources

Prof. Dr. Gaffar Çakmakli MEHDİYEV[1]

Abstract: On May 28, 2018, the Republic of Armenia was declared in the lands occupied as a result of the Qajar-Tsarist War of the former Revan Khanate (1747-1828). The Ottoman Empire was one of the first states to recognize Armenia. The Peace and Friendship Treaty between the Ottoman Empire and Armenia was signed in Batumi on June 4, 1918. When the Ottoman Empire lost in the First World War and had to withdraw its military units from Eastern Anatolia, the territory of Armenia, which was 9 thousand square kilometers, was expanded to 29.7 thousand square kilometers during the Soviet Union period.

Turkish-Armenian relations gained a different dimension with the establishment of the Republic of Turkey. The Republic established a "unitary" state understanding as "an indivisible whole with its country and nation" and tried to make the principle of equality of every Turkish citizen prevail instead of different administrative regions.

With the collapse of the Soviet Union, Armenia declared its independence in 1991, and Turkey was again among the first states to recognize Armenia. When Armenian military forces occupied the Kelbajar region of Azerbaijan in the spring of 1993, Turkey closed both of the border gates through which Armenia transported grain, demonstrating a policy that the borders would not be opened unless the status quo changed in the conflict area in Karabakh. Turkey and Armenia are in the process of normalizing their relations and opening their borders following Azerbaijan's victory in the 44-day Karabakh War in 2020, and are now on a new path in their history.

Key words: Armenian Sources, Turkish-Armenian Relations, Republic of Azerbaijan, Republic of Türkiye, Karabakh.

[1]Erciyes University, Faculty of Letters, Armenian Language and Literature Professor.
Email: qafar56@gmail.com; ORCID: 0000-0001-7487-506X

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 61-75
Telif Haqqı©Varlıq Dergisi

تشکیل دولت ارمنی در چارچوب روابط ارمنی-ترکی بر اساس منابع ارمنی

● **پروفسور دکتر غفار چاقماقلی مهدی‌یف**[۱]

خلاصه: در ۲۸ مه ۲۰۱۸، در خانات روان سابق، سرزمین‌های اشغال شده در نتیجه جنگ قاجار- تزار (۱۷۴۷-۱۸۲۸) جمهوری ارمنستان اعلام شد. امپراتوری عثمانی یکی از اولین کشورهایی بود که ارمنستان را به رسمیت شناخت. پیمان صلح و دوستی بین امپراتوری عثمانی و ارمنستان در ۴ ژوئن ۱۹۱۸ در باتومی امضا شد. هنگامی که امپراتوری عثمانی در جنگ جهانی اول شکست خورد و مجبور شد واحدهای نظامی خود را از آناتولی شرقی خارج کند، قلمرو ارمنستان که ۹ هزار کیلومتر مربع بود، در دوره اتحاد جماهیر شوروی به ۲۹.۷ هزار کیلومتر مربع افزایش یافت.

با تأسیس جمهوری ترکیه، روابط ترکیه و ارمنستان ابعاد متفاوتی پیدا کرد. جمهوری ترکیه بر اساس اصل "تجزیه‌ناپذیر بودن کشور و ملت"، سعی کرد اصل برابری هر شهروند ترکیه را به جای مناطق مختلف اداری حاکم کند.

با فروپاشی اتحاد جماهیر شوروی، ارمنستان در سال ۱۹۹۱ استقلال خود را اعلام کرد و ترکیه جزو اولین کشورهایی بود که ارمنستان را به رسمیت شناخت. هنگامی که نیروهای نظامی ارمنستان منطقه کلبجر آذربایجان را در بهار ۱۹۹۳ اشغال کردند، ترکیه هر دو دروازه مرزی را که ارمنستان غله را از طریق آن‌ها حمل می کرد، بست و این سیاست نشان داد که مرزها باز نمی‌شوند مگر اینکه وضعیت موجود در منطقه درگیری قره‌باغ تغییر کند.

ترکیه و ارمنستان پس از پیروزی آذربایجان در جنگ ۴۴ روزه قره‌باغ در سال ۲۰۲۰ با عادی‌سازی روابط و باز کردن مرزهای خود در مرحله پیمودن مسیر جدیدی در تاریخ خود هستند.

کلیدواژه: منابع ارمنی، روابط ترکیه و ارمنستان، آذربایجان، ترکیه، قره باغ.

---

[۱] عضو هیئت علمی دانشگاه ارجیس، گروه زبان و ادبیات ارمنی.
ایمیل: qafar56@gmail.com، اورسید: 0000-0001-7487-506X

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 61-75
Telif Haqqı©Varlıq Dergisi

Giriş

28 Mayıs 2018 tarihinde eski Revan hanlığının (1747-1828) Kacar-Rusya Savaşı neticesinde işgal edilen arazilerinde Ermenistan Cumhuriyeti ilan edildi. Osmanlı İmparatorluğu Ermenistan'ı tanıyan ilk devletlerden biri oldu. Osmanlı İmparatorluğu ile Ermenistan arasındaki Barış ve Dostluk Antlaşması 4 Haziran 1918 günü Batum'da imzalandı. Osmanlı İmparatorluğu-Ermenistan sınırı 4 Haziran 1918 Batum Antlaşması ile çizildi. Bir ay içerisinde İstanbul'da onaylanması beklenen bu antlaşma çeşitli siyasi nedenlerden gündeme taşınmadı. Batum Antlaşması'yla çizilen sınır ise birkaç ay sonra Ermenistan lehine değiştirildi, çünkü Osmanlı İmparatorluğu Birinci Dünya Savaşı'nda kaybedip Doğu Anadolu'daki askerî birliklerini geri çekmişti. Daha önce 9 bin kilometre kare olan Ermenistan`ın arazisi Sovyetler Birliği döneminde genişletirilerek 29,7 bin kilometre kareye çıkarıldı.

Türkiye Cumhuriyeti'nin kuruluşuyla birlikte Türk-Ermeni ilişkileri farklı bir boyut kazanmıştır. Cumhuriyet, "ülkesi ve milletiyle bölünmez bir bütün" olarak "üniter" bir devlet anlayışı kurmuş ve farklı yönetim bölgelerinin yerine her Türk vatandaşının eşitliği prensibini hâkim kılmaya çalışmıştır. Bu dönem Türk-Ermeni ilişkileri değerlendirilirken bu perspektif üzerinde ele almak gerekmektedir.

Yukarıda belirtildiği gibi, Osmanlı İmparatorluğu, Ermenistan Cumhuriyeti'ni tanıyan ilk devletlerden olup onunla Barış ve Dostluk Antlaşması imzalamıştır. 26 Mayıs 1918'de Tiflis'te son kez bir araya gelen Transkafkasya Parlamentosu'nun toplantısında Gürcistan Menşeviklerinin Demokratik Federal Transkafkasya Cumhuriyeti'nin feshedilmesi önerisi kabul edildi. Aynı günün akşamında Gürcistan Ulusal Meclisi, Gürcistan'ın bağımsızlığını ilan etti. 27 Mayıs'ı 28 Mayıs`a bağlayan gece Tiflis'teki Müslüman Millî Meclisi Azerbaycan'ın bağımsızlığını ilan etti.

Tiflis'teki Ermeni Ulusal Meclisi Gürcülerin 26 Mayıs'taki bağımsızlık ilanını kınadı. 26 Mayıs'taki oturumda Ermeni Sosyal Demokratlar

Ermenistan'ın bağımsızlığını güçlü bir şekilde desteklerken, Ermeni Devrimci Federasyonu'ndan (EDF-Taşnaksutyun) Avedis Aharonyan, Ruben Ter-Minasyan ve Artaşes Babalyan, Sosyalist Devrimciler ve bağımsız vekillller buna güçlü bir şekilde karşı çıktılar. Simon Vratsyan ve Haçatur Karcikyan önderliğindeki EDF'den bazı isimler bağımsızlığı destekliediler, çünkü onlar başka bir çıkış yolunun olmadığı düşüncesindeydiler. Batum'da Türklerle müzakere yapan Transkafkasya delegasyonu terkibinde olan EDF temsilcileri Hovhannes Kaçaznuni ve Aleksandr Hatisyan da bağımsızlığın en kuvvetli destekçileri arasındaydılar.

Ertesi gün 27 Mayıs'ta Batum'dan dönen Kaçaznuni, Hatisyan ve Ermenistan Halk Partisi'nden olan Mihael Papacanyan, müzakerelerle ve Gürcistan'ın attığı adım neticesinde oluşan durumla ilgili detaylı bir rapor hazırladılar.

28 Mayıs günü Tiflis'teki Ermeni Ulusal Meclisi Kaçaznuni, Hatisyan ve Papacanyan'ı bir kez daha Batum'a gönderdi, fakat bu sefer Osmanlı İmparatorluğu'yla müzakere edip barış antlaşması yapmak üzere tam yetkili bir Ermeni delegasyonu olarak.

EDF'nin Doğu ve Batı ofisleri ile EDF Merkez Komitesi, parlamentonun ve Ulusal Meclis'in EDF'ye bağlı partileri 29 ve 30 Mayıs'ta toplanarak, Tiflis'teki Ermeni Ulusal Meclisi'ne içinde "bağımsızlık" ve "cumhuriyet" kelimelerinin geçmediği bir bildiri yayınladılar.

Bolşevik Stepan Şaumyan ile işbirliği yapan Bakü Devrimci Komitesi, Tiflis'teki Ermeni Ulusal Meclisi'nin kararının aleyhine çıkarak, bu kararı Ermeni ulusunun iradesine karşı olan bir harekat olarak değerlendirdi.

Sosyal Demokrat Hınçak Partisi ve Ermeni Bolşeviklerden de 30 Mayıs günü karşı bir açıklama geldi. Bolşeviklerin duruşu belliydi, onların görüşüne göre Ermeni ulusu Rusya ve Rus Bolşevikler olmadan hayatta kalamazdı. Hınçak Partisi'nin Transkafkasya merkez ofisi bağımsızlık bildirisini kınayarak, bunun meşru olmadığına kanaat getirdi.

Bağımsızlığa karşı olan sosyalist devrimcilerle, çekimser kalanlar ve EDF'nun bir kısmı Türklerin Ermenistan'ın büyük bölümünü aldığını ve Rusya'dan ayrılmanın büyük bir endişeye neden olduğunu düşündüler. Bunun dışında, Rusya'dan ayrılıp bağımsızlık ilan etme

gerekliliği de Türklerin kendisi tarafından ortaya atılan bir gerçek olarak dikkate alındı.

Simon Vratsyan'ın iddia ettiği üzere, Tiflis'teki Ermeni Ulusal Meclisi Ermenistan'ın bağımsızlığını ilan etmek durumunda kaldı, "çünkü o aşamada bağımsızlık herkes tarafından berbat bir olasılık ve Ermeni ulusunu Türklerin boyunduruğuna sokacak bir tehdit olarak değerlendiriliyordu" (Vratsyan, 1955).

Vratsyan, "1918 Mayıs ayında Türkler Erivan'ı ve tüm Ermenistan'ı ele geçirmiş olabilirlerdi ama yapmadılar. Tersine 4 Haziran'da Batum'da yeni kurulan Ermenistan hükûmetinin temsilcileriyle Barış ve Dostluk Antlaşması imzalayarak, esasında Ermenistan'ın bağımsızlığını tanımış oldular" diye yazıyor.

Tiflis'teki Ermeni Ulusal Meclisi, tam da 28 Mayıs günü Ermenistan adına Osmanlı İmparatorluğu'yla müzakere etmek için Batum'a yeni bir delegasyon göndermiş oldu.

Eylül 1918'de Enver Paşa'nın katılımıyla Sultan'la yapılan toplantıda İstanbul'daki Ermeni delegasyonunun başkanı Avedis Aharonyan şunları söylüyordu: "Ermeni ulusu ve Ermenistan Cumhuriyeti, bağımsızlıklarını büyük ölçüde Osmanlı İmparatorluğu'nun iyi niyetine borçlu olduğunu asla unutmayacak" (Aharonyan, 1926).

1918'deki iç isyan ve kargaşaya rağmen Haziran-Kasım aylarında hükûmet varlığını sürdürdü. Birçok kişi Türklerle yapılan Batum Anlaşması'nı lanetledi ve onu ihanet olarak gördü, ancak kamuoyunun aksine, ilk Başbakan Kaçaznuni, Ermenistan'ın anlaşmanın hükümlerine uyması ve Osmanlı hükûmetiyle devletlerarası ilişkileri sürdürmesinin gerektiğine inanıyordu.

1 Ağustos'ta, yeni kurulan cumhuriyetin yasama organı olan Ermenistan Ulusal Meclisi'nin ilk oturumu Erivan Şehir Kulübü'nün salonunda açıldı. Almanya, Avusturya-Macaristan, Osmanlı devletlerinin temsilcileri de Meclis'in bu oturumuna katıldılar. Vratsyan'ın yazdığına göre, derin bir sessizlik içinde sahneye çıkan Kaçaznuni Ermenice açılış konuşmasını yaptı, konuşması Rusça ve Türkçeye çevriliyordu.

Ermenistan Meclisi'nin 3 Ağustos'taki ikinci oturumunda Kaçaznuni hükûmetin açıklamasını okudu: "Osmanlı hükûmetiyle uzlaşmayı güçlendireceğiz, onunla iyi komşuluk ilişkileri kuracağız. Osmanlı

Devletine karşı üstlendiğimiz tüm sorumlulukları titizlikle yerine getireceğiz ve Osmanlı hükûmetini de bizim için aynısını yapmaya çağırıyoruz. Özellikle Osmanlı birliklerinin ülkemizden çekilmesi, mültecilerin dönüşü sorununu çözmek için faaliyetimizi arttıracağız."

1919 Ocak ayında Paris'te yapılacak Barış Zirvesi arifesinde, Kaçaznuni mütevazı sınırlarla yetindi ve Ermenistan`ın denize erişiminin olmamasını da kabul etti. Demokratlar, sert çıkışlarıyla "denizden denize Ermenistan" fikrinde ısrar ettiler, onlar Trabzon ve Aleksandret (İskenderun) limanlarına çıkışlı Ermenistan istiyorlardı. EDF üyeleri arasında "Denizden denize Ermenistan" arzusunu dile getiren çok sayıda destekçi vardı, ancak bunların çoğu sadece Karadeniz'e erişim noktasında durdular.

İktidardaki EDF-Taşnaksütyun Partisi'nde Türklerin Ermenistan'ın bağımsızlığını yok edebileceğini söyleyen kişiler de vardı. Artaşes Babalyan'a göre, Türklerin ana kuvvetlerinin askerî operasyonları Bakü'ye yönelikti, bu da küçük ve zayıf Ermenistan'ın 1918'e kadar rahat kalmasının bir nedeniydi. Bu, 30 Ekim 1918'e kadar devam etti. Osmanlı İmparatorluğu'nun I. Dünya Savaşı'nda yenildiğinin ilanından sonra Ermeniler için ateşkes imkânı oluştu. O aylarda, "esas rolü" Aram Manukyan üstlendi. O İçişleri, Vesayet ve Ziraat meselelerinden sorumluydu. Osmanlı İmparatorluğu'nun temsilcisi Mehmet Ali Paşa ile ilişki kurmak da ona havale edilmişti. Eylül'de Bakü'nün düşmesinden (Ermenilerden temizlenmesinden) sonra Türkler serbest harekat düzenleyerek ve Ermenistan cumhuriyetini beşikdece boğabilirlerdi, (yani yeni doğmuş oluşmuş ülkeyi bitirebilme öldürebilme durumu) Ermeni halkının varlığına son verebilirlerdi, ancak Suriye ve Filistin'de alabilecekleri darbelerden endişe duyuyorlardı. Her hâlükârda Türk hükûmetinde Ermenistan'a ehemmiyet vermediler, belki de onun varlığını bağımsız olarak sürdürmesini istediler.

Kısa bir süre sonra Osmanlı İmparatorluğu, Erivan'da bugünkü Saharov Meydanı'ndaki bir binada elçilik, Gümrü'de de konsolosluk açtı. 1920'de Ermenistan'ın sovyetleşmesine rağmen Türkler Erivan'daki elçiliği Ekim 1923'e, Gümrü'deki konsolosluğu da 1925'e kadar tutmaya devam ettiler.

Karşılığında Ermenistan da İstanbul'daki diplomatik temsilciliğini korudu. 1918 sonbaharında Osmanlı İmparatorluğu Birinci Dünya Savaşı'nda kaybedene kadar Erivan ve İstanbul normal ilişkilerini

sürdürüyorlardı. Hatta söylenebilir ki, yeni bağımsızlığını kazanmış Ermenistan, Gürcistan ve Azerbaycan, Osmanlı İmparatorluğu, Almanya, Avusturya-Macaristan ve Bulgaristan'dan oluşan dörtlü ittifakın en genç üyeleriydi.

Bağımsızlığın ilk aylarında Ermenistan yardım için sıklıkla Türklere müracaat etmiştir. Halil Paşa, Ağustos 1918'de Tiflis'ten Erivan'a vardığında, Başbakan Hovhannes Kaçaznuni tarafından İçişleri Bakanı Aram Manukyan'ın malikanesinde ağırlanmıştı. Halil Paşa'yı Van'dan tanıyan Aram, kendisinin desteğiyle açlık çeken Ermenistan halkı için imparatorluktan tahıl getirmeyi başarmıştı. Tüm Ermenilerin Katolikosu Halil beyi Kutsal Eçmiyadzin'deki makamında kabul etmişti.

Aynı yılın Eylül ayında İstanbul'daki Ermeni delegasyonu kara yoluyla girerek, Enver ve Talat Paşa ile bir araya gelmiş, Talat'ın iknası ve baskısıyla Azerbaycan'dan Ermenistan için yakıt ve tahıl almayı denemişti. Ayrıca Talat Paşa Azerbaycan`dan Ermenistan`a buğday ve un yardımı için talimat vermişti

Ermeni-Türk temasları Türkiye Cumhuriyeti kurulduktan sonar da devam etmiştir. Ancak, 1920 sonbaharında Kazım Karabekir Paşa komutanlığındaki Türk birlikleri, Kars bölgesini ve ardından da bugünkü Gümrü'yü birkaç hafta içinde ele geçirmişti.

2 ve 3 Aralık 1920'de, Ermenistan yeni sovyetleşmişken, Gümrü Antlaşması Aleksandr Hatisyan ve Kazım Karabekir Paşa tarafından imzalanmıştı. Bugünkü Ermenistan-Türkiye sınırını belirleyen Kars Antlaşması ise Ekim 1921'de imzalandı ve bir sene sonra da onaylandı.

Eylül 1918'de Enver Paşa'nın katılımıyla Sultan'la yapılan toplantıda İstanbul'a sefer eden Ermeni delegasyonunun başkanı Avedis Aharonyan şunları söylemekteydi: "Ermeni ulusu ve Ermenistan Cumhuriyeti, bağımsızlıklarını büyük ölçüde Osmanlı İmparatorluğu'nun iyi niyetine borçlu olduğunu asla unutmayacak."

1918 yılının Eylül ayında İstanbul'daki Ermeni delegasyonu deniz ve kara yoluyla giderek, Enver ve Talat Paşa ile bir araya gelmiş, sınırlarını genişletmeye çalışmış, Talat'ın iknası ve baskısıyla Azerbaycan'dan Ermenistan için yakıt ve tahıl almayı denemişti. Ayrıca Talat Paşa Azerbaycan`dan Ermenistan`a buğday ve un

yardımı için talimat vermişti. Bunlar dönemin Ermenice basınında yer almıştır.

Araştırmacı-yazar Astvatsatur (Asatur) Haçatryan'ın Ermeni halkı için kader niteliği taşıdığını ifade ettiği 1918 Trabzon, Batum ve Konstantinopolis temasları ile ilgili günlüğü vardır. Onun izlenimleri şöyledir:

"...Hatisyan, Nasim Bey'den Osmanlı hükûmetinin Nuri Paşa aracılığıyla Azerbaycan'a baskı yapılmasını ve Azerbaycan'dan Ermenistan'a un verilmesini rica etti.

16 Eylül'de Aleksandr Hatisyan, Ermenistan'daki durum hakkında rapor sunmak ve çözümünü beklediğimiz bir dizi konuları gündeme getirmek için Osmanlı İmparatorluğu Dışişleri Bakanı Nesim Bey'e gitti.

Dr. [Artaşes] Babalyan'ın raporundan öğrendik ki, O [Hatisyan], özellikle askerî birliklerin güvenli bir şekilde transferini, Andranik'in
70 grubunun iptal edilmesini gösteren mevcut durumu ayrıntılı olarak hazırlamıştı.

Sonra [Hatisyan] Ermenistan'daki gıda durumunu anlatmış ve Osmanlı hükûmetinden Nuri Paşa aracılığıyla Azerbaycan hükümetini etkilemesini ve hükümetimize biraz un vermesini istemişti. Son konu ile ilgili olarak Nesim Bey, Enver Paşa ile konuşması gerektiğini, tüm sorunları kendisinin bildiğini ve dikkate alınacağını söylemişti. Bakan [Nasim Bey] daha sonra, Ermenistan'ın bağımsızlığı fikrinin sadece hükûmet çevrelerinde değil, Türk kamuoyunda da şimdiden geçtiğini söylemişti. [Nesim Bey] Talat'ın 7-8 gün içinde döneceğini, işlerinin iyi gitmediğini, ancak döndükten sonra konularla ilgili müzakerelerimize devam etmenin mümkün olacağını söylemişti.

Erivan'ın fethedilmesi ile ilgili söylentilere gelince, onlarda böyle bir düşüncenin olmadığını söylemişti. Türkiye her zaman Ermenistan'ın bağımsızlığına saygı duyacaktır, demişti.

Ayrıca Almanya, Avusturya-Macaristan, Osmanlı İmparatorluğu ve Bulgaristan'ın katılımıyla 25 Haziran'da Konstantinopolis'te bir konferans başlayacaktı. Eski Transkafkasya cumhuriyetleri de bu konferansa davet edilmişti. Ermeni tarafı, Almanya2nın Brest-Litovsk Antlaşması doğrultusunda Batum Antlaşması'na yeniden bakılmasını bekliyordu. Ermenistan`ın Konstantinopolis

delegasyonuna Ermenistan Cumhuriyeti'nin sınırlarını genişletmek için her türlü çabayı gösterme talimatı verilmişti. Onlar 1 Kasım'a kadar dört aydan fazla Konstantinopolis'te kaldılar. Hatisyan'ın deyimiyle, "Kafkas komşularımızın iddia ettikleri Ahalkalaki, Lori, Zengezur, Karabağ, Nahçıvan toprakları üzerindeki haklarımızı" savunmaya çalıştık" (Haçatryan, 2010).

Ermenistan Birinci Cumhuriyeti Başbakanı ve Dışişleri Bakanı Aleksandr Hatisyan "Ermenistan Cumhuriyeti"nin Doğuşu ve Gelişimi" adlı eserinde önemli ve şimdiye kadar bilinmeyen bazı konuları dile getirmiştir. Bir parçayı sunuyoruz:

۲۰۱۴-جو ایلده دوکتور جواد هیئت‌ین وفاتیندان سونرا درگینی آنکارادا نشر ائتمه‌یه باشلادیم. *وارلیق* بو گونه قدر ده منتظم اولاراق چیخیر. 100

۲۰۱۶-جی ایلده دوستلارلا بیرلیکده آنکارادا «تبریز آراشدیرمالاری مرکزی»نی قوردوم. بو مرکزده تورک دونیاسی، اؤزللیکله‌ده گونئی آذربایجان‌لا باغلی علمی آراشدیرمالار آپاریلیر. چالیشیرام کی، نه قدر عؤمروم وار، علمی فعالیتیمی، آختاریشلاریمی تورکچولوک-آذربایجانچیلیق ایدئولوژیسینه، مفکوره‌سینه حصر ائدیم.

حاضیردا آنکارا اونیورسیته‌سینده اوستاد اولاراق ایشله‌ییرم. دیلیمیز و ادبیاتیمیزلا باغلی ۴ کیتابیم، اونلارجا مقاله‌م چئشیدلی علمی مجموعه‌لرده نشر اولونوب.

هم‌صحبتیم بیرنفسه دانیشیر، بیز ده اونو نفس درمه‌دن دینله‌ییردیک. سونرا قاراباغا سفری زامانی یاشادیغی حیس و هیجانلاری باره‌ده سؤز آچاراق دئدی:

– قاراباغ ایشغال آلتیندا اولاندا بیز ده ایچین-ایچین آغلاییر، آما بیر آن دا اولسون، اومودوموزو اوزموردوک. اینانیردیق کی، حاق گئج-تئز اؤز یئرینی تاپاجاق. بیر خاطیره‌نی‌ده دقتینیزه چاتدیرماق ایسته‌ییرم. او ایللرده جواد هیئت *وارلیق* درگیسینده خالقیمیزین باشینا گتیریلن مصیبتلردن دایانمادان یازیردی. دئییردی: «بو آجییا دؤزمک اولمور، اوغول! عؤمروموزه بالتا ووروللدو. آغاجلاریمیز کسیلدی، سولاریمیز قورودولدو. تاریخ بئله نامرد، باش‌کسن قونشو گؤرمه‌ییب. اورک بو درده نئجه دؤزسون، آی بالا؟»

«وارلیق»-ا چؤکن بو نیسگیلی کاغیذ، قلم چکه بیلمیردی، جواد هیئت‌ین یازدیقلاری‌نین اوّلی ده، سونو دا قاراباغ آغریسی‌نین، حسرتی‌نین یانغیسی ایدی. منه وصیت ائتمیشدی کی، اگر قاراباغی گؤرمه‌دن اؤلسه، غلبه خبرینی اونون مزاری باشینا گلیب سسلندیریم. باخ، اوندا روحو راحت اولاجاق! من اونون وصیتینه عمل ائتدیم، ایکینجی فخری خیابانا گئدیب اونونلا اورک-کونول صحبتی ائتدیم: «ظفرین موبارک، وطن! ۳۰ ایللیک قایساقلانمیش یارالارینا قوربان اولوم، آذربایجان! بوندان سونرا یاشاماق نه گؤزلدیر؟! عزیز جواد هیئت، بختیار و نورالدین عمی، منیم معنوی معلیملریم، روحونوزون ایشیغیندا بیر عؤمور یاشاماغا دیه‌ر!»

بو دفعه شوشایا ۳-جو، خانکندی‌نه ایسه ایلک دفعه ایدی کی، گئدیردیم. شوشایا هر گئدیشیمده بو قدیم شهرین نئجه سرعتله گؤزللشدیگینی گؤردوکجه قلبیم داغا دؤنوردو، سئوینجیمدن تانرییا شوکورلر ائدیب دئییردیم: سنین اوچون اؤلمک بئله گؤزلمیش، وطن! بوتون عؤمروموز بویو سیزه بورجلویوق، شهیدلر!

بو تورپاقلاردا یاشانان آغریلارا باخمایاراق، حیاتین یئنیدن جانلاندیغینی گؤرمک منی حدسیز تأثیرلندیردی. یول قیدلریمی قلمه آلماغا باشلادیم. آچیغینی دئییم کی، بعضا ائله حیسلر اولور کی، سؤزله ایفاده ائتمه‌یه چتینلیک چکیرم. اعتیراف ائدیرم کی، زامانلا اوز-اوزه دایانماق اؤزو بئله، سؤزون بؤیوک معناسیندا، جسارتدیر!

جواد هیئت دئییردی کی، هر قارانلیغین سونوندا بیر ایشیق وار، اوغول. هئچ واخت روحدان دوشمه! بلی، حاقّین بئلی اگیلمه‌دی. خانکندی‌نده آذربایجان بایراغی‌نین غرورلا دالغالانماسینی گؤرمک منی دریندن تأثیرلندیردی.

قاراباغدا هر آددیمدا انسانین ایچینده یئنی اومودلار جوجریر. اعتیراف ائدیرم کی، بو، اومود منی، ایلک نؤبه‌ده، ایچیمده‌کی بیر حسرتین ده سونو اولاجاغینا اینانديریر. آنا یوردوم تبریزله باغلی بو حسرتی ۱۷ ایلدیر کی، ایچیمده یاشادیرام. اینانین کی، خانکندی‌نی دولاشارکن ایچیمده بؤیوک بیر اومود دوغدو. هر آیریلیغین سونوندا بیر قووشما مطلقدیر! بو زامانین حؤکمودور.

خوجالی‌یا گئتدیم. بو شهرین فاجیعه‌سینی، قتل عامین فریادینی همیشه ایچیمده حیس ائتمیشم. *وارلیق* درگیسینده هارای قوپارمیشام. خوجالی‌نین عرشه قالخان فریادی قلبیمده سیلینمه‌ین بیر یارا اولاراق قالیب. او آغرینی ایللر بویو اورگیمده داشیدیم، قلمیم سوسمادی، قان آغلادی، بوتون دونیایا چاغیریش ائتدی: خوجالی ۲۰-جی عصرین شهید شهری‌دیر!

تاریخین تکری دؤندو. خوجالی‌دا پارک سالینمیشدی، اوشاقلار اورادا اویناییر، گلیب-گئده‌نه خوشبختلیک دویغولاری یاشادیردیلار. بو منظره‌دن ایچیم سئوینج و راحتلیقلا دولدو. او

اوشاقلارین گولوشلرینی ائشیدنده، فیکریمدن کئچدی: بو کؤرپه‌لرین خوشبخت چؤهره‌سی خوجالی‌نین یئنیدن دوغولوشونو تجسوم ائتدیریر. خوجالی یئنیدن حیاتا قاییدیب، اومود دولو گله‌جگه دوغرو آددیملاییر...



قاراباغ‌ین هر قاریشینی گزدیکجه سانکی بؤیوک جواد هیئت یادیگاری *وارلیق*‌دا یئنی بیر تاریخه شاهیدلیک ائدیردی: یاز، ای کؤنول، سنه وصف ائتمک یاراشیر. بلی، خالقین، غالیب اوردونون و قدرتلی رهبرین بیرلیگی‌نین سایه‌سینده قاراباغ ابدی اولاراق آزادلیغینا قووشدو.

سفریمیز یئکونلاشماق اوزره ایدی. یالنیز اؤزوم دئییل، معنوی آتام، اوستادیم، دوکتور جواد هیئت‌ین روحو اوچون ده راحاتلیق تاپدیم. بوتون سفر بویو اونونلا سانکی قوشا آددیم آتیردیم. جواد هیئت همیشه دئیردی: آذربایجان منیم جانیمدیر، نفسیمدیر! حئییف کی، عؤمور وفا ائتمه‌دی. قاراباغ‌ین آذربایجانا قووشماسینی گؤره‌بیلمه‌دی، آنجاق اینانیرام کی، اونون روحو منیمله قاراباغ‌ی گزدی و حضور تاپدی. بو سفرین هیجانیندان قورتولماق مومکون دئییل. ایچیمده بیر سس دئییر:

بو یول بیر گون تبریزه ده چاتار!

صحبتی قلمه آلدی: کماله عابدینووا - *خالق* قزئتی

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 103-115
Telif Haqqı©Varlıq Dergisi

Fəraqi Dönəmində Əfqanıstanlı Siyasi Şəxsiyyətlərin Yeri

• Ruzi Muhammed ÖMER [1]

Xülasə: Maxdumqulu Fəraqi'nin yaşadığı dönəm təxminən Nadir Qulu Əfşar'ın hakimiyyətinin sonu, Kərimxan Zənd və Qacarların meydana çıxması ilə üst-üstə düşür. Bu dönəmdə Türkmənlərin sosial, iqtisadi və siyasi durumu digər əsrlərdən öz mahiyyəti ilə fərqlənir. Bu əsrdə Türkmən yurdlarını Buxara Əmirliyi, Xivə Xanlığı və Nadir Şah Əfşar idarə edirdi. Bu dövrdə Türkmən poeziyasının əsas məzmununu vətənpərvərlik, qəhrəmanlıq kimi mövzular təşkil edirdi. Maxdumqulu Fəraqi'nin "Türmən başımız, dökər bolduq (olduq) yaşımız" şeiri bunun ən gözəl örnəklərindən biridir.

Fəraqi dönəmində Türkmən şair və yazıçıları toplumu azadlıq və istiqlaliyyətə səsləmiş, onların qayğı və duyğularını öz əsərlərində əks etdirmişlər. Çətin ömür sürən Türkmənlərin ağsaqqalları vaxtilə Əfqanıstan şahı Əhməd Şah Dərani ilə dəfələrlə görüşüb, dostluq ilişkilərini inkişaf etdirməyə çalışıblar. Bunun üzərinə Əhməd Şah Türkmən ağsaqqalları və sərkərdələri adından iki dostluq fərmanı göndərdi. Bu fərmanlarda çətin və ağır durumlarda bir-birini dəstəkləmək, dayanışma içində olmaq haqqında cümlələr də yer alırdı. Bu əməkdaşlıq və həmrəylik Maxdumqulu Fəraqi'nin şeirlərində də özünü göstərir.

Bu məqalədə dövrün siyasi xadimləri və münasibətləri, onların ədəbiyyatdakı yansımaları araşdırılmışdır.

Açar sözlər: Mahtumqulu Fəraqi, Əhməd Şah Abdali, Türkmən, Əfqanıstan.

---

[1] Əfqanıstan Elmlər Akademiyasının Türkmən Dili və Ədəbiyyatı şöbəsinin elmi üzvü.
E-poçt: rozi.omar21@gmail.com

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 103-115
Telif Haqqı©Varlıq Dergisi

Ferâgî Çağında Afganistanlı Siyasi Şahsiyetlerin Yeri

• Ruzi Muhammed ÖMER [1]

Özet: Mahtumkulu Feragî'nin yaşadığı dönem, aşağı yukarı Nadir Kulu Afşar iktidarının sonları, Kerimhan Zend ve Kacarların ortaya çıkışı dönemine denk gelmektedir. Bu dönemde Türkmenlerin toplumsal, ekonomik ve siyasi durumu esas mahiyt itibarı ile başka asırlardan farklılık göstemektedir. Bu asırda Türkmen yurtları Buhara Emirliği, Hive Hanlığı ve Nadir Şah Afşar tarafından yönetiliyordu. Bu dönemde Türkmen şiirinin ana içriğini vatan sevgisi ve kahramanlık gibi konular oluşturuyordu. Mahtumkulu Feragî'nin "Türkmenim başımız, döker bolduk yaşımız" şiiri bunun en güzel örneklerindendir.

Bu dönemde Türkmen şair ve yazarları toplumu özgürlüğe, bağımsızlığa çağırırarak, onların kaygı ve duygularını eserlerine yansıtmışlar. Zorluklu bir hayat süren Türkmenlerin aksakallıları, dönemin Afganistan şahı Ahmed Şah Deranî ile de defalarca görüşüp, dostluk ilişkilerini geliştirmeye çalışmışlar. Bunun üzerine Ahmed Şah da Türkmen aksakallıları ve komutanları adına iki dostluk fermanı göndermiştir. Bu fermanlarda ağır ve zor durumlarda birbirini kollamak ve dayanışma içinde olmakla ilgili cümleler de yer almıştır. Bu işbirliği ve dayanışma Mahtumkulu Feragî'nin şiirlerine de yansımıştır.

Bu makalede, dönemin siyasi şahsiyetleri ve ilişkileri, aynı zamanda bunun edebiyata yansımaları hakkında inceleme yapılmıştır.

Anahtar sözcükler: Mahtumkulu Feragî, Ahmed Şah Abdalî, Türkmen, Afganistan.

[1] Afganistan Bilimler Akademisi, Türkmen Dili ve Edebiyatı Bölümü İlmî Üyesi.
E-posta: rozi.omar21@gmail.com

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 103-115
Telif Haqqı©Varlıq Dergisi

The Place of Afghan Political Figures in the Age of Feraghi

• Rozi Muhammad OMAR[1]

Abstract: The period in which Mahtumkulu Feragi lived roughly coincides with the end of the rule of Nadir Kulu Afshar, the emergence of Karimhan Zend and the Qajars. The social, economic and political situation of the Turkmens in this period differed from other centuries in terms of their fundamental nature. In this century, the Turkmen homelands were governed by the Emirate of Bukhara, the Khanate of Khiva and Nadir Shah Afshar. The main content of Turkmen poetry in this period consisted of subjects such as love of country and heroism. Mahtumkulu Feragi's poem "Türkmenim başımız, döker bolduk yaşımız" is one of the best examples of this. During this period, Turkmen poets and writers called the society to freedom and independence, and reflected their concerns and feelings in their works. Turkmen elders met with the Shah of Afghanistan at the time, Ahmed Shah Derani, many times to discuss the situation of the people who were living a difficult life, and tried to develop friendly relations. Thereupon, Ahmed Shah sent two friendship decrees on behalf of the Turkmen elders and commanders. These decrees also included sentences about supporting each other and being in solidarity in difficult and difficult situations. This cooperation and solidarity was also reflected in the poems of Mahtumkulu Feragi. This article examines the political figures and relations of the period, as well as their reflections in literature.

Key words: Makhtumkulu Faraghi, Ahmad Shah Abdali, Turkmen, Afghanistan.

[1]Scientific member of the Afghanistan Academy of Sciences, Turkmen Language and Literature Department.
Email: rozi.omar21@gmail.com

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 103-115
Telif Haqqı©Varlıq Dergisi

جایگاه شخصیت‌های سیاسی افغانستان در دوره مختومقلی فراغی

● **روزی محمد عمر** [۱]

خلاصه: دوره‌ای که مختومقلی فراغی در آن می‌زیست تقریباً مصادف است با پایان حکومت نادرقلی افشار و ظهور کریمخان زند و قاجارها. وضعیت اجتماعی، اقتصادی و سیاسی ترکمن‌ها در این دوره از نظر ماهیت با سایر قرون متفاوت است. در این قرن، سرزمین‌های ترکمن توسط امارت بخارا، خانات خیوه و نادرشاه افشار اداره می‌شد. در این دوره محتوای اصلی شعر ترکمنی مضامینی چون میهن‌پرستی و قهرمانی بود. شعر مختومقلی فراغی با عنوان «تورکمن هستیم، اشک می‌ریزیم» یکی از بهترین نمونه‌های آن است.

در این دوره شاعران و نویسندگان ترکمن جامعه را به آزادی و استقلال فرا می‌خواندند و دغدغه ها و احساسات خود را در آثار خود منعکس می‌کردند. ریش سفیدان ترکمن‌هایی که زندگی سختی را تحمل می‌کردند، بارها با شاه وقت افغانستان احمد شاه درانی ملاقات کردند و سعی نمودند روابط دوستانه را توسعه دهند. پس از آن احمد شاه دو فرمان دوستی برای بزرگان و فرماندهان ترکمن فرستاد. این احکام همچنین شامل جملاتی مبنی بر حمایت از یکدیگر و همبستگی در شرایط سخت و دشوار بود. این همکاری و همبستگی در اشعار مختومقلی فراغی نیز نمود پیدا کرده است.

در این مقاله، شخصیت‌ها و مناسبات سیاسی آن دوره و نیز انعکاس آن‌ها در ادبیات مورد بررسی قرار گرفته است.

کلیدواژه: مختومقلی فراغی، احمد شاه ابدالی، ترکمن، افغانستان.

[۱] عضو علمی دپارتمان زبان و ادبیات ترکمنی آکادمی علوم افغانستان.
ایمیل: rozi.omar21@gmail.com

وارلیق
VARLIQ
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 103-115
Telif Haqqı©Varlıq Dergisi

گیریش

مخدومقلی فراغی تورکی-تورکمن دیلی و ادبیاتی آسمانیندا ۱۸-نجی عصردا، تورکمن دیلی و ادبیاتینی، ادبی دیل و بدیعی دیل درجه‌سینه ییتیرن، همده ۱۸-نجی تورکمن ادبیاتینا اولی انقلاب گتیرن قیمت‌لی شخصیت‌دیر. شیله‌لیکده فراغی، تورکمن دیلی و ادبیاتی آسمانی‌نینگ اینگ بییک یالقیملی ییلدیزلارینگ بیریسی‌دیر.

مخدومقلی تورکمن ادبیاتیندا کلاسیزیم مکتبی‌نینگ بنیانگذارلاریندان حسابلانیلیوْر. مخدومقلی یوْناچی‌نینگ آختیغی و دولت محمد آزادی‌نینگ اوْغلی بوْلان مخدومقلی فراغی، باشلانغیچ اوْقوولارینی آتاسی‌نینگ یانیندا باشلاپ، سوْنگی بیلن بخارا، خیوه و باشغا شهرلردأکی دورلی مدرسه‌لرده زمانی‌نینگ مروج بیلیمی‌نی اؤرنیوْر. خلقارا عالم و فیلسوف‌لری‌نینگ، آیراتین هم تورکمن خلقی‌نینگ ایچینده بییک عالم، دانشمند، متفکر و بیلیمدان صفتینده یتیشیوْر.

مخدومقلی فراغی‌دان غالان اثر، ۱۸-نجی عصر تورکمن‌لرینگ سیاسی، اجتماعی و اقتصادی وضعیت‌لرینی عکس اتدیریوْر. شو سبب‌دن، شرق‌شناس عالم «برتلس» مخدومقلی فراغی‌نی «جام جم» آدی بیلن تورکمن ادبیاتیندا یادلایوْر. فراغی اثرینده پاراخاتلچیلیق، فداکارلیک، اوْی-فکر، غووانچ، سؤیگی، دویغی، غایغی و اخلاقی، فلسفی موضوع‌لار بیلن بیر قطار دا یخشی‌لیغی، ییگیت‌لیگی، سخاوتی و خلقینگ معنوی سیماسینی تصویرلندیریوْر.

فراغی‌نینگ اصل اوْی و فکرینی، عدالت و انسانی آیدیالار (دوشونجه‌لر)، مرکزلشه‌ن بیر دولت غورماق، دوست و دوْغانلیق، آزادلیق، خوشبخت‌لیق، تورکمن داپ-دستورینی ساقلاییش یالی مسئله‌لر اوْراپ آلیوْر. اوْنونگ شعرلرینده دورلی حیل اویت‌لر، دوستلیق، دوْغرولیق، عشق و محبت یالی موضوع‌لارا اولی اهمیت بریلیپدیر. فراغی‌نینگ اثرینده، تورکمن طائفالارینی استقلال و آزادلیغا چاغیریپ و بولارینگ سعادت خوشبخت‌لیغینی ایستاب افغان و باشغا ملت‌لر بیلن آراغاتناشیقدا بوْلماق‌لغا چاغیریلیوْر.

مقالانینگ اهمیتی و ارزشی

بول مقالادا، بییک عالم؛ تورکمن ادبی دیلی‌نینگ باشلانشینا قدم اوران، طبیعتینگ گوزللیگی و انه توْپراغنی توصیف ادن، ظلم و استبداد غارشی‌سیندا دوران، بیچاره، مظلوم و زحمت‌کش

خلق‌دان دفاع ادن و مونونگ اوچین باشغا دولت‌لر بیلن آراغاتناشیق غوران، الله تعالی‌نینگ عشقی (حقیقی عشق) عشق‌دان باشغا هم سیاست، اخلاق، اجتماع، اقتصاد، ایلسؤیرلیک و باشغا ملت‌لر بیلن بوْلان آراغاتناشیغی یالی موضوع‌لاردا سؤز یؤرودن و مخدومقلی فراغی‌نینگ افغانستانلی سیاسی شخصیت‌لر بیلن غاتناشیغی دوْغروسیندا غیسغا بوْلسا هم قیمت‌لی معلومات‌لار بریلیوْر.

مقالانینگ هدفی

بو مقالادا، بییک عالم و فیلسوف؛ مخدومقلی فراغی‌نینگ دوره‌دیجیلیگی، افغانستانلی سیاست شخصیت‌لری آیراتین هم احمدخان ابدالی، کمال اوْغان‌ی تانیتماق و مخدومقلی فراغی‌نینگ افغانستان سیاسی شخصیت‌لری بیلن بوْلان مناسبتینی بیلدیرمک بوْل مقالانینگ اساسی مقصدی و هدفی‌دیر.

مقالانینگ تحقیق یوْلی

بوْل مقالا دولتی، خصوصی و الکترونیکی کتابخانالارینگ کتاب‌لاریندان، علمی و اعتبار اثرلردن امکانی باریچا فایدالانیپ تیارلانیلدی.

مخدوم قلی فراغی‌نینگ دورموش یوْلی

بوتین تورک دنیاسی‌نینگ آیراتین هم تورکمن خلقی‌نینگ ملی شاعری، ملی غیوانجی و ملی بویسانجی حساب‌لانیوْن، مخدومقلی فراغی؛ مخدوم قلی یوْناچی‌نینگ آختیغی و دولت محمد آزادی‌نینگ اوْغلی تخمیناً ۱۷۳۳-نجی میلادی ییلدا، تورکمن تاریخچی‌لاری‌نینگ اینگ سوْنگقی تحقیق‌لارینا گؤرأ؛ ۱۷۲۴-نجی میلادی ییلدا اترک دریاسی‌نینگ بوْیوندا حاجی غوْوشان دییلیوْن یرده، گنبد-کاووس‌ینگ دمیرغازیق-گوندوْغاریندا علم‌لی و بیلیم‌لی بیر مشغلادا دنیا اینیوْر. (یاور، ۲۰۲۴: ۷۷)

مخدوم قلی‌نینگ یاشلیق و یتگینچه‌کلیک ییللاری اترک، گؤرگن دریالاری‌نینگ بوْیوندا، سوْنگوداغ، غیزیل بایبر تؤره‌گینده گچیوْر. شاعر باشلانغیچ علمینی اؤز آتاسی‌نینگ یانیندا آلیوْر. بو دوْغرودا مخدوم قلی فراغی غوْشغولاری‌نینگ بیرینده شؤیله دییوْر:

دعـــا قـیـللسـام جـــبر و جـــفـــا اکـــثر دور
عـــلم اؤگـــره‌دن اســـتاد قـــبـــلام پـــدر دور

مخدومقلی فراغی ایلکی حالاچ (خلاج) اطرافی‌نینگ غیزیل آیاق اوْباسینداقی ادریس بابا مدرسه‌سینه باریوْر. ادریس بابا مدرسه‌سینده بیر ییل اوْقاندان سوْنگ، مدرسأنینگ مدرسی

(استادی) عالم‌دان اؤتیوْر. شوندان سوْنگ مخدمقلی فراغی، اوْقووینی بخارادا دوام اتمگی گؤز اؤنگونده توتوب بخارادا ییرلشن، گؤگلداش مدرسه‌سینده اوْقاپ باشلایوْر. گؤگلداش مدرسه‌سینده درس برمک اوچین چاغیرلان نوری کاظم ابن باهر آتلی سوریه‌لی تورکمن بیلن تانیشیب اوْنونگ بیلن یقین‌دان دوست بوْلیوْر. آرادان بیر ییل گچیپ-گچمأنکا گؤگلداش مدرسه‌سینده اوْقایوْن طالب‌لارینگ آراسیندا یوز برن کأبیر دوزگونسیزلیک بو ایکی دوستا غاتی گلیپ، ایلکی نوری کاظم و اوْنونگ ایزی بیلن مخدوم قلی هم مدرسه‌دن آیریلمالی بوْلیوْرلار. (سارلی، ۱۳۷۷: ۱۵)

مخدومقلی شوندان سوْنگ زمانینگ اینگ شهرتلی مدرسه‌لریندان حساب‌لانیوْن خیوه‌ده ۱۷۱۳- نجی میلادی ییلدا سالینان شیرغازی مدرسه‌سینده بیلم آلماغا باشلییوْر. فراغی آز وقتینگ ایچینده مدرسأنینگ اینگ ذهن‌لی طالب‌لاری‌نینگ قطارینا گیریپ، اوْقووچیلارینگ نمایندا‌سی بوْلوپ سایلانیوْر. حتی مدرسه‌ده درس بریوْن حضرت پهلوان حایسی بیریانا گیده‌نینده مخدوم‌قلی اوْنونگ درگینه درس بیریپ باشلییوْر. مخدوم‌قلی بیرنأچه ییلدان سوْنگ شیرغازی مدرسه‌سینی ترک ادیپ، اترک گیلیپ، شوْل یورتدا حیات گچیریوْر. مخدومقلی بو دوْغرودا شؤیله دییوْر:

مـکـان ایـلاپ اوچ ییـل ایـدیـم دوزونـگـی
گـیدر بـوْلـدوم خـوش قـال گـوْزل شـیرغـازی
اوْتـوردیـم قـیشنـگـی، بـهـار یـازیـنـگـی
گـیدر بـوْلـدوم خـوش قـال گـوْزل شـیرغـازی

(فراغی، ۱۳۷۳: ۲۴۰)

مخدومقلی مدرسه‌ده اوْقان ییللارییندا دا، گوندوْغار خلقلاری‌نینگ تاریخینی، ادبیاتینی، فلسفه‌سینی، جغرافیاسینی، لقمانچیلیق‌لارینی و بیله‌کی بیرنأچه علم‌لرینی اؤرنمک اوچین بیرنأچه قدیمی کتاب‌لاری و اثرلر بیلن تانیش بوْلوپدیر. فراغی بو یرده محمد خوارزمی، فارابی، بیرونی، ابن سینا، محمود کاشغرلی، عمر خیام یالی عالم‌لارینگ، ابوالقاسم فردوسی، نظامی گنجوی، خسرو دهلوی، سعدی شیرازی، حافظ شیرازی، عمادالدین نسیمی، جلال الدین رومی، فریدالدین عطار، عبدالقادر بیدل، علی شیرنوایی، محمد فضولی، یالی گؤرنوکلی شاعرلارینگ اثرلری بیلن یقیندان غیزیقلانیپدیر. مخدومقلی فراغی بیرنأچه شاعرلاردان «سن بوْلسام» عنوانلی شعرینده اولی غووانچ بیلن یاتلاپ گچیوْر.

سۏنگرا مخدومقلی فراغی ۱۸۰۷-نجی میلادی ییلدا «عباساری» بۏلاق یانیندا، ایران‌نینگ دمیرغازیغیندا (ایران و تورکمنستان‌ینگ آراچأگی‌نینگ یانیندا) عالم‌دن اۏتوپ، اترک دریاسی‌نینگ بۏیوندا "آق توڤای" غۏنامچیلیغیندا جایلاشدیریلیۏر. (یاور، ۲۰۲۴: ۷۷)

فراغی‌نینگ غۏشغولاریندا افغانستانلی سیاسی شخصیت‌لری‌نینگ اۏرنی

الف- شاعرینگ غۏشغیلاریندا احمد شاه ابدالی‌نینگ اۏرنی

خراسان و هندوستاندا بیرینجی افغان دولتی‌نینگ بنیانگذار و اساس‌چیسی، احمدشاه؛ بابا و ابدالی لقبی بیلن تانالان احمدشاه ابدالی؛ محمد زمان سدوزایی‌نینگ اۏغلی ذوالفقار خان سدوزایی‌نینگ اولی (کتته) دۏغانی‌یدیر. احمدشاه ابدالی ۱۷۲۶-۱۷۲۸میلادی ییلار آرالیغیندا هرات شهرینده باشغا بیر روایتا گۏرأ ملتان‌دا انه‌دن دۏغولیۏر.

نادرقلی افشار ۱۱۶۰-نجی هـ ق (۱۷۴۷- میلادی) ییلی، جمادی الثانی آیی‌نینگ، یکشنبه گیجه‌سینده اۏز خیماسیندا اوخلاپ یاتان وقتیندا محمد خان قاجارینگ مشوره‌سی بیلن اۏزی‌نینگ غۏرایجیلاری (محافظ‌لاری) بۏلان؛ موسی بیک ایرلوی، صالح محمد قرقلوی و محمد قلی خان طرفیندان اۏلدوریۏر. اۏنونگ اۏلوشی بیلن تخت و سلطنت تارتیشیقلاری باشلانیۏر. احمدخان ابدالی فرصت‌دان فایدالانیپ، نادرشاه افشارینگ افغان عسکرلری بیلن قندهارا غارشی یۏلا چیقیۏرلار. نور داغی‌نینگ الماسی (الماس کوه نور) و نادرقلی افشارینگ هندوستاندان آلیپ گلن جوهرلرینی هم اله آلیۏر و قندهار شهرینه گلیپ «درانی لار» دولتی‌نینگ اساسینی غۏییۏر. (سیدی، ۱۳۸۸: ۷۲)

احمدخان ابدالی قندهارا یتیشندن سۏنگ ۱۱۶۰-نجی هجری قمری (۱۷۴۷-نجی میلادی) ییلیندا نور محمد غلجایی‌نینگ مشوره‌سی بیلن، غلجایی، اوزبیک، بلوچ و تاجیک خان‌لاری و یاشولی‌لارینی بیر اولی مصلحت ییغناغینا (جرگه) چاغیریۏر. بول جرگه ۱۱۶۰-نجی هجری قمری ییلیندا، حاضرکی قندهار شهری‌نینگ یقینیندا ییرلشه‌ن شیرسرخ زیارتی، نادر آباد نظامی قلعه‌سیندا دا بۏلوپ گچیۏر. ۹-گون دوام ادن بول ییغناق (جرگه)دن سۏنگ، صابرشاه کابلی‌نینگ پیشنهادی بیلن ۲۵ یاشلی احمدخان ابدالینی سلطان یا حاکم دییپ سایلایۏرلار و اۏنونگ باشینا تاجینگ درگینه بوغداییینگ (باشینی) خوشاسینی غۏییۏرلار. احمد خان ابدالی حاکم دییلیپ اعلان ادیلندن سۏنگ، پادشاه‌لیغینی اۏسدوریش اوچین هندوستان و ایرانا غارشی غۏشون سوروپ اوزی‌نینگ پادشاه‌لیغینی اوسدوریۏر. (میرزایی، ۱۳۶۶: ۳۵)

احمد خان درانی ۱۷۴۷-نجی میلادی ییلیندا اۏزباشداق افغان (اۏغان) دولتی‌نینگ اساسینی غۏیانیندان سۏنگ ۱۷۵۴-نجی میلادی ییلینگ ۶-نجی اگوست آیینده و ۱۷۵۵-نجی میلادی

ییلینگ ۲۸-نجی مارچ آییندا تورکمن‌لره احمدخان درانی طرفیندان ایکی گزک خط (نامه) یوْللانیلیوْر.

بول نامه‌لاردا؛ محمد ولی خان، آمانلیق خواجه حسن اوْن‌بیگی، آدینه قیلیچ، گوندوْغدی، چالیش خان چرکز اوْن‌بیگی، دوست علی، آننا محمد، مصطفی، شیر محمد، سلیمان، منگلی خان و عوض گلدی یالی تورکمن سرکرده و خان لارینا یوزلنیپ اوْلاردان یاردام ایسته‌یوْر. (محمد حسن خان، ۱۸۸۴: ۳۴۷)

نادر افشارینگ ظلمندن ازیلن تورکمن‌لر احمد خان ابدالی‌نینگ خط (نامه‌سینا) مثبت جواب بریپ، تورکمن یاشولی‌لاری؛ خان‌لاری و وکیل‌لرینی احمد شاه ابدالی‌نینگ یانینا یوْلییوْرلار. نتیجه‌ده، احمدشاه ابدالی بیلن دوشوشیغا غایدان خانلار و سردارلار درک‌سیز یتیوْرلار. بولارینگ آراسیندا مخدومقلی‌نینگ دوْغان‌لاری عبدالله و محمد صفا هم بوْلوپدیر. بول فاجعه‌لی واقعه بارادا مخدومقلی فراغی؛ «عبدالله، ترک ایله‌مه بو مکانی، بولار گلمدی و چودر خان» آتلی غوْشغولارینی یازیوْر. نتیجه‌ده احمد خان ابدالی ۱۷۷۲-نجی میلادی ییلیندا (۱۱۸۶ هـ‌ق) جمعه گیجه‌سی، رجب آیی‌نینگ ۲۰-سینده عالم‌دن اوتیوْر.

تورکمن‌لر (یوْموت‌لار و گؤگلنگ‌لر) ایکی سبب بیلن؛ تورکمن‌لرینگ دولتی بوْلان قاجار دولتیندن حمایت اتمه‌دی‌لر.

بیرینجی‌دن؛ قاجار خانی محمد حسن‌خان، نادر افشار بیلن اوروشانینده تورکمن‌لر اوْندان حمایت اتدی‌لر، سببی تورکمن خلقی، نادر افشارینگ ظلمیندان کؤپ ایریگن تیلر، باشغا بیر طرفدان هم قاجار خانی کأبیر یخشی وعده‌لری تورکمن لره برنتی، اما حاکمیته یتندن سوْنگ وعده‌سینه عمل اتمه‌دی. شونونگ اوچین تورکمن‌لر ایکی‌سیندن هم ال اوزوپ احمد خان ابدالی بیلن بوْلوپ، اوْندان حمایت ادیشینی ایسته‌دی‌لر.

ایکینجی‌دن؛ مذهب حقیندا کوپ اختلاف و غارما-غارشی‌لیقلار بار اکن. تورکمن‌لر سنی و احمدخان ابدالی هم سنی اکن، ایکی طرف هم سنی مذهبینه دگیشلی بوْلاندیقلاری اوچین اوْندان حمایت اتدیلر. شونونگ اوچین چودیرخان آتلی اوزلری‌نینگ بییک سرکرده و بیرنأچه تورکمن ییگیت‌لری بیلن قندهارا طرف یوْللادیلار. (گلی، ۱۳۶۶: ۱۰۱)

تورکمن‌لر احمد خان درانی‌نینگ اوْغان (افغان) خلقلاری‌نینگ اوزباشداقلیغی اوچین آلیپ باران ایشلرینی نظردا توتوپ، شوْنونگ یالی تورکمن خلقی‌نینگ‌دا ارکین لیگه چیقماغینا

اوْندان حمایت بوْلار امیدی بیلن احمد شاه ابدالی‌دان حمایت اتمک ایسته‌دی‌لر. مخدومقلی فراغی «عرش اعلایا» عنوانلی شعرینده احمدخان ابدالینی شؤیله ذکر ادیپ گچیور:

یا احمدشاه یرده یاییلیپ چـــاوینگ — آدیـــــنـــگ آســـمان گـیدر عـرش اعـلایا
گـلن نـوکـرینگ دیر، گلمه‌یین آویـــنگ — بـــییکـلـــیک زیـــنه‌ســـین قـــال پایا-پایا
ایـــرانـه قـیـلـیچ اور، یـوروت ســـپاهـی — باشـینـگدا بـرک بـولسون دولـت کـلاهـــی
هـمـایـــون داغـیندا، شـیرلرینگ شاهی — گـــویـا بـیـر نـــهنـگ ســن، موج دریـایـا
بـیـشه‌لرینـگ آو آنـگـتایان شـیری ســن — رومـــستـان بـینـی‌ســی دوونگ بـیری ســـن
زال اوْغـلی‌نـینگ آلماز، پـیکان تـیری سن — گـــوشـــتاســـپ اوغـــلی دک بـــللی بـــلایا
پـیشینـگ ایـران بـولسا، پشتینگ تـوران دیر — دوست ایشینگه خوش وقت، دشمن حیران دیر
اقـبـالـینـگ آچـیلار، ایـــشیم روان دیـــر — مـــرحمت نـظریـنـگ سالسانگ بـیرجـایا
فـراغـی دیر، رواج بـیرســـن ســن دینی — شـــاه لارینگ شـــاه‌لاری اسـلامـینـگ زینی
امرینـگه مطیع ات ایـــران زمـــــــینی — روز و شـــب نـالیشـیم بـــو دیـــر خـدایـا

(فراغی. ۲۰۱۲: ۲۹)

ب- شاعرینگ غوْشغولاریندا کمال خان اوْغانینگ اوْرنی

کمال خان اوْغان ۱۹-نجی عصردا یاشاپ گچن بلوچ سردارلاری‌نینگ بیری حساب‌لانیوْر. کمال خان اوْغان ۱۸۰۰-نجی ییلدا دوْغولیپ ۱۸۷۹-نجی میلادی ییلیندا عالم‌دان اوتوپدیر. ۱۸۷۲-نجی میلادی ییلدا بندر کمال خان و چهار بورجک‌دن سیاحت ادن، جنرال گولدسمدینگ سکرتری «ایوان سمت» شویله یازیوْر: سردار کمال خان سنجرانی بلوچ‌لاریندان و ابراهیم خان چخانسور و امام خان رودبارینگ دوْغان-اوْغلان‌لاریندان حساب‌لانیوْر. اوْلارینگ همه‌سی‌نینگ باباسی جان بیگ حساب‌لانیوْر. جان بیگینگ؛ خان جان، اسلام خان و نواب خان آتلی اوچ اوْغلی بوْلوپدیر. خان جانینگ اوْغلی ابراهیم خان چخانسورینگ حاکمی، اسلام خانینگ اوْغلی امام خان؛ حسین آبادینگ حاکمی و نواب خانینگ اوْغلی سردار کمال خان بوْلوپدیر.

بار بوْلان چشمه‌لره گورا؛ کمال خان اوْغان ، تورکمن‌لرینگ حربی حرکت‌لری بیلن یوز-یوزه بوْلان دورونده اوْغان حربی یوْلباشچی‌لاریندان بیری بوْلوپدیر. «مخدومقلی به روایت مخدومقلی» عنوانلی مقالادا آیدیلشی یالی کمال خان اوْغانینگ تورت ییل تووره‌گینده ادن حرکتی مخدومقلی فراغی‌نینگ دورموشی بیلن بیر دورده بوْلاندیغی آیدیلیوْر. بوْل دور ۱۱۷۶-نجی هجری قمری ییلی (۱۷۶۲-نجی میلادی ییلی) مخدومقلی فراغی‌نینگ ۳۰ یاشینا غابات گلیپ بیلیوْر. بوْل دورده تورکمن‌لرینگ حربی حرکتی‌لری هم غوتاریوْر. (احمدی، ۱۳۷۸: ۲۲۸)

بۆل معلوماتا گورأ؛ کمال خان اۆغان، مخدومقلی فراغی‌نینگ دورموشیندا رول اۆینان تاریخی بیر کیشی‌دیگی و اۆنونگ غۆشغی‌لاریندا هم آدی گچن‌لیگی بارا دا هم نتیجه چیقاریپ بیلیۆریس.

مخدومقلی فراغی‌نینگ «یوز اورسانگ» عنوانلی شعری نینگ بیر بیتینده کمال خان اۆغان‌دان یادلاپ گچیۆر.

مخـدومـقلی گرچـه بـختـینگ شـور بـۆلار شـیـریـن ایـلار، پـیر دولـتینـگ یـار بـۆلار
غـم سـندن ساوولار، دردینـگ اگسـی‌لـر کـمـال خـان اۆغان دک، آرأ یوز اورسـانگ

(فراغی، ۱۳۸۳: ۲۲۰)

باشغا هم "دوکر بۆلدوق یاشیمیز" عنوانلی شعری‌نینگ بیر بیتینده مخدومقلی فراغی کمال خان اۆغان حقیندا سۆزلأپ، شویله دییۆر.

مـخـدومـقـلـی دیـدی جـانینگ دیـرلـیگـینه مـسـلـمانـی قـۆیمـا کـافـر خـورلوۆغـنا
رواج برگیـل یـۆمـوت، گۆگـلـنـگ بـیرلیـگینه اول کمال خـان اۆغان بۆلـسـون باشیـمیز

(فراغی، ۱۳۸۳: ۲۱۰)

نتیجه

مخدومقلی ۱۸-نجی میلادی عصرینگ اۆرتاسیندا یاشاپ گچن شاعر، عالم، بیلیمدان و فیلسوف‌لردن بیری حساب بۆلیۆر. باشلانغیچ اۆقووسینی اۆز آتاسی بۆلان دولت محمد آزادی‌نینگ یانیندا، سۆنگی بیلن، خیوه، بخارا مدرسه‌لرینده آلیپ، هندوستان و افغانستانا سفر اتیۆر. مخدومقلی چاغالیقدان دینی و عرفانی علم-بیلمینی آلیپ اۆنگا عمل اتیۆر. مخدومقلی قرآن شریف‌دن تأثیرلنیپ و شعرلرینگ مفهوم و مطلبینده اۆندان (قرآن شریف‌دن) فایدالانیۆر. مخدومقلی فراغی عمری‌نینگ هر باسغانچاغیندا بییک واقعه یۆز برن، واقعه‌لاردان غاتی تاثیرلنیپ، بول واقعه‌لارینگ غارشی‌سیندا دیم-دیک دوروپ مجادله اتیۆر. سۆنگقی وقتلار آتاسی و استادی دولت محمد آزادی‌نینگ یانیندا بۆلوپ، زمانیندا یۆز برن واقعه و حادثه‌لاردان اۆنونگ بیلن غایغیداش بۆلان.

مخدومقلی فراغی اۆز دوری‌نینگ بییک شاعر و بیلیمدانلاریندان بیری بۆلوپ، اۆ تازه قاعده‌لار اساسیندا اثرینی و شعرلرینی، تورکمن دیلینده ساده سۆزلردن، همه‌لره دوشونکلی بیر دیلده یازیپدیر. شاعر تورکی، فارسی و عرب دیللرینه دۆلی حاکمیتی بۆلوپدیر.

فراغی دورونینگ حاکم بۇلان سیاسی، اجتماعی و اقتصادی غییىنچیلیقلارینی اؤز غۇشغولاریندا دوشوندیرمأگه چالیشیپدیر. شاعر شعرلرینده آدملاری بیرلیگه، دوست-دۇغانلیغا، عدالت، دۇغرولیغا چاغیریپدیر. ینه بیر طرفدان، تورکمن‌لرینگ سیاسی یاغدایی دۇغروسیندا گیجه-گوندیز آلادا ادن بیر سیاستچی‌دیر. اۇل تورکمن‌لر تیره-طایفالارینی بیرلیگه دعوت اتیۇر و اۇلاری مرکزلشن بیر دولت غورماقلیغا تشویق اتیۇر. مونونگ اوچین تورکمن‌لرینگ سیاسی دورموشی حقیندا غیزیقلانان بیر شاعردیر. اۇل دورده تورکمن‌لر، غۇنگشی دولت‌لر جمله‌دن افغان دولتی بیلن دوست‌لیقلی غاتناشیغی بۇلوپدیر. تورکمن‌لر، ۱۸-نجی عصرینگ اۇرتالاریندا احمد شاه درانی طرفیندان غورولان افغان دولتی بیلن هم یقین‌دان صمیمی غاتناشیغی بۇلوپدیر. بۇل خوش نیت‌لی غاتناشیقلار فراغی‌نینگ غۇشغولاریندان هم اؤز بیانینی تاپیپدیر.

احمد خان درانی اۇزباشداق افغان (اۇغان) دولتی‌نینگ اساسینی غۇیانیندان سۇنگ ایکی گزک خط (نامه) یۇللانیلیۇر. بۇل نامه‌لاردا؛ محمد ولی خان، آمانلیق خواجه حسن اۇن‌بیگی، آدینه قیلیچ، گوندۇغدی، چالیش خان چرکز اۇن‌بیگی، دوست علی، آننا محمد، مصطفی، شیر محمد، سلیمان، منگلی خان و عوض گلدی یالی تورکمن سرکرده و خان‌لارینا یوزلنیپ اۇلاردان یاردام ایسته‌یۇر. کمال خان اۇغان، مخدومقلی فراغی‌نینگ دورموشیندا رول اۇینان تاریخی بیر کیشی‌دیگی و اۇنونگ غۇشغی‌لاریندا هم آدی گچن‌لیگی آیدینگ گؤرولیۇر.

مخدومقلی فراغی‌نینگ "یوز اورسانگ" و "دوکر بۇلدوق یاشیمیز" عنوانلی شعرلرینده کمال خان اۇغان‌دان یاتلاپ گچیۇر. مخدومقلی فراغی تورکمن خلقی‌نینگ اقبالی و گلجگینی دوشونیپ، باشغا ملت‌لر و خلقلار شۇل جمله‌دن افغان (اۇغان) خلقی بیلن یقیندان آراغاتناشیقدا بۇلجاق بۇلوپ، غاتی حرکت‌لر اتیۇر و بۇل یۇلدا ایکی دۇغانی؛ محمد صفا و عبدالله‌نی هم الدن بریۇر.

Qaynaqlar / منابع

AHMEDİ, Hasan (1378/1999). *Sistan'ın Tarihî Coğrafyası (جغرافیای تاریخی سیستان)*, Tahran.

FERAGİ, Mahdumkulu (1373/1994), *Mahdumkulu Feragi'nin Seçilmiş Şiirleri (برگزیده اشعار مخدومقلی فراغی)*, Haz. Abdurrahman Diyeci, Elhüda Yay.

FERAGİ, Mahdumkulu (1383/2004), *Mahdumkulu Feragi'nin Tüm Divanı (دیوان کامل مخدومقلی فراغی)*,Haz. Murad Durdi Gazi, Golneşr Yay., Meşhed.

FERAGİ, Mahdumkulu (2012), *Mahdumkulu Eserleri Toplusu (مخدومقلی اثرلر ییغیندیسی)*, Haz. Enne Kurban Aşirov, Türkmenistan El Yazmalar Ens., Aşkabat.

GÜLİ, Eminullah (1366/1987), *Türkmenleri Siyasi ve Toplumsal Tarihi (سیری بر تاریخ سیاسی و اجتماعی تورکمن‌ها)*,Elm Yay., Tahran.

MİRZAYİ, Alikuli (1365/1986), *Afganistan'ın Olaylar ve Hadiseler Tarihi (تاریخ وقایع و سوانح افغانستان)*, Emir Kebir Yay., Tahran.

MUHAMMED Hüseyin Han (1884), *Matlau'ş-Şems (مطلع‌الشمس)* Tahran.

SARLI, Araz Muhammed (1377/1998). *Tükmen Edebiyatı Üzerine Araştırmalar (پژوهش‌هایی در ادبیات ترکمن)*, Firdevsi Üni. Yay., Meşhed.

SEYYEDİ, Seyyed Nazim (1388/2009), *Mahdumkuli Feragi (مخدومقلی فراغی)*, Şuayb Mat., Kabil.

YAVER, Muhammed Beşir (2024), "Afganistan'da Mahdumkulu Feragi'nin Öğrenilmesi (افغانیستاندا مخدومقلی فراغی‌نینگ اؤورنیلیشی)", *Miras-ı İlmi*, S. 2(2024), ss. 74-78.

Rozi Muhammed ÖMER

Afganistan Bilimler Akademisi, Türkmen Dili ve Edebiyatı Bölümü ilmî Üyesi.

E-Posta: **rozi.omar21@gmail.com**

Yazı Bilgisi:

Alındığı Tarih: 12 Aralık 2024

Yayına Kabul edildiği tarih: 25 Aralık 2024

E-yayın tarihi: 20 Ocak 2025

Çıktı sayfa sayısı: 13

Kaynak sayısı: 10

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2023: 32(2), ss. 117-120
Telif Haqqı©Varlıq Dergisi

حکایه

نارلار دنه‌لنیرکن

• آتابگ باریش

اولدوزلار آخار هپ اورایا،
مفتیللر اکیلمیش تورپاغا.

«نارلاری دنه‌ییم می آناجیغیم؟» بو بکلنتیسی اولان بیر سوال ایدی. کیچیک بهنام بو ائو اوچون اومود تیمثالی ایدی. خدایار عایله‌سی‌نین دؤرد قیز اوشاغیندان سونرا گلمیش و اولابیلدیگینجه ال اوستونده توتولموش اوغلان اوشاغی ایدی بهنام. اونون آلدیغی نفس اومود ایدی، وئردیگی نفس اومود ایدی. سوروشدوغو سواللار بئله آردیندا نه اومودلار ساخلاییردی دا فرقینده بئله دئییلدی.

ایستی بیر پاییز آخشامیندا تانیدیم خدایار عایله‌سینی. شیرازدان داشینمیشدیق و ائولری‌نین قارشیسیندا بیر ائو کیرالامیشدیق. نرگیز خالا و حمید عمی‌گیل بیزه ایلک خئییرلی اولسونا گلنلردی. سانیرام بو اوزدن باغلار محله‌سیندن ساده‌جه اونلاری خاطیرلایابیلیرم. قیزلاریندان اوچونو چوخدان ائولندیرمیشدیلر بئله. من اونلاری هئچ گؤرمه‌دیم. هم گرک ده یوخدو. من شکوفه‌یه عاشیق ایدیم. اوشاقلیق عشقیم ایدی شکوفه. ایلک عشقیم ایدی شکوفه. دیزلری‌نین اوستونه آلماسی و یاناقلاریندان اؤپمه‌مه مساعده ائتمه‌سی یئتیردی منه. اونون گؤزللیگی گئرییه قالان بوتون ایستکلریمی باسدیریردی. ایشته یاخین آرخاداشیم بهنام، آبجی دئییردی شکوفه‌یه، من ایسه عنادلا شکوفه.

اساساً بهنامی من قیشقیردیردیم. آرخاداشلیغیمیز گنل اولاراق بئله ایره‌لیله‌ییردی. اگر من آنامدان اولوشماسی ایمکانسیزا یاخین بیر ایستکده بولوناجاقسام بو بهنام‌ین آغزیندان چیخاردی، نرگیز خالادان عینی مینوالدا ایستکلرده بولونولاجاقسا دا دیله گتیرن من اولوردوم. بئله‌لیکله ده شانسیمیزی آرتیریردیق. بو بیر نوع یازیسیز قورال ایدی بیزیم اوچون. بئله- بئله ایلک مکتبی بیرلیکده بیتیردیک.

ایلک مکتب بیزیم اوچون عینی زاماندا سون مکتب اولموشدو. بو اوزدن ایلک مکتبه‌کی و یاریدا بوراخماق زوروندا قالدیغیمیز اورتا مکتبه‌کی خاطیره‌لریمیز داها دونن یاشانمیش کیمی شفاف بیر شکیلده عاغلیمدادیر. بعضا اوتاناراق اونوتدوغوم شئیلر ده یوک دئییل. آنجاق جاهید صدقی‌نین حسابینا گؤره یولو یاریلامیش بیریسی اولاراق بعضی شئیلری عاغلیمدا توتابیلمه‌مم سو گؤتوره‌بیلیر بیر مسئله اولمالی.

او گونلر، یعنی تام آنلامی ایله موتلو اولدوغوموز گونلر بیر مکتبیمیز واردی. تک دردیمیز آنالاریمیزی شیرین چابالاریمیزدان اوزاق توتاراق اوشاق عاغلی ایله قاچاماقلار یاپماقدی. بو قاچاماقلاریمیزدان تک

فاووریمیز شراب فابریکاسینا گیزلیجه گیریب هله فیچیلارا (بوشقالارا) باسیلمامیش اوزوملردن بیر نئچه سالخیم عاراقلاماقدی. دؤرد یانیمیز اوزوم باغی اولسا دا او اوچونجو صینیف شراب فابریکاسیندان عاراقلادیغیمیز اوزوملرین دادینی بیر داها هئچ بیر یئردن آلمایاجاقمیشیق کیمی حیسّ ائدیردیک. نئجه کی، حاقلی‌ایمیشیک، بیر داها هئچ بیر زامان اوراداکیلار کیمی داتلی، سولو، ایری اوزوملر سوفره‌میزه قویولمادی، قارنیمیزا ائنمه‌دی. بلکه ایچینه گیردیکلری مخزنین قاتدیغی بیر داد ایدی، بلکه اؤزوموزه یاراتدیغیمیز هیجانین نتیجه‌سینده اولان غالبیت سرخوشلوغونون وئردیگی بیر داد ایدی، ائله یا دا بئله بو داد، ایللره میدان اوخویان بیر داد ایدی.

نرگیز خالا داها دئییل، دئدی. اؤرتوسونون آلتیندان داشان ایکی بوکله ساچی ائله امک قوخوردو کی، تر و امک کلمه‌لری ایلک دفعه او آن بللەییمده (حافظه‌مده) یئر ائدیندی. چوخ چالیشقان بیر قادیندی، تام آنام کیمی. باخمایین منه، منیم تانیدیغیم بوتون قادینلار چوخ چالیشقاندی. سونرا بهنام آیاغا قالخدی و آیاغی ایله ریتم توتاراق بیر قورمالی ساعاتین تیک-تاکی کیمی دوراقسایا- دوراقسایا یئرده‌کی له‌یه‌نه وورماغا باشلادی. تا کی، نرگیز خالا یئتر آرتیق بهنام! دئیه باغیرانا قدر. بهنام چوخ ایچرله‌میشدی او آن، ائله کی، اون ایللر گئچمیش اوزریندن، هله ده او معصوم باخیشلارینی خاتیرلاییرام. عاغلیمدا ائله قالمیش بهنام، آنجاق بهنام‌ین معصومانه باخیشی اؤفکه‌یه دؤنوشموشدو او گون. سببی بو انتیظار دئییلدی، داوامیندا گلن باشیما قالدین، مکتبینیز آچیلسا دا دفع اولوب گئتسن، من ده قورتولسام، جمله‌سی ایدی. بونو ایلیکلریمه قدر حیسّ ائتمیشدیم. قالخیب گئتمک ایسته‌میشدیم او آن بولوندوغوم یئردن. یئر یاریلمادی و من ایچینه گیره‌بیلمه‌دیم.

***

نه زامان اوشاقلیغمیز بیتدی، نه زامان آدام اولدوق آنلایابیلمه‌دیک. بیر گئچیش دؤنمیمیز اولدو مو خاطیرلامیرام، اولدویسا دا فرقینده اولابیلمه‌یه‌جک قدر قیسا بیر زامان اولموشدور. بیردن سورواملولوق دئیه بیر یوک مینمیشدی چییینیمیزه و یاپدیغیمیز، حتی یاپمادیغیمیز هر شئی اوچون مسئول اولما دورومو اولوشماغا باشلامیشدی. آفاللادیغیمیزی خاطیرلاییرام، انسان اولان آفاللار، نئجه کی، بدنیمیز بئله آفاللاییر مؤوسوم گئچیشلرینده، بونیه‌میز قالدیرابیلمه‌دیگی یئرده خسته اولور، زوکام توتور، گلیشیم دئدیگیمیز سوره‌جده ده بو بئله‌دیر. انساندیر، آفاللار. بیز ده آفاللادیق، آما آفاللاماغا بئله واختیمیز یوخدو. امضا توپلاییردیق ان سون. بلکه بیر یئرلره چاتار چاغریمیز دئیه‌رک ائو- ائو، قاپی- قاپی امضا توپلاییردیق. یالنیز دا دئییلدیک و اینانیردیق، بیر یئرلره واراجاقدی فریادیمیز و دئدیکلریمیز بوش-بوش سؤزلر دئییلدی. چالدیغیمیز قاپیلارا داها دونمه قدر آرخاداشیمیزی چاغیریب، کوچه‌ده اویون اویناماق اوچون گئدردیک. ایندی ایسه ایسلاق بیر امضا داها آلماق اوچون.

یاغمورلو بیر گوندو. آغ-قارا بیر خاطیرانی آنیمسار (خاطیرلایار) کیمی عاغلیما گتیریرم او گونکو جاده‌لری، کوچه‌لری، ایسلاق پنبه قالدیریم داشلارینی. اؤزوموزدن بیر شئیلر آرادیغیمیز سولوق دووارلارا باش قالدیران سارماشیقلاری. کولک بئله آلاجاقلی کیمی ائولرین جاملارینا هجوم ائدیردی. یکپاره اولاراق ایندی ان چوخ کولگین دویوسونو حیسّ ائده‌بیلیرم. چونکو منی تانییان بوتون دوستلاریم چوخ یاخشی بیلیر کی، کولکدن هئچ خوشوم گلمز و نه زامان کولک باشینی چیخارسا بو ممنونیتسیزلیگیمی دیله گتیره‌رم. یاغمورلا آرامیزدا بیر دوشمنلیک سؤز قونوسو دئییل، حتی بعضا آخشاملار کاشکی یاغمور آتیشدیرسا دا بو تورپاغین قوخوسونو جیگرلریمیزه دولدورسا، جاده‌لرین، کوچه‌لرین پیسلیگی یویونسا، کوچه‌لرله برابر بیز انسانلارین ایچینده‌کی پیسلر، ایرینلر ده آخسا گئتسه دئیه ایچیمدن گئچیریره‌م،

آنجاق کولک باشقا. ایشته او گون، بو مسئله‌دن اولدوقجا مضطرب ایدیم. فقط ال محکوم، بیز یئنه دیشاریدایدیق. آنالاریمیزین سوتو حلال دئییلدی، آتاالاریمیزین خبری بئله یوخدو یا بیز هر کسه رغماً کوچه‌لرده اولمالی‌ایمیشیک کیمی حیسّ ائده‌رک، بؤیوکلریمیزین سؤزونو یئنه دینله‌مه‌میشدیک.

اؤیرتمنیمیزی سئویردیک سئومه‌سینه یا بو یاپدیقلاریمیز ساده‌جه سئوگی ایله یاپیلاجاق ایشلر دئییلدی. وجدانیمیزا بیر قورد دادانمیشدی و بوراخمیردی یاخامیزی. بیر حاقسیزلیق سؤز قونوسو ایدی. هر نه یاپیردیقسا یاپیلماسی گرکدیگینی دوشوندوک و بو بیزیم اوچون بیر ناموس مسئله‌سی اولموشدو. دؤنولمز بیر یولا گیرمیشدیک. آدیمیز چیخمیشدی دوققوزا و ائنه‌جگی یوخ ایدی سککیزه. باشدا آلغیلایابیلمه‌دیک میملندیگیمیزی (اشارتلندیگیمیزی). ذاتاً میملنمک نه، اونو بئله بیلمیردیک. بیلمیردیک، تا کی او گونه قدر. بهنام‌لا بیر نئچه هفته‌دیر ائولره باش چکمیردیک. ائشیتمیشدیک، ضابیطلر ائولریمیزه ده اوغرامیش آنالاریمیزی اوجو گؤزوکمه‌ین سورولارلا توتموشلاردی. بیز ده بونو ائشیتدیگیمیزدن بیر دوستوموزون اوفیسینده یاتیب قالخیردیق. ایشلری ده ایره‌لیلتمیشدیک. اؤیرتمنیمیزین سالی‌وئریلمه‌سی خصوصوندا توپلادیغیمیز یئتری امضالار دؤرد دفعه سونولان مقاملار طرفیندن رد ائدیلمیش و بیز بئشینجی لیسته‌نی اولوشدورماغی بوراخیب آرتیق دووارلارا آفیشلر آسار اولموشدوق. هر آسدیغیمیز گئجه‌نین سحرینده توپلادیلان، آسدیغیمیز یئرده گؤره‌بیلمه‌دیگیمیز آفیشلری. آدیمیزین قارا لیسته‌لرده اولدوغونو او گونون سحریسی آنلادیم. اویسا بیزیم گؤزلریمیز بئله قارا دئییلدی. او یاغمورلو و کولکلی گون، محله‌میزده‌کی باقمال هر نه‌دنسه قاپالی ایدی و آرخا محله‌ده‌کی باققالا گئتمیشدیم، اورادا بیر چؤرکچی واردی، چؤرکچی‌نین اودونلاری باققالین اؤنونه قدر ییغیلی ایدی، ایچیمدن «نه‌دن بو یاغمورون آلتیندا، اوستونه بیر شئی سرمه‌دن اودونلارین ایسلانماسینا مساعده ائدیرلر؟» دئیه بیر سورو گئچیردیم. ییغیلی اودونلارین اوستونده‌کی چؤرکچی منی اوزون-اوزون سوزموشدو. او سوزدوکجه من ده اونو سوزمگه باشلامیشدیم. قارشیلیقلی بیر باخیشما سونراسیندا اوتوردوغو یئردن دوغرولان چؤرکچی سن اوسون، دئدی. سن اوسون!

داها کیم اولدوغومو بیله‌جک یاشدا دئییلدیم کی من. بو چؤرکچی هاردان بیله‌بیلیردی منیم کیم اولدوغومو، من کیم اولدوغومو هله بیلمزکن؟ آنجاق تانیمیشدی ایشته. من سورکلی دووارلارا آفیش آسان بیر نئچه اوشاقدان بیری ایدیم. بیر ایسلیق (فیشقا) چالماسی ایله تین باشینداکی ایری- یاری ایکی آدام قاچماغا باشلادی منه دوغرو. من قاچسام می قاچماسام می دئیه اوزون آنجاق بیر او قدر ده قیسا بیر زامان دوراقسادیم. سونرا قاچماغا باشلادیم. دابانلاریمدا بلیرن دوت شیپیرتیلاری ایله بیرلیکده قاچماغا باشلادیم. هارا قاچاجاغیمی بیلمیردیم، یاغمور یاغیردی و کولک یئنه منه مخالیفدی. کولگه قارشی قاچیردیم. کوچه‌نین سونوندا اوجو گؤزوکمه‌ین بیر دؤنه‌مه‌جه راست گلدیم، دؤنه‌مج، دؤنه‌مج دئییل صراط کؤرپوسویدو سانکی، دؤندوم و دؤنمله بیرلیکده آغ بیر ایشیق گؤردوم. آلوو یالیملاری اولان بیر آغ ایشیقدی بو. یاغمور یوخ ایدی، اؤزومه گلدیگیمده. قوخوسوندان آنلادیم، بیر ده سرچه‌لر اؤتوشوردو باهار هاواسی ایله. سونرا کولک یوخدو، اؤزومه گلدیگیمده. دووارلارین آردیندا راحات بیر یاتاقدا اولدوغومو آنلادیم. آنام، آتام یا دا اؤیرتمنیم یوخدو یانیمدا، اؤزومه گلدیگیمده آنلادیم. بیر بهنام واردی اولدوغوم اوتاقدا. قورولموش صندله، ایکی بوکلوم اولموش، یوخلاییردی. سسلنینجه اویاندی. گؤزونو اوودو، قالخدی همن خسته‌باخیجینی چاغیردی. خسته‌باخیجی یوخدو، اؤزومه گلدیگیمده. قاییشیندان آنلادیم، خسته‌باخیجیلار ضابیطلر کیمی قاییش تاخماز بئللرینه. آجی- آجی منه باخدی بهنام. دوغرولماق ایسته‌دیم، دوغرولابیلمه‌دیم. دوغرولابیلمه‌سی اوچون انسانین باجاقلاری‌نین

(قیچلاری‌نین) یئرینده دورماسی گره‌کیرمیش، چوخ سئودیگیم سول باجاغیمی یئرینده تاپابیلمه‌ییجه آنلادیم. گؤتوردولر سونرا بهرامی. سنین وظیفه‌ن بیتدی، دئدیلر. هاردایام دئیه سوروشدوم. جهنمین دیبینده‌سن، دئدیلر. سوسدوم. بیر داها بهنامی هئچ بیر زامان گؤره‌بیلمه‌دیم.

***

داها دونن محله‌میزه باش چکدیم، ایللر سونرا گئچدیم او کوچه‌لردن، پنبه قالدیریم داشلاری هله دورووردولار. سارماشیقلار هله ده ائله سالاش و عینادچی اوزانیردی کی، دووارلارا، بیر دئیه‌جگی واردی سانکی. ایللرله گلن، ایللرله بیریکن. اوشاق آغلاییشلاری و گولوشمه‌لری تیپا- تیپ بیزیم زامانیمیزداکیندانديی. بونلارین دیشیندا چوخ شئی ده دگیشمیشدی. آفیشلر یوخدو مثلا، چؤرکچی باقالی دا یانینا قاتاراق سوپر مارکت اولموش. بیر ده انسانلار چوخ دگیشمیشدی، گولموردولر اسکیسی قدر. یولدا گؤردویوم کیمسه‌نین منه سلام وئرمه‌مه‌سیندن آنلادیم. بهنامی و بهنام‌لا علاقه‌لی هر هانسی بیر ایپ اوجونو آراییردیم. چیخدیغیمدا ایلک ایش بهنامی آراماق اولاجاق دئیردیم هپ، ائله اولمادی ایشته، نه‌دن بیلمیرم بهنامی آراماقدان چوخ قورخدوم. اوزون بیر زامان بو قورخویلا یاشادیم. ایللر سونرا بیر جسارت اوزرینه دوشدوم یوللارا و گلدیم باغلار محله‌سینه. محله‌نین آدی دگیشمیشدی، داغلار محله‌سی اولموشدو. بو منی بیر سوره یانیلتسا دا گؤزوم قاپالی تاپیردیم سون کز موتلو اولدوغوم کوچه‌لری. بهنام‌گیلین ائوینه گئتدیم. قاپی قاپالی ایدی، اوزون بیر سوره هئچ چالینمامیشا بنزه‌ییردی. قهوه‌خانایا گئتدیم، اورادا بیزیم محله‌نین دلی‌قانلیلاریندان حسین واردی، گؤرونتوسوندن دئییل ده دانیشماسیندان شیپ دئیه آنلادیم اونون اولدوغونو، سینک (پشه) ویزیلتیسینا بنزر بیر سس تونو واردی حسین‌ین. بو اوزدن ایچری گیرر- گیرمز چؤزدوم کیم اولدوغونو. حسینه سینک حسین لقبینی ده من تاخمیشدیم. بیر آز دانیشینجا خاطیرلادی او دا منی. بهنام‌گیلی سوروشدوم، کؤچ ائتمیش نرگیز خالاگیل. کندلرینه دؤنموشلر. بهنام؟ دئدیم. اوندان خبر یوخ، هئچ آلینابیلمه‌میش. آز دوراقسادیقدان سونرا عاغلینا گلمیش اولاجاق، بئله دئدی سینک حسین: پکی مرضیه اؤیرتمندن خبرین اولدو مو هئچ؟ خئییر جوابینی مراکیمی گیزله‌یه‌بیلمه‌یه‌رک وئرمم اوزرینه قورشونا دوزولدویونو سؤیله‌دی سینک حسین. مرضیه اؤیرتمن ایگیرمی یئددی یاشیندایدی. نه اؤیرندییسک حیاتدان، چوخونو اوندان اؤیرنمیشدیک. جانیم ائله سیخیلدی، ائله سیخیلدی کی، گیزله‌یه‌بیلمیردیم حیسلریمی، اوزومدن دوشن مین پارچایدی. بو خبری ایللر سونرا آلمیش اولسام دا سارسیلمیشدیم. آلینان شعر خبرین آجیسی هپ ایلک گونکو تاثیرده‌دیر. بیر نقطه‌ده گؤزلریمی بولوشدوردوم و گؤزلریمله، هوسیمله، اورگیمله اورادا قالدیم. منیم بو حالیمی گؤرن سینک حسین چیینیمی سیخدی و اؤنومه تسللی نیتیندن بیر تاباق قویدو. تاباغا اوزون مو اوزون گولومسه‌دیم، تاباقدا دنه‌لنمیش نار واردی.

واریلیق

ISSN: 2149-7257

دیل، ادبیات، توپلوم و کولتور آراشدیرمالاری درگیسی
نشریه پژوهشی زبان، ادبیات، جامعه و فرهنگ
ایکینجی دؤنم، سایی: (۲)۳۲: ۲۰۲۳
دوره دوم، شماره: (۲)۳۲: ۲۰۲۳

ای فیض‌رسان عرب و تورک و عجم
من تورک زباندان التفات ائیله مه کم